Xalqın qəzeti!

# Xalq qəzeti

№ 269 (30385) 9 dekabr 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


**Azərbaycan–Ermənistan: qarşılıqlı etimadın təsiri ilə sülhə doğru**



Səhifə ⇨ 6

# Azərbaycan fevral zəfərinə hazırlaşır

## *Növbədənkənar Prezident seçkilərini keçirmək ideyası zərurətdən yarandı*



**Qloballaşan və sürətlə dəyişən dünyada əsl liderlər çevik, konstruktiv, milli maraqlara və dövlətçiliyə xidmət edən addımlar atmalıdırlar. Bu zaman milli maraqlarla beynəlxalq hüququn uyğunluğunu gözləmək də mühüm şərtdir. Çünki milli maraqların daimi reallaşması üçün dövlət səviyyəsində onun hüquqi prinsiplərə uyğun olmasını təmin etmək vacibdir. Prezident İlham Əliyev dövlət başçısı kimi bütün fəaliyyəti dövründə bu aspektlərdə yüksək zəka və məharət sahibi olduğunu sübut etmişdir. 44 günlük Zəfər savaşından sonra başlamış postmüharibə mərhələsində də siyasi situasiyaya tam hakim olduğunu nümayiş etdirməkdədir. Nümunələr çoxdur. Onların sırasında növbədənkənar Prezident seçkilərinin keçirilməsi ilə bağlı verilən sərəncam həm taktiki, həm də strateji baxımdan böyük əhəmiyyətə malikdir.**

Eyni zamanda, bu məsələnin geosiyasi, siyasi, hüquqi və dövlətçiliyin təkamülü aspektində kompleks olaraq vacibliyini anlamaq gərəkdir. Öncə, növbədənkənar Prezident seçkilərinin keçirilməsi zərurəti haqqında müəyyən məqamlara aydınlıq gətirək. Məsələ ondan ibarətdir ki, Azərbaycan dövlət müstəqilliyini XX əsrin 90-cı illərində bərpa edəndən sonra ölkə ərazisində Prezident seçkiləri keçirmək imkanına malik olmamışdır. Qarabağda erməni separatizmi və ona dəstək verən havadarları bu prosesi pozmuşlar. Necə deyərlər, 1990-cı ildən bu yana Qarabağda Azərbaycan Respublikası Prezidenti seçkilərinin seçki qutuları qoyulmamışdır. Bu da müəyyən hüquqi aspektlərdə bəzi bədxahlarımızın narazılığına səbəb olur, siyasi və hüquqi dairələrdə süni etirazlar yaradırdı.

2020-ci ildə 44 günlük Zəfər savaşından və 2023-cü ildə 23 saat 41 dəqiqəlik antiterror tədbirlərindən sonra Azərbaycan Respublikası dövləti tam olaraq beynəlxalq aləmdə hüquqi olaraq tanınan öz ərazi bütövlüyünü bərpa etdi. Bununla yanaşı, Azərbaycan Respublikası müstəqil dövlət kimi suverenliyini də tam təmin etdi.

*(ardı 3-cü səhifədə)*

# Avropa Şurası Azərbaycanın sülh addımlarını təqdir edir

## Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edib.**

Mariya Peyçinoviç Buriç Azərbaycanın 2001-ci ildən Avropa Şurasının dəyərli üzvü olduğunu vurğuladı. O, ölkəmiz tərəfindən Avropa Şurasının bir çox konvensiyasının imzalandığını və ratifikasiya edildiyini, bir müddət əvvəl Azərbaycan tərəfinin Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyasını imzaladığını xatırladı və bütün bunları müsbət addım kimi dəyərləndirdi. Avropa Şurasının Baş katibi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir.

Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi istiqamətində atdığı addımları təqdir etdiklərini deyən Mariya Peyçinoviç Buriç bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanatı və bundan irəli gələn məsələləri, xüsusilə iki ölkə arasında etimad quruculuğu tədbirləri istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini bildirdi, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında bu illər ərzində çox sıx əməkdaşlığın formalaşdığını qeyd etdi. Prezident İlham Əliyev özünün Avropa Şurası ilə əlaqələrini və Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı fəaliyyətini məmnunluqla xatırladı.

*(ardı 2-ci səhifədə)*

# Dünya sülhün əlindən tutur!




**Çoxdan gözlənilən hadisə baş verdi. Azərbaycan Prezidentinin Ermənistan rəhbərliyinə etdiyi sülh çağırışları, vasitəçisiz dialoq təklifləri, ikitərəfli münasibətlərin normallaşdırılması istiqamətində xoşməramlı jestləri, nəhayət, öz bəhrəsini verdi. İrəvan Bakı ilə ortaq məxrəcə gəlməkdən başqa yolunun olmadığını başa düşdü və siyasi iradə nümayiş etdirərək, ilk addımını atdı. Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Ermənistan Respublikası baş nazirinin aparatı arasında qəbul olunmuş birgə açıqlamanı məhz bu kontekstdə dəyərləndirmək daha doğru olar. İki ölkə arasında əldə olunacaq sülhün müjdəçisi sayıla biləcək birgə açıqlamanın tarixi əhəmiyyətini dünyanın aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar da təqdir edir və bu təşəbbüsü dəstəklədiklərini bildirirlər.**

### Vaşinqton

“Birləşmiş Ştatlar Ermənistan və Azərbaycanın iki azərbaycanlı və otuz iki erməni əsirin azad edilməsi barədə açıqlamasını alqışlayır. Bu öhdəlik tərəflərin sülh müqaviləsi prosesini yekunlaşdırmaq və münasibətləri normallaşdırmaq üzərində işlədiyi bir vaxtda vacib etimadın möhkəmləndirilməsi tədbiridir. Biz Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistan baş naziri Nikol Paşinyanı Cənubi Qafqaz xalqlarına daha dinc və firavan gələcək üçün zəmin yaratmaq üçün birgə səylərinə görə alqışlayırıq”.

Bu barədə ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Millerin Bakı və İrəvanın məlum birgə açıqlaması ilə bağlı verdiyi bəyanatında deyilir. Ağ ev təmsilçisi daha sonra yazıb: “Birləşmiş Ştatlar bölgədə davamlı və ləyaqətli sülhə nail olmaq üçün səyləri güclü şəkildə dəstəkləməyə davam edəcək”.

*(ardı 6-cı səhifədə)*

# Bakı – İrəvan: birbaşa dialoqa start



Səhifə ⇨ 4

# “Gəlin, baxın – öz məhsullarımızdır”

Səhifə ⇨ 13

# Orta Dəhlizin nəbzi Azərbaycanda döyünür




Səhifə ⇨ 13

# Sözün Çıraqqala əzəməti



Səhifə ⇨ 14

# Arazqırağının Zəfər təməlli şəhəri — Füzuli

Səhifə ⇨ 8

# Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün qarşılıqlı siyasi iradənin bir daha nümayişidir. Dövlətimizin başçısı vurğuladı ki, Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Söhbət zamanı AŞPA-da Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında da əlaqələrin və konstruktiv dialoqun vacibliyi bildirildi. Praktiki sahələrdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdiyi qeyd olundu.

Görüşdə mədəniyyətlərarası dialoq prosesində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığa toxunuldu, bu əməkdaşlığın davam etdirilməsinin önəmi vurğulandı. Ölkəmizdə ənənəvi keçirilən mədəniyyətlərarası dialoq forumunda Avropa Şurasının tərəfdaş qismində çıxış etməsinin, həmçinin Avropa Şurasında islamofobiya meyllərinə qarşı xüsusi nümayəndənin təyin olunmasının təqdir edildiyi bildirildi.

**AZƏRTAC**

# XİN: görüşlər, danışıqlar

**Dekabrın 8-də xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç ilə görüşüb.**



Nazir Ceyhun Bayramov Azərbaycanın AŞ-ya üzv olmasından ötən müddət ərzində insan hüquqlarının qorunması, qanunun aliliyi və demokratiyanın inkişafı sahələri üzrə təşkilatla yaxından əməkdaşlıq etdiyini, aidiyyəti üzrə bir sıra konvensiyalara qoşulduğunu, habelə müxtəlif birgə proqramların həyata keçirildiyini məmnunluqla qeyd edib.

Azərbaycan ilə AŞ arasında mövcud fəaliyyət planı üzrə görülən işlərdən bəhs edən tərəflər xüsusilə ədliyyə sisteminin təkmilləşdirilməsi, medianın inkişafı və digər istiqamətlərdə əməkdaşlığın səmərəli nəticələr verdiyini bildiriblər.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə apardığı genişmiqyaslı bərpa-quruculuq işləri, bu fəaliyyətə və vətəndaşlarımızın təhlükəsizliyinə hədə olan mina təhdidi, Qarabağ bölgəsindəki erməni sakinlərin reinteqrasiyası barədə qarşı tərəf ətraflı məlumatlandırılıb. Cari ilin sentyabr ayında Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirlərini şərtləndirən amillərdən bəhs edən nazir Ceyhun Bayramov, ərazilərimizdə qeyri-qanuni erməni silahlı qüvvələrinin mövcudluğunun bu qəbildən olan ən böyük təhdidlərdən biri olduğunu qeyd edib. Bu istiqamətdə, sözügedən antiterror tədbirlərinin görülməsinin bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinin qarşısında duran maneələrin aradan qaldırılmasında əhəmiyyətli rol oynadığını qeyd edib. Antiterror tədbirlərindən sonra bölgəyə səfər edən Avropa Şurası daxil olmaqla, bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin də təsdiq etdiyi kimi, Ermənistan tərəfindən ölkəmizə qarşı aparılan qarayaxma kampaniyası çərçivəsində irəli sürülən iddiaların əksinə, mülki şəxslərə qarşı heç bir zorakılıq faktının müşahidə olunmadığı vurğulanıb.




Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər müzakirə olunub.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ilə Estoniyanın xarici işlər naziri Marqus Tsahkna arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı regionda hazırkı proseslər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri müzakirə mövzusu olub.

Nazirlər ikitərəfli siyasi dialoqun intensivləşməsinin və qarşılıqlı səfərlərin iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıblar.

Nazir Ceyhun Bayramov Azərbaycan-Ermənistan normallaşma prosesinin perspektivləri barədə qarşı tərəfə məlumat verib. Bu ilin sentyabrında bölgədə aparılan antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin ərazilərimizdə mövcudluğuna son qoyulmasından sonra sülh prosesində real irəliləyişlər əldə edilməsi üçün geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb.

**XQ**

# Azərbaycan və Rusiya Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 20-ci yubiley iclası

**Dekabrın 8-də Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası əməkdaşlıq komissiyanın 20-ci yubiley iclası keçirilib.**



İclasa Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli və Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin həmsədrlik ediblər.

Tədbiri açan Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan və Rusiya dövlət başçılarının səyləri nəticəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsindən bəhs edərək, hər iki ölkənin bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib. Milli Məclis sədrinin birinci müavini komissiyanın ötən iclasından sonrakı dövr ərzində regiondakı vəziyyət barədə qısa məlumat verib. O, cari ildə Azərbaycanın həyata keçirdiyi uğurlu lokal antiterror tədbirlərinin Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış 10 noyabr tarixli üçtərəfli Bəyanatın 4-cü maddəsinə tam uyğun olduğunu, nəticədə, ölkəmizin bütün ərazisində suverenliyin tam bərpa edildiyini bildirib.

Azərbaycanın Rusiya üçün dost və strateji tərəfdaş ölkə olduğunu vurğulayan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin hazırda ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu deyib. O, əməkdaşlıq əlaqələrinin davam etdirilməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini qeyd edib, münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Sonra gündəlikdə olan məsələlərə dair məruzələr dinlənilib.

**XQ**

# Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhəri Pirallahı rayonunun Pirallahı qəsəbəsi ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 300,0 (üç yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 dekabr 2023-cü il**

# Gədəbəy rayonunun Kiçik Qaramurad–Cəfərli–Əyrivəng–Alnabat–Kərimli–İnəkboğan–Göyəmli–Şınıx–Göyəlli–Çobankənd–Şahdağ–Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** On yeddi min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Kiçik Qaramurad–Cəfərli–Əyrivəng–Alnabat–Kərimli–İnəkboğan–Göyəmli–Şınıx–Göyəlli–Çobankənd–Şahdağ–Çiçəkli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 8 dekabr 2023-cü il**

# MSK növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini təyin edib



**Dekabrın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

Əvvəlcə MSK sədri Komissiya üzvlərini növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə tanış edib. Sonra növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması məsələsinə baxılıb və sərəncamın müvafiq hissəsini təmin etmək məqsədilə seçkilərin 2024-cü il fevralın 7-nə təyin edilməsinə qərar verilib.

Komissiya seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl və keyfiyyətlə gerçəkləşdirilməsi, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün zəruri məqamların əks olunduğu Təqvim planını təsdiq edib.

Sözügedən seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də iclasda baxılıb və Komissiyanın qərarı ilə 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Qanunvericilikdə nəzərdən tutulmuş müddətdən gec olmayaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə dairə seçki komissiyalarına həvalə olunub.

MSK-nın qərarı ilə, həmçinin növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində olan imzaların və digər seçki sənədlərindəki məlumatların düzgünlüyünü yoxlamaq üçün müvafiq dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və Komissiyanın üzvü işçi qrupunun rəhbəri təyin edilib.

Beynəlxalq təşkilat və xarici ölkələrin diplomatik nümayəndəliklərinin, eləcə də media qurumlarının təmsilçilərinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

**XQ**

# Moskvada Azərbaycan və Rusiya Baş nazirləri müavinlərinin görüşü

**Moskvada Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun görüşü olub.**

RF Hökumətinin mətbuat xidmətinin məlumatına istinadla xəbər verir ki, tərəflər Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının işinin gündəliyinə daxil olan ikitərəfli ticari-iqtisadi əməkdaşlığın aktual məsələlərini nəzərdən keçiriblər.

Hökumətlərarası Komissiyanın həmsədrləri ikitərəfli əməkdaşlığın səmərəliliyini təsdiqləyən ticarət inkişafının müsbət dinamikasını vurğulayıblar. Görüşdə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsinin artımının 2023-cü ilin yanvar-oktyabr aylarında 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz təşkil etdiyi qeyd olunub.

Tərəflər Rusiya və Azərbaycan münasibətlərinin bütün istiqamətlər üzrə möhkəmlənməsinə yönələn konstruktiv dialoqun davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

# Azərbaycan fevral zəfərinə hazırlaşır

## Növbədənkənar Prezident seçkilərini keçirmək ideyası zərurətdən yarandı



(əvvəli 1-ci səhifədə)

Müasir müstəqil dövlətin mövcudluğunun geosiyasi, siyasi və hüquqi amillərindən xəbərdar olan hər kəs yaxşı bilir ki, bu, ilk növbədə, ölkənin daxilində, regionda və dünya miqyasında yeni siyasi-hüquqi və geosiyasi durumla bağlıdır. Konkret ifadə etsək, artıq reallıq olan bu durumun dövlətçilik baxımından siyasi və hüquqi təsbiti zərurətə çevrilmişdir. Növbədənkənar Prezident seçkiləri bu təsbitə aparan real hüquqi prosesdir və siyasi-geosiyasi "yoldur". Bu məqamın siyasi təhlili üzərində geniş dayanaq.

### a) "Siyasi konformizm"i qəbul etməyən lider

Öncə, vurğulayaq ki, növbədənkənar Prezident seçkiləri keçirilməsi haqqında dövlət başçısının sərəncamı müstəqil siyasətdən və yüksək siyasi iradədən xəbər verir. Müasir politologiyada "siyasi konformizm" adlanan bir məhfum var. Siyasətdə konformizm passiv siyasi uyğunlaşmanı, adaptasiyanı ifadə edir. Bu, həm də mövcud siyasi nizamın öz siyasi mövqeyi olmadan passiv qəbul edilməsidir. Bir qədər geniş aspektdə konformizm "mənə bir şey olmasın" məntiqi ilə hakim siyasi stereotiplərə boyun əyməkdir.

Prezident İlham Əliyev seçkilərlə bağlı atdığı addımla, ümumiyyətlə, 2003-cü ildən başlayan müstəqil siyasətçi-lider obrazını bir daha təsdiqləmiş oldu. Çünki məhz Zəfər savaşından və bir günlük antiterror tədbirlərindən sonra Azərbaycana müxtəlif istiqamətlərdən təzyiq emeyə çalışanlar, özlərinin siyasi maraq və məqsədlərini qəbul etdirməyə cəhd edənlər az deyil. Elə indi də, xüsusilə Qərb dövlətləri tərəfindən "məsləhət" verənlər, "yol göstərənlər" və bir sıra hallarda "ittiham edənlər" də meydandadırlar. Onların hay-küyü azalmır.

Bütün bunlara Prezident nəinki sinə gərdi, hətta öz düşünülmüş dövlət quruculuğu siyasətini yeni mərhələyə yüksəltdi. İlham Əliyev konformizm arxasında gedən lider deyildir. Növbədənkənar Prezident seçkiləri məhz bu şücaətin, dərin siyasi kursun növbəti rəmzidir.

Bundan başqa, növbədənkənar seçkilərin üç aspektdə siyasi əhəmiyyəti vardır. Onlar Azərbaycan cəmiyyətində, beynəlxalq aləmdə və strateji fəaliyyət istiqamətlərində olduqca dərin mənaya malikdirlər.

### b) Siyasi leqallıq və legitimlik

Birincisi, hakimiyyətin leqallığı (qanuniliyi) məsələsi ilə bağlıdır. Politologiyada hakimiyyətin leqallığı qanuni hüquqa əsaslanan fenomendir ki, rasional əsaslandırılmış sanksiyalarla möhkəmləndirilməlidir. Bu zaman leqallığa mənəvi aspekt ikinci sıraya keçir. Yəni müasir müstəqil və suveren dövlət üçün hakimiyyətin leqallığı prinsipial hüquqi aktdır. O, faktiki olaraq siyasi nizamı müəyyən edir.

Təsadüfi deyildir ki, müstəqil dövlətlərə qarşı Qərbin bir sıra dairələri məhz hakimiyyətin leqallığı ilə bağlı müxtəlif addımlar atmağa çalışırlar. Süni yollarla cəmiyyətdə və beynəlxalq aləmdə hakimiyyətin tam leqal olmadığı təəssüratını yaratmağa cəhdlər edirlər. Etiraf edək ki, indi bir sıra ölkələrdə müşahidə olunan "rəngli inqilablar" həm də hakimiyyətin leqallığına şübhə yaratmaq istiqamətində atılan qondarma addımların nəticəsidir. Bundan başqa, məsələnin daxili ictimai durumla bağlı çox vacib tərəfləri mövcuddur.

Deyək ki, hakimiyyət qanuni nüfuza malik ola bilər. Lakin cəmiyyət bunu ədalətli hesab etməyə bilər. Bu, başqa şərtlərlə yanaşı, o zaman baş verir ki, ölkənin hər hansı bir hissəsində dövlət başçısı seçkisində vətəndaşların iştirakı təmin edilmir. Hüquqi fakt olaraq müəyyən dairələr bəyan edirlər ki, cəmiyyətin konkret hissəsi dövlət başçısının seçilməsində iştirak etmədiyindən iqtidar legitim deyildir. Buna müasir siyasi elmdə "legitimlik defisiti" deyirlər!

Siyasi legitimlik qəbul edilən siyasi nizamın hüquqi və mənəvi olaraq ədalətli olmasına inamdır! Onu vurğulayaq ki, legitimlik cəmiyyətin daha çox hissəsinin və əsas siyasi qüvvələr tərəfindən mövcud dövlət hakimiyyətinin, onun fəaliyyətinin və təşəkkül üsullarının (siyasi varisliyi və ya irsiliyi, seçim qaydasını və s.) tanınmasıdır.

Deməli, indiki mərhələdə Azərbaycan üçün həm daxili durum, həm də beynəlxalq münasibətlər kontekstində hakimiyyətin leqallığı və legitimliyi taktikası ilə yanaşı, strateji əhəmiyyət kəsb edir. Özü də məsələnin bu tərəfi çox məqamları özündə ehtiva edir.

Birinci, onu deyək ki, erməni işğalı altında olan ərazilərdən başqa, Azərbaycan Respublikasının digər ərazisində hazırkı hakimiyyət həm tam leqal, həm də tam legitim olaraq vətəndaşlar və siyasi qüvvələr tərəfindən tanınırdı. Buna zərrə qədər də şübhə yox idi. Çünki seçkilər tam şəffaf və seçicilərin yüksək aktivliyi şəraitində keçirilmişdir və İlham Əliyev böyük səsçoxluğu ilə qalib gəlmişdir. Bunu əsas siyasi qüvvələr də qeyd-şərtsiz qəbul etmişlər.

İkinci, eyni zamanda, 2003-cü ildən bu yana bədxahlarımız olan müəyyən dairələr süni təsirlərlə iqtidarın leqallığını və legitimliyini nə qədər şübhə altına almağa çalışsalar da, cəmiyyət bu oyuna getməmişdir.

Üçüncü, ancaq indi məsələnin aktuallığı Azərbaycan Respublikasının işğaldan azad olunmuş hissəsində yaşayan vətəndaşların da seçiləcək Prezidentin, onun quracağı hökumətin leqallığını və legitimliyini təsdiq etməli olmaları ilə bağlıdır!

Bu, başqa məqamlarla yanaşı, bütün ölkə ərazisində siyasi varisliyin (irsiliyin) və seçim qaydasının qəbul edilməsi deməkdir! Həmin hadisə baş verdikdən sonra, Qarabağın yeni inzibati-ərazi strukturlaşması və idarəetmə üsulu ilə tam leqal və legitim Azərbaycan ərazisi olduğu hüquqi təsbit edilmiş olur!

Əlbəttə, növbədənkənar Prezident seçkilərinin vurğulanan siyasi, hüquqi və mənəvi tərəfləri ilə yanaşı, dövlət başçısının konkret siyasi çağırışları və dəvətlərini də ehtiva etdiyini deməliyik. Bu baxımdan İlham Əliyevin bu addımı hakimiyyətlə intellektin yeni səviyyədə birliyinə səsləyiş və dəvətdir!

### c) Hakimiyyətlə intellektin birliyi

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun tam legitimliyi və leqallığının təmini suverenliklə yanaşı, sosial tərəqqi üçün daha geniş fəaliyyət məkanı yaratmaq xətti ilə sıx bağlıdır. Suverenlik və legitimlik yalnız hüquqi fakt deyildir, həm də cəmiyyətin tərəqqisini təmin edə biləcək konkret fəaliyyət planıdır. Bu planın reallaşdırılması sadə iş sayılmır. Burada Prezident – lider siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və mənəvi-əxlaqi aspektlərin vəhdətinə nail olmalıdır.

Növbədənkənar Prezident seçkiləri həmin aspektdə hakimiyyətlə intellektin daha yüksək səviyyədə birliyinə səsləyişdir! Bu fenomenə "ləyaqətli hakimiyyəti" (meritokratik) təmin etmə də demək olar. Bunun mənası ondan ibarətdir ki, müasir mərhələdə hakimiyyətlə intellekt nə qədər yüksək səviyyədə çulğalaşarsa, bir o qədər sosial tərəqqi geniş məkan qazanar.

Meritokratiyada daha istedadlı, yaradıcı və innovativ düşünən intellekt sahiblərinin dövlət quruculuğuna cəlb edilməsi başlıca məqsədlərdən sayılır! İlham Əliyevin siyasi kursunda, o cümədən müstəqil inkişaf etmiş milli dövlət quruculuğu konsepsiyasında insan və intellekt faktorlarının mərkəzi yer tutması bütün bunlara görə təsadüfi deyildir! Bu xəttin 2024-cü ildə Prezident seçkilərindən sonra da davam etdirilməsi zəruridir.

Təbii ki, həmin çərçivədə dövlətin ərazi bütövlüyünün, suverenliyinin və siyasi legitimliyinin tam təmin edilməsi mühüm şərtdir. Çünki o halda ölkənin intellektual potensialını dövlət quruculuğu prosesinə daha səmərəli cəlb etmək imkanı yaranır. Burada siyasi varisliyin təmini də ciddi rol oynayır. Hakimiyyətlə intellektin münasibətləri sinerji yaratmağa istiqamətlənir. Deməli, hakimiyyət – intellektual birliyi liderliyin siyasi sinerjisində mühüm yer tutan amillərdəndir.

Bu prosesdə mühüm funksiyanı yerinə yetirən digər bir məqamı da vurğulamaq gərəkdir. Prezident növbədənkənar Prezident seçkiləri təyin etməklə, bütövlükdə, Azərbaycan seçicilərini həmrəylik göstərməyə və bunu həm də dövlətçilik qarşısında bir məsuliyyət kimi yerinə yetirməyə dəvət edir.

### d) Həmrəylik toplum məsuliyyəti kimi

Bütövlükdə, həmrəyliyin fəlsəfi-sinergetik anlamı mürəkkəbdir. Biz ona toxunmuruq. Siyasi mənası olan məqam kimi isə həmrəylik ümumi maraq daxilində fəaliyyət və inanc birliyi nümayiş etdirməyin əyani ifadəsi olduğunu qeyd edə bilərik. Həmrəylik bu əsasda ümumi məqsədə çatmağa yardım edir. Hazırda hər bir Azərbaycan vətəndaşı üçün müstəqilliyi qorumaq və yüksək inkişaf səviyyəsinə nail olmaq ümumi məqsədlər sırasındadır. Bunu isə qüdrətli lider, milli və çalışqan iqtidar, leqallığı və legitimliyi tam qəbul edilən hakimiyyət vasitəsilə reallaşdırmaq mümkündür.

Azərbaycanda Vətən savaşını başlamaq vaxtı və bir sutqalıq antiterror tədbirləri necə böyük strateji əhəmiyyət daşıyırdısa, növbədənkənar Prezident seçkilərinin zamanı da bir o qədər strateji olaraq vacibdir. Hətta, həmin qərarın geosiyasi, siyasi və idarətmə ilə yanaşı, legitimlik və leqallığın hüquqi təsbiti baxımında əhəmiyyəti olduqca yüksəkdir.

Bu qərar neçə-neçə bədxahın Azərbaycana ziyan vurmaq imkanını əlindən alır!

Bu qərar həm də Azərbaycan toplumunu yeni səviyyədə milli müstəqil dövlətçilik yolunda səfərbərliyə dəvət edir.

2024-cü ilin Prezident seçkiləri postmüharibə mərhələsinin ən vacib addımlarından biridir.

Bütövlükdə, cənab Prezidentin toplumsal məsuliyyətə çağırışıdır.

Xeyirli, uğurlu olsun!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

**Milli Məclisdə**

## Növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti iclası keçirildi. Əvvəlcə S.Qafarova qeyd etdi ki, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaratmışdır. 2024-cü il fevralın 7-də təşkil ediləcək növbədənkənar prezident seçkiləri bu reallıqların təsbitidir və müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər ölkəmizin bütün ərazisində keçiriləcək.**



"Növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri də adlandırmaq olar", deyən Sədr Prezident İlham Əliyevin xalqa verdiyi bütün vədləri tam yerinə yetirdiyini bildirdi. Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu həyata keçirilmiş və Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulmuşdur. Bu gün Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda qürurla dalğalanır.

Ölkə başçısının rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır. Prezidentin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirmişdir.

Qeyd edildi ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsi növbəti Prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər.

Əminliklə qeyd olundu ki, gələn il fevralın 7-də şəffaf şəraitdə keçiriləcək azad və ədalətli Prezident seçkiləri ölkəmizdə demokratiyanın təntənəsinə çevriləcək, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bu seçkilərdə də öz müdrik qərarını verəcəkdir.

S.Qafarova 105 il bundan əvvəl, 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətə başladığını xatırladaraq dedi ki, son dərəcə mürəkkəb şəraitdə bugünün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərən tarixi bir hadisə olmuşdur.

Sonra deputatlar növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən amillərdən söhbət açdılar. Çıxışlarda qeyd edildi ki, ölkə başçısı qarşıya qoyduğu bütün strateji hədəflərə nail olub və onları həll edib. Qarşıda yeni hədəflər dayanıb və ona görə də fevralın 7-də növbədənkənar seçkilərin keçirilməsi tamamilə məqsədəuyğundur.

Sonra S.Qafarova gündəliyə 24 məsələnin çıxarıldığını dedi və Milli Məclisin qərar layihəsi barədə özü məlumat verdi. Qərar layihəsinə görə Fazil Mustafa Milli Məclisin Mədəniyyət komitəsinin sədri seçildi.

Sonra gündəlikdəki digər qanun layihələri müzakirə olundu. "Aviasiya haqqında" qanunun layihəsinin müzakirəsi zamanı deputat Sabir Rüstəmxanlı təyyarədə verilən bəzi məlumatlara iradını bildirdi. Dedi ki, təyyarədə eybəcər dildə danışmaq olmaz. Vaxtilə təyyarələrdə bələdçilərin danışığını özlərindən başqa heç kim başa düşmürdü.

Sonra gündəlikdəki digər qanun layihələri də müzakirə olunaraq müvafiq qərar qəbul edildi.

*Əliqismət BƏDƏLOV*
*XQ*

---



## Avropa Şurasının Baş katibi Milli Məclisdə

**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycanla Avropa Şurası arasında mövcud əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Milli Məclisin sədri Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı çərçivəsində görülmüş işləri, həyata keçirilmiş birgə proqramları qeyd edib. O, regionda gedən proseslər barədə ətraflı məlumat verib.

Parlamentin sədri qeyd edib ki, bu gün artıq Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir manea yoxdur. Bu mənada, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması üçün mühüm addım kimi qiymətləndirilib.

Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasının dəyərli üzvü olduğunu vurğulayıb. O, Azərbaycan parlament nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasında fəal iştirakını qeyd edib.

Eyni zamanda, Avropa Şurasının Azərbaycan və Ermənistan Regionda davamlı sülhün təmin edilməsi istiqamətində ölkəmizin atdığı addımları təqdir etdiklərini bildirən Mariya Peyçinoviç Buriç Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğulayıb.

*XQ*

# Sülhə qarşı terror ehtimalı

## Sabiq baş nazir Sarkisyanın son sözündən Paşinyan hakimiyyətinin ilk jestinədək

**Yazımız Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasına hər iki ölkədəki reaksiyalardan qaynaqlanır. Daha doğrusu, əsasən Ermənistandakı reaksiyalara nəzərən bəzi xarakterik məqamların üzərində dayanacağıq.**

Əvvəlcə onu vurğulayaq ki, məlum açıqlama cəmiyyətimiz üçün gözlənilməz oldu. Axı, Bakı və İrəvan arasında gərginlik var idi. Buna rəğmən Azərbaycan ictimaiyyətinin məsələyə pozitiv yanaşdığı ortadadır. Əlbəttə, ölkəmizdə növbədənkənar Prezident seçkilərinin elan olunması ilə eyni vaxtda normallaşma xəttinin götürülməsini bəzi müxalif qüvvələrin konspriativ tərzdə qarşılamasını, öz aləmlərində qlobal nəticələr çıxarmasını vurğulamalıyıq. Ancaq bu mülahizələr daha çox "arxadan atılan daş topuğa dəyər" misalını xatırladır. Üstəlik, karvanın itin hürməsinə əhəmiyyətsiz yanaşaraq, yoluna davam etməsinə dair el misalımız da var. Yəni, hər bir halda Azərbaycan, ümumən, sakitdir. Deməli, sülhə doğru gedən yolun ölkəmizdən keçən hissəsi rəvandır.

Bəs, Ermənistanda vəziyyət necədir? Diqqət yetirdiyimiz reaksiyalar fonunda bir məqam ortaya çıxmaqdadır. Söhbət ölkədəki revanşist-şovinist kəsimdən, onun normallaşma xəttinə münasibətindən gedir. O kəsim ki, ümumən xalq arasında populyar olmasa belə, hətta, hiddət doğursa da, 44 günlük müharibədən sonrakı müddətdə cəmiyyətə təsir göstərməyi bacarır. Ona görə ki, erməni cəmiyyətinin Azərbaycana münasibət müstəvisində avantürizmə kökləndiyi aşkar həqiqətdir. Deməli, baş nazir Nikol Paşinyanın qarşısında dayanan başlıca vəzifə revanşist kəsimin ağzını yummaq olmalıdır. Bu qütbün təmsilçilərinin ağzını yummaq isə adi məsələ deyil. Yəni, onlar "silahı" xoşluqla yerə qoyana oxşamırlar. Və deməli, Ermənistan baş naziri Nikol Paşinyanın diktaturasına ehtiyac yaranacaq.

***

Nəzərə alsaq ki, Ermənistandakı şovinist-revanşist kəsimin əksər hissəsi köhnə hakimiyyət komandasının təmsilçiləridir, əslində, N.Paşinyan onlara qarşı 2018-ci ildən, yəni hakimiyyətə gəldiyi vaxtdan mübarizə aparmaqdadır. Mövcud xüsusda ölkədə açılmış cinayət işlərinin sayı az deyil. Heç şübhəsiz, bundan sonra mübarizə daha güclü olmalıdır. Çünki məlum açıqlama Ermənistanı qat-qat həssas mərhələyə çıxarır. Bu mərhələdə hansısa büdrəmələr və ləngimələr yolverilməzdir.

Üstəlik, Qərbin sözsüz birmənalı dəstəyini üzərində hiss edən N.Paşinyanın radikal addımlar atmasına ehtiyac var. Necə deyərlər, incəsənət qurban tələb edir. İndiki halda incəsənət sülhdür. Deməli, Nikol sülh sülh naminə, belə demək mümkünsə, öz demokratiyasını qurban verməlidir. Heç olmasa, epizodik şəkildə. Amma o da mümkündür ki, Paşinyan heç bir qurban verməsin. Dedik axı, o, Qərbin güclü dəstəyi ilə əhatə olunmaqdadır. Yeri gəlmişkən, ötən müddət göstərdi ki, Qərbin Nikola yeganə dəstək verə bilmədiyi xüsus Azərbaycanla münasibətlərdir. Burada Avropa üçün bığ-saqqal dilemması yaranır. Bığı əsas tutan qərblilər Bakının əks həmlələri sayəsində saqqalın əldən getdiyini çox görüblər.

***

Bəli, hazırda Bakı ilə sülh razılaşması istiqamətindəki birgə açıqlamaya dünyanın dəstəyi Paşinyanı populyarlaşdırır. Mövcud dəstək bumunda onun anti-sülh mövqe tutanlara qarşı əvvəlkindən xeyli qətiyyətli davranması mümkündür. Ancaq bütün bunların fonunda deməliyik ki, Ermənistanda sülh yolundakı birgə açıqlamaya zidd yalnız bir hadisənin gerçəkləşmə ehtimalı var. Söhbət terrordan gedir.

Əlbəttə, tam mənada 1999-cu il Ermənistanı ilə indikini müqayisə etmək istəməzdik. Ancaq nəzərə almalıyıq ki, ölkədəki revanşist-şovinist kəsimin xaricdə də ciddi dayaqları var. O dayaq ki, 2020-ci ildən sonra xeyli aktiv idi və onun Azərbaycana qarşı Paşinyan iqtidarı ilə əlbir olduğuna dair görüntü formalaşmışdı. İndi deyək ki, məlum birgə açıqlama rəsmi İrəvanın mövqeyinin yumşalması və konstruktiv addım atmasıdır. Bəs, xaricdəkilər necə, onlar da konstruktiv ola biləcəklərmi? Ağla batana oxşamır. Mövcud durumda həmin xarici kəsimin Nikol Paşinyanı xain elan etməsi və onu aradan götürməyə, yəni fiziki məhvinə çalışması mümkündür. 1999-cu ilin İrəvandakı məlum parlament qətliamını yada salmağımız da bu ehtimalın aktuallığı ilə bağlıdır.





1999-cu il oktyabrın 27-də Nairi Hunanyanın başçılıq etdiyi 5 silahlı şəxs paytaxt İrəvanda Ermənistan parlamentinə daxil olmuş, ölkənin siyasi rəhbərliyindəki de-fakto qərar qəbul edənlər – baş nazir Vazgen Sarkisyan və spiker Karen Demirçyan daxil olmaqla 8 nəfəri qətlə yetirmişdilər. Silahlı hücum ölkənin siyasi mənzərəsində ciddi dəyişikliklərə səbəb olmuşdu.

Terror aktı zamanı Hunanyanı qardaşı Karen, əmisi Vram və digər iki nəfər müşayiət etmişdi. Onlar dövlət çevrilişi etdiklərini bildirmiş, hərəkətlərini "vətənpərvərlik" və "millətin öz hisslərini yenidən qazanması üçün vacib" addım kimi önə çəkmişdilər. Tanış mənzərədir, deyilmi? Hazırda Paşinyana qarşı çıxanların fikirlərinə diqqət yetirin...

1999-cu ilin terrorçuları, həmçinin "hakimiyyəti millətə etdikləri işlərə görə cəzalandırmaq istədiklərini" də bildirmişdilər. Onlar hökumətin "xalqın qanını içdiyini" bildirmiş və bəyan etmişdilər ki, Ermənistan fəlakətli vəziyyətdədir. İndi də eyni düşüncəni bölüşənlər var və belələrinin fikrincə, vəziyyətin tək günahkarı Paşinyan iqtidarıdır.

***

1999-cu ilin parlament qətliamı teatrının növbəti hissələrində yaşananlar da hər kəsin yaxşı xatirindədir. Televiziyada çıxış edən prezident Robert Koçaryan vəziyyətin nəzarət altında olduğunu bildirmişdi. Onun sözçüsü Vahe Qabrielyan silahlıları "fərdi terrorçu" adlandırmışdı. Hunanyan ifadəsində "Baş nazirin sağ qalması mümkün deyildi" demişdi. Sual olunur: hazırda Ermənistanda və ölkənin xaricində baş nazir Paşinyanın aradan götürülməsini istəyənlər azdırmı? Hər halda, yetərincədir.

Nəzərə alaq ki, Sarkisyan və Demirçyanın islahata meyilli koalisiyası 1999-cu ilin mayında keçirilmiş parlament seçkilərini səs çoxluğu ilə qazanmış və praktiki olaraq prezident Robert Koçaryanı siyasi səhnədən kənarlaşdırmışdı. Söz sahibinə çevrilmiş Sarkisyan-Demirçyan tandemi Azərbaycanla normallaşmanın tərəfdarı idi. Onlar işğalın dayandırılmasının vacibliyini anlayan ölkənin birinci prezidenti Levon ter-Petrosyanın məcburiyyət qarşısında qalıb istefasından sonra hakimiyyət kreslosuna oturmuş Robert Koçaryanın iradəsinə əks mövqe tutur, Bakı ilə razılığa gəlmək və birinci prezidentin kursunu davam etdirmək istəyirdilər.

***

1999-cu ilin parlament qətliamı zamanı baş nazir Sarkisyanın ona "yetərincə qanımızı içdin" deyə qışqıran terrorçu Hunanyana son sözü bu olmuşdu: "Hər şey sizin və uşaqlarınızın gələcəyi üçün edilir".

Bəli, Sarkisyan haqlı idi. Ermənistanın o zaman doğulan uşaqlarının gələcəyini 44 günlük müharibə müəyyənləşdirdi. Daha doğrusu, acınacaqlı taleyini. Halbuki həmin parlament terroru reallaşmasaydı, nə 44 günlük müharibə olardı, nə də ondan sonra yaşananlar. Azərbaycanla Ermənistan arasında hazırda həyata keçirilməsinə cəhd göstərilən normallaşma prosesi də çoxdan başa çatmış olardı...

Bəli, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasına Ermənistan daxilindəki bəzi reaksiyaları, o cümlədən şovinst-revanşist kəsimin münasibətini, habelə xaricdəki erməni və lobbi təşkilatlarının anti-Azərbaycan köklənişini yada salarkən, nisbətən uzaq sayılacaq keçmişə üz tutmağımız tarixin təkrarlanma xarakteri ilə bağlıdır. O zaman da üfiqdə sülh görünürdü, indi də görünməkdədir. Arzu edək ki, sülh Günəşi tezliklə doğsun.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı – İrəvan: birbaşa dialoqa start

## Azərbaycanla Ermənistan arasında yeni anlaşma sülhə aparan yolu maneələrdən təmizləyir

**Azərbaycan Prezidentinin Administrasiyası və Ermənistan baş nazirinin aparatı arasında aparılmış danışıqlar nəticəsində saxlanılan şəxslərin azad edilməsi İrəvanda müəyyən reaksiyalar doğurub. Qeyd edək ki, Azərbaycan humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq 32 erməni hərbçini, Ermənistan isə 2 azərbaycanlı hərbçini azad edir.**

Qeyd edək ki, Ermənistana qaytarılması nəzərdə tutulan 32 nəfərdən 26-sı 2020-ci il dekabrın 13-14-də Hadrut istiqamətində keçirilmiş antiterror tədbirləri zamanı həbs edilmiş, digər 6 nəfər müxtəlif vaxtlarda sərhəddə saxlanılmış şəxslərdir. Onlar artıq cəzalarının böyük bir hissəsini çəkiblər.

Azərbaycana təhvil veriləcək hərbçilərimiz isə Aqşin Bəbirov və Hüseyn Axundovdur. 2004-cü il təvəllüdlü A.Bəbirov və 2003-cü il təvəllüdlü H.Axundov 2023-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq Ermənistan tərəfindən əsir götürülmüşdülər. Daha sonra azərbaycanlı hərbçilər "bir qrup şəxslə əvvəlcədən əlbir olaraq Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, qanunsuz odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunaraq, barələrində həbs qərarı verilmişdi. Sonradan H.Axundov barəsində daha bir cinayət işi başlanılmışdı. O, Zəngəzur mis-molibden kombinatının gözətçisini "qətlə yetirməkdə" təqsirləndirilirdi.

A.Bəbirov may ayının 8-də 11 il 6 ay, H.Axundov isə iyunun 21-də 20 il müddətinə azadlıqdan məhrum edilmişdi. Hərbçilərin qarşılıqlı dəyişdirilməsinə dair razılığın əldə olunduğu gün – dekabrın 7-də H.Axundovun cəzası ağırlaşdırılaraq ömürlük həbslə əvəz edilmişdi. Belə ki, Ermənistanın Apellyasiya Cinayət Məhkəməsi bununla bağlı mühafizəçi Ayrapet Meliksetyanın hüquqi varislərinin şikayətini təmin etmişdi. Amma H.Axundovun yaxınlarının, bütövlükdə Azərbaycan xalqının günorta saatlarında aldığı bu kədərli xəbər günün sonuna doğru sevindirici məlumatla əvəz olundu. Prezident İlham Əliyev bir daha sübut etdi ki, o, hər bir azərbaycanlının Prezidentidir. Bu addım Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkə vətəndaşlarına, hərbçilərə verdiyi dəyərin, əsirlikdə olan şəxslərin yaxınlarının hisslərinə şərik olmasının bariz nümunəsidir.

Bildirildiyi kimi, siyahıya Azərbaycan xalqına qarşı müharibə cinayətləri və bəşəriyyət əleyhinə cinayətlər törətmiş şəxslər daxil deyil və ola da bilməz. Hazırda Azərbaycanda belə əməllər törətməkdə təqsirli bilinən 12 nəfər həbsdədir. Bunlar 2014-cü il dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttini keçərkən tutulmuş və 2015-ci il mayın 5-də Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilmiş kəşfiyyat-diversiya qrupunun üzvü Arsen Bağdasaryan, Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara amansız işgəncələr verməkdə ittiham olunan, 2020-ci il oktyabrın 3-də Azərbaycan ərazilərində kəşfiyyat xarakterli hərəkətlər edərkən hərbi qulluqçularımız tərəfindən ələ keçirilmiş və 2021-ci il avqustun 2-də 20 il müddətinə azadlıqdan məhrum edilmiş Alyoşa Xosrovyan, Lüdvik Mkrtiçyan, 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı soyqırımı törətməkdə, onları deportasiya etməkdə ittiham olunan və bu əməllərinə görə 2023-cü il noyabrın 7-də Bakı Hərbi Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilmiş Vaqif Xaçatryan, 2023-cü il sentyabrın 27-də saxlanılmış Ruben Vardanyan və Davit Manukyan, sentyabrın 29-da saxlanılmış Davit Babayan və Lyova Mnatsakanyan, həmçinin oktyabrın 3-də saxlanılmış Arkadi Qukasyan, Bako Saakyan, Arayik Arutyunyan və Davit İşxanyandır.



Əgər keçmiş separatçı rejimin başçıları Prezident İlham Əliyevin bu il mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşündə etdiyi çıxışından nəticə çıxarsaydılar, bu gün bəlkə də, dəmir barmaqlıqlar arxasında olmazdılar. Yada salaq ki, dövlətimizin başçısı həmin çıxışı zamanı demişdi: "Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal, normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya, orada "parlament" fəaliyyət göstərir, guya, orada prezident var, guya, nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı amnistiyadan söhbət gedə bilər".

Separatçıların başında isə yenə də, necə deyərlər, başqa havalar dolaşmaqda idi. Onlar son xəbərdarlıqdan da nəticə çıxarmadılar. Nəticə özünü çox gözlətmədi. Sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılar "ağ bayraq" qaldırıb təslim oldular və qanunsuz rejim özünü buraxdı. Məsələyə Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda bir daha münasibət bildirdi: "Bu seçimlər verilmişdi və təəssüflər olsun ki, bizim müraciətlərimiz və bəyanatlarımız lazımi şəkildə dəyərləndirilmədi. May ayında Şuşadakı görüşümüzdən sonra may ayının sonunda Laçına qayıtmış keçmiş məcburi köçkünlərlə görüşdə mən vəziyyətlə bağlı mövqeyimi ifadə etdim və bildirdim ki, bu məsələnin normal həlli yolunu tapmaq üçün imkan var. Onu da dedim ki, separatçıların liderlərinin təslim olacağı təqdirdə onların amnistiyaya düşmək fürsəti olacaqdır. Bu, ictimai bəyanat idi. Təəssüflər olsun ki, bir daha mənim sözlərim lazımi şəkildə qiymətləndirilmədi. Hazırda separatçıların liderləri Azərbaycandadır. Onlar bura gəlmək istəyirdilər. Onlar bizi hədələyirdilər ki, buraya tank üzərində gələcəklər. Bu gün isə Azərbaycanın ədliyyəsinin hökmünü gözləyirlər".

***

Azərbaycanın atdığı humanist addım Ermənistanda da müəyyən reaksiyalar doğurub. Məsələyə ölkənin baş naziri Nikol Paşinyan "X" platformasındakı səhifəsində reaksiya verib. O, birgə açıqlamaya istinad edərək yazıb: "Azərbaycan humanitar dəyərləri rəhbər tutaraq və xoşməramlılıq jesti olaraq 32 erməni hərbçisini azad edir. Ermənistan da öz növbəsində humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlılıq jesti olaraq 2 Azərbaycan hərbçisini azad edir".

Ermənistan parlamentinin hakim "Mülki müqavilə" partiyasından olan deputatı, xarici əlaqələr komitəsinin rəhbəri Sarkis Xandanyan dünən qanunverici orqanda jurnalistlərə müsahibəsində deyib ki, hərbçilərin qarşılıqlı təhvil verilməsi iki ölkənin sərhədində baş tutacaq. Onun sözlərinə görə, proses lap yaxın günlərdə baş verməlidir. Komitə sədri təsdiqləyib ki, Ermənistanda ömürlük həbs cəzasında məhkum edilən Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundov da təhvil veriləcək.

Deputat Ermənistana qaytarılacaq şəxslərlə bağlı deyib: "Mən siyahı ilə tanış deyiləm. Üstəlik, bu, çox həssas mövzudur. Məncə, onlar Ermənistan sərhədini keçənə qədər adlarının mediada yayılmasına ehtiyac yoxdur".

S.Xandanyan sülh müqaviləsi barədə də fikirlərini bölüşüb: "Biz sülh sazişinin imzalanmasını yaxın perspektivdə mümkün hesab edirik. İmzalanacaq sənəd elə olmalıdır ki, həm Azərbaycan, həm də Ermənistan razı qalsın. Qeyd etməliyəm ki, son birgə açıqlama prosesə müsbət təsir göstərə bilər. Açıqlamanın mətnində müsbət atmosfer var. Bu da danışıqların sonrakı gedişatının daha rəvan getməsinə kömək edə bilər. Söhbət mətndə əks olunan etimadın gücləndirilməsi ilə bağlı müddəadan başqa digər real addımlardan gedir. Tərəflər arasındakı bu razılaşma sülh sazişinin imzalanması prosesini sürətləndirmək üçün növbəti stimul olacaq".

Komitə sədri saxlanılan hərbçilərin mübadiləsinə dair danışıqların ikitərəfli əsasda baş tutduğunu təsdiqləyib. Qeyd edib ki, açıqlamada üçüncü tərəfdən (vasitəçidən) bəhs edilmir, hərbçilərin mübadiləsi Bakı və İrəvan arasında birbaşa danışıqlar yolu ilə razılaşdırılıb.

O, Ermənistanla Azərbaycan arasında yeni görüşün keçirilməsinin tarixi ilə bağlı məlumatsız olduğunu qeyd edib. Amma əlavə edib ki, Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqların Vaşinqton formatında davam etdirilməsinin tərəfdarıdır: "Ermənistan ABŞ-dan Azərbaycanla danışıqların Vaşinqtonda davam etdirilməsi üçün səylərini artıracağını gözləyir".

Rusiyada mümkün danışıqlara gəlincə, Xandanyan deyib: "Moskvada danışıqların aparılması üçün konkret, dəqiq tarix və təkliflər açıqlanmayıb. Danışıqlar məntiqinin davamlılığını təmin etmək çox vacibdir. Belə bir məntiq formalaşmışdı. Vaşinqtonda xarici işlər nazirləri, Brüsseldə isə Azərbaycan Prezidenti və Ermənistan baş naziri səviyyəsində danışıqlar aparılırdı. Hazırda bu davamlılığı təmin etmək çox yaxşı olardı. Biz bu danışıqların davamını gözləyirik".

Ermənistanda prosesə neqativ yanaşanlar da tapılıb. Məsələn, siyasi icmalçı Arman Abovyan onlardandır. Revanşist fikirlərlə yaşayan Abovyan deyib ki, guya, 32 nəfərin heç bir təqsiri yox imiş, azərbaycanlı hərbçilər isə mülki şəxsləri "qətlə yetiriblər". Sözsüz ki, Abovyan kimilərin nə deməsində asılı olmayaraq, dekabrın 7-də iki ölkə arasında bir ilk yaşanıb. Bakı ilə İrəvanın vasitəçilər olmadan, birbaşa danışıqlarla saxlanılan şəxslərin mübadiləsini aparması iki ölkə arasında sülh sazişinin imzalanması prosesini də sürətləndirəcək. Artıq proseslər geridönməz xarakter almaqdadır. İrəvanda sülh müqaviləsinin imzalanmasının qaçılmaz olduğunu dərk edirlər. Radikal revanşistlərin fikirləri isə hayların böyük əksəriyyəti tərəfindən də dəstək qazanmır.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

**– Azərbaycan bir müddət öncə Ermənistanla danışıqların məhsuldar olması üçün onun vasitəçilərin iştirakı olmadan keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. İki ölkənin dekabrın 7-də yaydığı birgə açıqlama münasibətləri yaxşılaşdıracaq işartı adlandırıla bilər. Bu, regionda uzunmüddətli perspektivdə sülh və sabitlik üçün vacib məqamdır. Aydındır ki, Ermənistandan istifadə etmək və regiona yerləşmək istəyən qüvvələr bura heç bir halda sülhün gəlməsində maraqlı olmayacaqlar. Onlar bölgədə gərginlik yaratmaqla bundan öz maraqları üçün istifadə etmək siyasəti yürüdürlər. Belə ölkələrin başında Fransa dayanır. Amma Fransa tək deyil. Avropa İttifaqının bəzi ölkələri, Kanada da bu sırada onunla birgə addımlayır.**

**Birbaşa danışıqlarla razılaşmanın əldə olunması iki ölkə arasında sülh danışıqları prosesində vasitəçilər olmadan da razılığın əldə olunmasına zəmin yaradır.**

**Birgə açıqlamanın ABŞ Dövlət Departamenti rəsmisinin ölkəmizə səfərindən sonra verilməsi də diqqət çəkən məqamdır. Bu da bir daha göstərir ki, ABŞ-ın rəsmi şəxsləri Konqresdəki erməni lobbisinin maraqlarını ikinci plana keçirmək məcburiyyətində qalıblar.**





# Ulu öndəri liderlik olimpinə aparan yol

**(Əvvəli XQ-nin 6 dekabr 2023-cü il tarixli sayında)**

Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi nazirinin 1949-cu il 10 may tarixli 66 saylı əmri ilə Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi, baş leytenant Heydər Əlirza oğlu Əliyev vəzifəsi saxlanılmaqla bir il müddətinə təhsil almaq üçün SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqraddakı (indiki Sankt-Peterburq – red.) xüsusi məktəbinə ezam edildi. Azərbaycanlı müdavim 1950-ci il iyulun 6-da SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Operativ rəhbər işçilər hazırlayan məktəbini fərqlənmə diplomu ilə bitirərək Naxçıvana qayıtdı.

Məktəbin gənc təhlükəsizlik zabitinə verdiyi xasiyyətnamədə yazılırdı: "Baş leytenant Heydər Əlirza oğlu Əliyev tədris proqramı üzrə zaçot və imtahanlardan yüksək qiymətlər almışdır. Təhsil müddəti ərzində Heydər Əliyev dərs əlaçısı olmuş, buna görə də ona məktəbin adından təşəkkür elan edilmişdir. Onun şəkli məktəbin şərəf lövhəsinə vurulmuşdur. Təhsil müddəti ərzində yoldaş Əliyev sosial-iqtisadi fənlər sahəsində geniş biliklər əldə etmiş, öz mədəni və ümumtəhsil səviyyəsini qaldırmış, çekist işi məsələləri üzrə biliklərini artırmışdır. Operativ məsələlərin həllində lazımi, düzgün qərarlar qəbul edir, vəziyyəti sərbəst və düzgün qiymətləndirə bilir, sənədləri hərtərəfli və əsaslı tərtib edir... İntizamlıdır, mənəvi cəhətdən möhkəmdir, fərasətlidir, məişətdə sadədir, ədəblidir. Nəticə: Vəzifədə irəli çəkilməyə layiqdir".

Heydər Əliyev Naxçıvana qayıdandan dərhal sonra muxtar respublikanın Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi təyin edildi. 1950-ci il avqustun 26-da isə onu Bakıya dəvət etdilər. Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin 2-ci şöbəsi 6-cı bölməsinin rəisi vəzifəsinə təyin olundu. İkinci şöbə əks-kəşfiyyatla məşğul idi. Heydər Əliyev 15 il ərzində məhz bu məsuliyyətli sahə ilə məşğul olmuşdu. Heydər Əliyev əməliyyat işləri ilə yanaşı, o vaxt SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Bakı Diyarlararası Məktəbində də mühazirələr oxuyur və eldə etdiyi elmi-nəzəri bilikləri və təcrübəni təhlükəsizlik orqanları əməkdaşlarına çatdırırdı.

1951-ci ildə Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil oldu. 1957-ci ildə bütün çətinliklərə baxmayaraq tarix fakültəsini "əla" qiymətlərlə başa vurdu.

Özünə və başqalarına yüksək tələbkar, kütlələrlə daim əlaqə saxlayan, adamlara həssas, qayğıkeş münasibəti ilə fərqlənən təşkilatçılıq qabiliyyəti, tükənməz enerjisi, işgüzarlığı və təşəbbüskarlığı ilə fərqlənən, xalqın böyük nüfuz, məhəbbət və hörmətini qazanan Heydər Əliyev 1953-cü ilin sonunda Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin əks-kəşfiyyat şöbəsinə rəis təyin olundu. O, milli və gənc kadrların artırılmasına, Azərbaycana xəyanət etmiş işçilərin kənarlaşdırılması istiqamətində tədbirlər görməyə başladı.

Bununla əlaqədar, 1997-ci ildə respublikanın milli təhlükəsizlik orqanı əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edən Heydər Əliyev demişdir: "1953-cü ilin sonunda mən birdən-birə həmin şöbəyə (əks-kəşfiyyat – İ.H.) rəis təyin olundum. Bu, nadir hadisə idi. Nə qədər çətinliklər çəkdim ki, 37-38-ci illərdən, 30-cu illərdən qalmış və Azərbaycana xəyanət etmiş insanlardan, – onların da əksəriyyəti azərbaycanlı deyildi, amma içərilərində belə yaramaz azərbaycanlılar da var idi, - bu orqanları xilas edək və yeni, gənc adamlar cəlb edək, orqanları sağlamlaşma işi aparaq. Bu, çox çətin oldu, o qədər çətin oldu ki, mənə qarşı fitnələr də etdilər. Bir müddət o vəzifədən getməli oldum... Bir-iki ildən sonra məni yenə o vəzifəyə təyin etdilər, məcbur oldular ki, təyin etsinlər. Mən o zaman cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, həmin şöbədə işləyən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum".

Gənc əks-kəşfiyyat rəisinin natiqlik məharəti, əhalinin müxtəlif təbəqələri ilə ünsiyyət yaratmaq bacarığından xəbərdar olan Komitə rəhbərliyi, Dövlət Təhlükəsizliyi Komitəsinin sıravi əməkdaşlarına yeni siyasətin mahiyyətini başa salmaq üçün zona müşavirələrində çıxış etməyi tez-tez ona həvalə edirdi.

Heydər Əliyev 1958–1964-cü illərdə əks-kəşfiyyat sahəsində işləmişdir. Bu şöbənin əks-kəşfiyyat uğurları əhəmiyyətli dərəcədə yüksək idi. Heydər Əliyevin özü təşkilatçılıq bacarığına və analitik qabiliyyətinə görə nəzərəçarpacaq dərəcədə fərqlənirdi.

60-cı illərin əvvəllərində Heydər Əliyevə respublika prokuroru vəzifəsi təklif edildi. Bununla əlaqədar Azərbaycan KP MK-nın ikinci katibi Semiçastnı Heydər Əliyevi qəbul etdi. Heydər Əliyev ona hüquq təhsilinin olmadığını, əməliyyat işçisi olduğunu bildirdi. Heydər Əliyevin mövqeyi hörmətlə qəbul edildi.

Bu illərdə xüsusi xidmət orqanlarında bir sıra ixtisarlar aparıldı. Bununla əlaqədar Heydər Əliyev çıxışının birində demişdir: "1960-cı ildə bu orqanlarda geniş ixtisarlar aparıldı. O vaxt 5 şöbəni birləşdirdilər. Mən onlardan birinin rəisi idim. Belə oldu ki, 5 şöbənin birləşdirərkən məni birləşmiş şöbəyə rəis təyin etdilər. Bu fürsətdən istifadə etdim, o birisi şöbələrin rəisini, ya müavini olanların əksəriyyətini təmizlədim, onlar orqandan xaric olundular".

Azərbaycan əks-kəşfiyyatının rəisi, podpolkovnik Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində aparılan yeni siyasətin həyata keçirilməsində fəal iştirak edirdi. O, dövlət təhlükəsizliyinin intellektuallaşdırmaq xəttini daha mükəmməl formada həyata keçirib. Hətta o, müstəqil Azərbaycan Respublikasının Prezidenti vəzifəsində olduğu dövrdə də çox sevdiyi bu xəttə sadiq qalıb. Araşdırmalar göstərir ki, Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında işlədiyi illər ittifaq dövlət təhlükəsizliyinin doqquz rəhbərinin dövrünə təsadüf edir: Merkulov–Abakumov–İqnatyev–Kruqlov–Beriya–Serov–Şelepin–Semiçastnı–Andropov. Bunların içərisində Heydər Əliyev yalnız qeyri-adi şəxsiyyət olan Y.V.Andropovla səmimi dostluq münasibəti saxlamışdır. Onların hər ikisi ziyalı, təhsilli, çox mütalıə edən və çox düşünən insan idi.

Heydər Əliyev çox yüksək səviyyədə intellektual şəxsiyyəti ilə seçilirdi. O müxtəlif dilləri bilirdi, aktyorluq sənətinə və rəssamlığa böyük marağı vardı. Heydər Əliyev incəsənət tarixinin, nəzəriyyəsinin və fəlsəfənin mahir bilicisi olmaqla, Azərbaycan, rus və Qərbi Avropa teatrının ənənələrinə və novatorluğuna dərindən bələd idi.

Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinə 1963-cü ildən Semyon Sviqun rəhbərlik etmişdir. SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədrinin 1964-cü il 2 mart tarixli 85 saylı əmrinə müvafiq olaraq, podpolkovnik Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini vəzifəsinə təyin edilir. S.Sviqunun heç vaxt belə müavini olmamışdı: təşkilatçı, diqqətcil, bacarıqlı, təmkinli. Respublika Dövlət Təhlükəsizliyi Komitəsindən Mərkəzə göndərilən bütün ən vacib sənədləri Heydər Əliyev hazırlayırdı. Üstəlik, etibarlı və ünsiyyətcil idi.

Peşəkarlığının, işdə göstərdiyi nümunəvi xidmətin və qazanılmış nailiyyətlərin məntiqi nəticəsi olaraq 1965-ci il martın 31-də Heydər Əliyevə polkovnik hərbi rütbəsi verildi. Əməli fəaliyyəti ilə təhlükəsizlik orqanlarında böyük nüfuz qazanan polkovnik Heydər Əliyev 1966-cı ilin fevralında SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin F.Dzerjinski adına ali məktəbinin rəhbər heyətinin təkmilləşdirilməsi kurslarına göndərilir. Heydər Əliyev həmin ilin mayında bu kursu müvəffəqiyyətlə bitirib respublikaya qayıdır.

S.Sviqunu SSRİ DTK sədrinin birinci müavini təyin edəndən sonra Azərbaycan dövlət təhlükəsizliyi orqanlarını kimə etibar etmək məsələsi ortaya çıxdı. S.Sviqun Moskvaya gedəndə öz yerinə (DTK sədri yerinə – İ.H.) Heydər Əliyevi tövsiyə etmişdi. DTK sədri S.Sviqunla Heydər Əliyev arasındakı münasibətlər yüksək səviyyədə idi, qarşılıqlı hörmət əsasında qurulmuşdu. Semyon Kuzmiç Heydər Əliyevi, onun təşkilatçılıq bacarığını yüksək qiymətləndirir, fikirlərinə hər zaman diqqətlə yanaşır, onun çekistlik istedadını çox yüksək dəyərləndirirdi. Ona görə də belə bir fikir söyləmişdi ki, "Heydər Əliyeviç məhz Sviqunun məsləhəti və Vəli Axundovun fəal dəstəyi ilə təyin olunmuşdu. Ancaq Moskvanın Azərbaycan DTK rəhbəri qismində rus millətinin nümayəndəsini görmək istəyi də istisna olunmur".

1964-cü ilin sentyabrında SSRİ-nin partiya və hökumət rəhbərliyində dəyişiklik oldu. L.Brejnev partiya təşkilatının rəhbəri, A.Kosıgin isə SSRİ Nazirlər Sovetinin sədri oldu. 1967-ci ilin mayında Sov.İKP MK-nın katibi Y.Andropov SSRİ DTK sədri və MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi. Bu, partiya iyerarxiyasında xeyli qabağa çəkilmək idi, DTK və onun sədrinin əlavə səlahiyyətlər aldığına dəlalət edirdi.

Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, heç şübhəsiz tarixi hadisə idi. Bu vaxta qədər bu vəzifədə azərbaycanlı olmamışdı. Heydər Əliyevin özünün dediyinə görə, onun namizədliyinin üstünə o saat gəlmədilər. Bir sıra hallarda DTK sədrinin rus millətindən olan birini görmək istəyirdilər.

1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin şəxsi heyəti qarşısında çıxış edərkən o, otuz il əvvəlki hadisələri belə xatırlayırdı: "Bizim Azərbaycandan olan, mənim yanımda işləyən adamlardan bəziləri öz şəxsi məqsədlərinə, şəxsi mənafelərinə görə həmin o Sviqunla birləşib yenə də buraya azərbaycanlı olmayan adamı – Moskvadan, yaxud burada olan bir rusu təyin etməyə cəhd göstərirdilər. Tarixi həqiqət naminə deməк lazımdır ki, o vaxt, 1967-ci ildə məhz Andropovun bu işə şəxsi münasibəti və həqiqət naminə demək lazımdır ki, – mən bunu özümə görə demirəm, ancaq xalqın tarixi naminə deyirəm, – o vaxt Azərbaycanda Mərkəzi Komitənin birinci katibi olan Vəli Axundovun bu barədə düzgün mövqeyi nəticəsində – amma başqaları düzgün mövqedə deyildilər, – ilk dəfə olaraq azərbaycanlı bu orqanın rəhbərliyinə təyin olundu".

Respublikanın DTK rəhbəri vəzifəsinə həqiqətən başqa iddialı namizədlər də var idi. Azərbaycan əhalisinin müsəlman olması, İran və Türkiyə ilə qonşuluqda yerləşməsi DTK-nın rəhbərinin rus olması məqsədəuyğun hesab edilirdi. Heydər Əliyevin sədr seçilməsi isə artıq heç kimdə şübhə doğurmurdu. Çünki Heydər Əliyev bu sahədə yetərincə püxtələşmiş, ciddi şəxsiyyət, hazırlıqlı kadr kimi tanınırdı.

Keçirdiyi çoxsaylı əməliyyatlar, topladığı böyük iş təcrübəsi, yüksək peşəkarlığı və təşkilatçılığı nəzərə alınaraq SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin 1967-ci il 22 iyun tarixli 27 saylı əmrinə əsasən Heydər Əlirza oğlu Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilir. 1967-ci il oktyabr ayının 30-da 136 nömrəli əmrlə ona general-mayor hərbi rütbəsi verilir. O, SSRİ DTK-sı tarixində general rütbəsi alan ilk azərbaycanlı idi.

Heydər Əliyev məhz dövlət təhlükəsizliyi orqanlarında işləyərkən onun tale yolu gələcək ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyeva ilə kəsişir. Lakin bu ailənin qurulması çoxlu çətinliklər və mənəvi məhrumiyyətlər bahasına başa gəlmişdir. Onların dramatik şəraitdə başlayan məhəbbəti xoşbəxt sonluqla nəticələndi. 1954-cü ilin noyabrında onlar evləndilər və xoşbəxt bir ailənin əsası qoyuldu.

Tariximizin gözəl bilicisi, erməni millətçilərinin Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən xəbərdar olan Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifələrdə çalışdığı dövrlərdə erməni məkrinin əyani sübutları ilə dəfələrlə qarşılaşmışdı. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən erməni separatçıları ilə mübarizəsi, onun Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilməsindən əvvəl başlamışdı. Qeyd etmək lazımdır ki, hakimiyyətdə olduğu illərdə də Heydər Əliyev kürsülərdən heç vaxt ermənilər və erməni millətçiləri əleyhinə danışmasa da, bütün fəaliyyəti onların əsassız iddialarının qarşısını müxtəlif yollarla almağa yönəlmişdi.

Heydər Əliyev ermənilərin təxribatçı və separatçı qruplarının Azərbaycanla bağlı planlarını pozmuş, onlara imkan verməmişdir. Heydər Əliyev bununla əlaqədar demişdir: "30-cu, 40-cı, 50-ci, 70-ci illərdə də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının iştirakçısıyam".

Heydər Əliyevin dövlət təhlükəsizliyi orqanlarında rəhbər vəzifələrdə işlədiyi zaman və ondan sonra Azərbaycan Respublikasının başçısı olduğu illərdə Azərbaycan xalqının milli mənafeyinə əks olan heç bir tədbir görülməmiş, heç bir dissident həbs edilməmiş, heç bir zaman heç bir adam antisovet təbliğat, yaxud milliyətçi təbliğat üstündə həbs edilməmişdir. O, Azərbaycan xalqının neçə-neçə tanınmış ziyalısını yersiz təqiblərdən qorudu, milli mənlik şüurunun oyanmasına, milli özünüdərkin yaranmasına rəvac verən ziyalı təşəbbüslərini dolayısı ilə dəstəkləməklə, xüsusi xidmət orqanlarının milli mənafelərə tabe edən rəhbər olmağı bacardı.

Heydər Əliyev respublika Dövlət Təhlükəsizliyi Komitəsinin az sayda olan rəhbərlərindən biri idi ki, fəaliyyətə ən aşağı pillədən başlayaraq yüksəlmişdi. Onun əvvəllər partiya işində çalışmadığı halda Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin edilməsi çox nadir hadisə idi. Adətən, SSRİ-də bu vəzifələrə iri vilayətlərin partiya komitələri katiblərini və ya müttəfiq respublika KP MK-nın şöbə müdirlərini irəli çəkirdilər.

Qeyd etməliyik ki, heç vaxt Bakıda "dəniz kənarındakı bina"nın rəhbəri bu dərəcə yüksək erudisiyalı, hərtərəfli hazırlıqlı şəxs olmamışdır. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi Heydər Əliyevin dövründə nəzərəçarpacaq dərəcədə milli kadrlarla təmin edilmiş və ziyalılaşmışdı.

Təhlükəsizlik orqanlarındakı millələşməni öz peşəkar fəaliyyətinin başlıca uğurlarından hesab edən Heydər Əliyev 1999-cu ildə təhlükəsizlik orqanlarının yaradılmasının 80-ci ildönümü ilə bağlı keçirilən tədbirdə etdiyi çıxışında demişdir: "Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının Azərbaycana vurduğu zərərə baxmayaraq, bu təşkilatın milliləşdirilməsi prosesi bizim əldə etdiyimiz ən böyük nailiyyət idi, təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqaməti də Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu".

Azərbaycanın yaxın gələcəyinin rəhbəri Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə bu mühüm orqanda milli kadrların çox olmasına çalışmış və buna nail olmuşdur. Heydər Əliyevin inadla apardığı milliləşmə siyasətinin nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlıların xüsusi çəkisi sürətlə artaraq 40-50-ci illərdə 25 faizdən 70-ci illərdə 65-70 faizə çatmışdı. Heydər Əliyev istəyirdi ki, xalq görsün və inansın ki, DTK dövlət mənafeyinə ziyan gətirməməklə, milli maraqları qoruyur. Heydər Əliyev dörd ixtisas üzrə təhsil almışdır. Hərtərəfli biliyi və qətiyyəti ilə, həmçinin DTK-da öyrəndikləri ilə Müstəqil Azərbaycanı üzləşdiyi təhlükələrdən qorumuşdur.

Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyi illərdə birbaşa özünün rəhbərliyi ilə bir sıra əməliyyatlar hazırlanmış, qarşıya qoyulan məqsədə nail olmuş və uğur əldə edilmişdir. Xalqımızın böyük oğlu təhlükəsizlik orqanlarında 25 il qüsursuz xidmət göstərmiş və bu orqanı SSRİ miqyasında tanıtmışdır. Elə buna görə Heydər Əliyev dəfələrlə fəxri fərmanlara, qiymətli hədiyyələrə, orden və medallara layiq görülmüşdür. O, 1962-ci ilin aprelində "Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı" nişanı, 1962-ci ilin mayında "Qırmızı Ulduz" ordeni, 1964-cü ildə isə "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdi.

General Heydər Əliyev Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinə iki il rəhbərlik etdi. Andropov onun fəaliyyətini SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin 27 noyabr 1966-cı il tarixli 166 saylı əmri ilə yüksək qiymətləndirmişdi: "General-mayor Heydər Əlirza oğlu Əliyev təhlükəsizlik orqanlarında iyirmi beş il fəaliyyət göstərib. Bu müddət ərzində, o, sıravi operativ işçidən respublika DTK-sının sədrinə qədər böyük yol keçmişdir. Rəhbər vəzifələrdə olarkən yoldaş Əliyev bütün gücünü, enerjisini, bacarığını dövlətimizin təhlükəsizliyinin təmin olunmasına yönəldib, özünü çox yaxşı təşkilatçı kimi göstərib.

Hazırda yoldaş Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. Təhlükəsizlik orqanlarında uzunmüddətli və səmərəli fəaliyyətinə görə, general-mayor Heydər Əliyevə təşəkkür elan edilsin və o, məxsusi qiymətli hədiyyə ilə mükafatlandırılsın".

Heydər Əliyev qeyri-adi istedada, hərtərəfli biliyə, analitik təfəkkürə, sarsılmaz iradəyə, hadisələrin nəbzini tutmağı bacaran bir insan, böyük idarəetmə məharətinə malik şəxs və mahir siyasətçi idi. Onun bu yüksək keyfiyyətlərindən, fenomen xüsusiyyətlərindən təkcə təhlükəsizlik orqanlarına pay düşmədi, bütövlükdə müstəqil Azərbaycan Respublikası faydalandı, onu daimi və dönməz etdi. Siyasi lider kimi formalaşan görkəmli siyasi və dövlət xadimi xalqımızın Ümummilli liderinə yüksəldi. Onun Azərbaycana rəhbərlik etdiyi dövrlər diqqəti xüsusilə cəlb edir.

Heydər Əliyev hakimiyyətinin birinci dövründə (1969-1982) Azərbaycanı aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevirmiş, ikinci dövründə (1993-2003) isə müstəqil Azərbaycanın davamlı və dayanıqlı inkişafına, hərtərəfli yüksəlişinə nail olunmuşdur. Azərbaycan Respublikası bütün göstəricilər üzrə lider dövlətə çevrilmişdir. Heydər Əliyevin hazırladığı və həyata keçirdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə həyata keçirilir. Azərbaycanın ən ağrılı problemi olan ərazi bütövlüyü məsələsi ikinci Qarabağ müharibəsində uğurla həll edilmiş, itirilmiş torpaqlarımız geri qaytarılmışdır.

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan bölməsinin sədri, akademik**

# Dünya sülhün əlindən tutur!

## Bakı və İrəvanın sülhə dair birgə açıqlaması beynəlxalq aləmdə geniş rezonans doğurub

(əvvəli 1-ci səhifədə)

### Ankara

Türkiyə Xarici İşlər Nazirliyi Azərbaycan Prezidentinin Administrasiyası və Ermənistan baş naziri aparatının birgə açıqlamasını alqışlayaraq, əlavə addımların atılması ilə bağlı müzakirələrin davam etdirilməsi qərarını dəstəkləyib.

Bu barədə qardaş ölkənin xarici siyasət idarəsinin "Azərbaycanla Ermənistan arasında bəzi konkret əlavə etimad quruculuğu addımların atılması qərarı" adlı bəyanatında qeyd olunur. Bəyanatda deyilir: "Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş nazirinin aparatının birgə açıqlamasında elan edilmiş iki ölkə arasında bəzi konkret əlavə etimad quruculuğu addımların atılması qərarını alqışlayır; etimadı artıran əlavə addımların atılması ilə bağlı müzakirələrin davam etdirilməsi qərarını dəstəkləyirik. Azərbaycan və Ermənistan arasında Cənubi Qafqazda daimi sülh və sabitliyin bərqərar olması üçün ən mühüm hadisələrdən birini təşkil edəcək sülh razılaşmasının ən qısa zamanda imzalanmasını diləyirik".









### Moskva

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Bakı və İrəvan arasında Ermənistan və Azərbaycan hərbçilərinin qarşılıqlı azad edilməsinə dair razılaşmanı şərh edərkən bildirib: "Rusiya ardıcıl olaraq saxlanılan şəxslərin "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi ideyasını irəli sürür. Bu, qarşılıqlı etimadın möhkəmlənməsinə töhfə verir və Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-2022-ci illərdə imzaladıqları üçtərəfli bəyanatlara uyğundur. Bu, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması prosesinin təşviqində yeni imkanlar açır. Biz bundan sonra da nəqliyyat kommunikasiyalarının açılması, sərhədin delimitasiyası, sülh sazşinin imzalanması və vətəndaş cəmiyyəti vasitəsilə təmaslara hər cür yardım göstərməyə hazırıq".

### Berlin

Almaniya Federal Hakimiyyətinin nümayəndəsi Şteffan Hebestrayt hökumət adından Azərbaycan və Ermənistanı "atdıqları cəsarətli addımlar və etimadın möhkəmləndirilməsi səyləri" münasibətilə təbrik edib. Cənab Hebestrayt "X" sosial şəbəkəsində paylaşdığı mətndə daha sonra qeyd edib: "Biz suverenliyin, sərhədlərin toxunulmazlığının və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında münasibətlərin normallaşdırılması prosesini dəstəkləməyə hazırıq".

### Bern

Avstriya Xarici İşlər Nazirliyi özünün rəsmi "X" platformasında rəsmi Bakı və İrəvanın birgə açıqlamasını Cənubi Qafqazda sülhə və təhlükəsizliyə doğru atılan addım kimi dəyərləndirib. "Biz Azərbaycan və Ermənistanın münasibətləri normallaşdırmaq və sülh müqaviləsi bağlamaq niyyətləri barədə birgə açıqlamasını alqışlayırıq. Bu, bütövlükdə, Cənubi Qafqazın sabitliyinə, təhlükəsizliyinə və rifahına təkan vermiş olacaq. Avstriya Avropa İttifaqı ilə birlikdə bu səyləri dəstəkləməyə hazırdır".

### Riqa

Azərbaycan və Ermənistanın birgə bəyanatı bu ölkələrin münasibətləri normallaşdırmaq niyyətini təsdiq edir. Bu sözləri Latviyanın xarici işlər naziri Krişjanis Karinş sosial platformadakı paylaşımında yazıb.

Onun sözlərinə görə, Azərbaycan və Ermənistanın birgə bəyanatı bütün region və onun hüdudlarından kənarda etimad və sülhə doğru atılmış vacib addımdır: "Bu, Azərbaycan və Ermənistanın münasibətləri normallaşdırmaq və sülh müqaviləsinə nail olmaq niyyətini bir daha təsdiq edir".

### Tbilisi

Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Ermənistan Respublikası baş nazirinin aparatı arasında əldə olunan xoşməramlı anlaşmaya qonşu Gürcüstandan da reaksiyalar eşidilməkdədir. Bu ölkənin tanınmış siyasi eksperti Giorgi Goqua hesab edir ki, Azərbaycan tərəfinin 32 erməni əsgərini əsir düşmüş iki hərbçisinə dəyişməsi ölkə rəhbərliyinin hər bir vətəndaşına verdiyi qiymətin göstəricisidir. Ekspert hesab edir ki, tərəflərin yaxında sülh müqaviləsi imzalayacayı hiss olunur: "Hər iki ölkənin diplomatları da mövqelərini uzlaşdırmağa hazırdırlar. Sülh müqaviləsinin imzalanması ilə Azərbaycan regionun güclənməsi ilə yanaşı, Ermənistanı da düşdüyü bataqlıqdan xilas etmək istəyir". Siyasi bloger Giorgi Caxaya isə əsirlərin dəyişdirilməsi prosesini şərh edərkən ömürlük həbs cəzasına məhkum olunmuş Hüseyn Axundovun azadlığa qovuşacağını "Ermənistan tərəfdən həqiqi sülhə doğru atılan mühüm addım" kimi qiymətləndirib: "Bu, onu sübut edir ki, istəyəndə ortaq dil tapmaq mümkündür. Fikrimizcə, baş verənlər sülh müqaviləsi ilə yekunlaşacaq".

Digər bir gürcü politoloq Simon Kopadzenin sözlərinə görə, bu xəbər günün ən möhtəşəm xəbəridir: "Əsirlərin dəyişdirilməsi sülhə doğru ciddi addımların atıldığını sübut edir. Bu addımı sadəcə alqışlamaq lazımdır".

### NATO

NATO Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasını qətiyyətlə dəstəkləyir. NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə xüsusi nümayəndəsi Xavier Kolomina "X" şəbəkə hesabındakı paylaşımında bildirib: "Mən saxlanılanların qarşılıqlı azadlığa buraxılması, digər etimad tədbirlərinin görülməsi və çoxdan gözlənilən sülh sazişinin əldə edilməsinə dair aydın öhdəliyi elan edən Ermənistan və Azərbaycan arasındakı birgə açıqlamanı alqışlayıram. Şimali Atlantika Alyansı bu səyləri, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasını qətiyyətlə dəstəkləyir".

### Avropa İttifaqı Şurası

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycanla Ermənistan birgə açıqlamasına münasibətini sosial şəbəkədəki paylaşımında bu şəkildə yazıb: "Xüsusilə saxlanılanların azad edilməsi və siyasi dialoqda görünməmiş irəliləyişi alqışlayırıq. Tərəflər arasında ikitərəfli dialoqun qurulması və dərinləşdirilməsi Aİ-nin rəhbərlik etdiyi Brüssel prosesinin əsas məqsədi olub. Bugünkü irəliləyiş vacib addımdır. İndi liderləri Ermənistan–Azərbaycan sülh razılaşmasını tez bir zamanda yekunlaşdırmağa çağırıram".

Ş.Mişelin ardınca Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel də Azərbaycan ilə Ermənistan arasında əldə olunmuş razılığı alqışlayıb, bunu "mühüm siyasi addım" adlandırıb: "Aİ Ermənistan və Azərbaycanın saxlanılanların qarşılıqlı azadlığa buraxılması və digər etimad tədbirlərinin elan edilməsi ilə bağlı birgə açıqlamasını alqışlayır. Bu, mühüm siyasi addımdır. Regionda sülh üçün tarixi şansın olması barədə həmfikirik və bu səyləri dəstəkləməkdə qərarlıyıq".

Aİ-nin qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyi də Bakı və İrəvan arasında qarşılıqlı etimadı gücləndirmək və sülh sazişinin imzalanmasına nail olmaq üçün addımlar atmaq barədə razılaşmasını alqışlayıb. "X" sosial şəbəkəsində bu barədə "Mən Azərbaycan və Ermənistan arasında regionda sülh və sabitliyə töhfə verən razılaşmanı alqışlayıram",– yazan Varhelyi, həmçinin Aİ-nin hər iki ölkəyə dəstəyini davam etdirəcəyini vurğulayıb.

### ATƏT

"Azərbaycanın və Ermənistanın dünənki birgə bəyanatı Cənubi Qafqazda dayanıqlı sülhə aparan yolda ehtiyac duyulan müsbət addımdır". Bunu ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani özünün sosial şəbəkə hesabında bildirib.

B.Osmani qeyd edib ki, ATƏT davamlı dialoq üçün platforma olaraq və sazişlərin icrası üzrə tərəfdaş kimi kömək etməyə hazırdır.

* * *

Bəli, Bakı və İrəvanın atdığı birgə addım qısa müddət ərzində beynəlxalq aləmin, dünya mediasının əsas mövzusuna çevrilib. Bu, həm də danışıqlarda əsaslı dönüş yaratmağa qadir tarixi addımdır. ABŞ, Türkiyə və Rusiya kimi dövlətlərin, Avropanın nüfuzlu təşkilatlarının, müxtəlif rəsmilərin açıqlama verərək atılan addımı alqışlaması bunun təzahürüdür. Burada diqqəti çəkən maraqlı və önəmli məqam tərəflərin danışıqları birbaşa aparması, onlara üçüncü ölkənin vasitəçilik etməməsidir. Elə bu faktın özü rəsmi Bakı ilə İrəvan arasında sülh dialoqunun "tet-a-tet" irəli aparıla biləcəyinə, yaxın vaxtlarda tarixi razılaşmanın əldə olunacağına ümidləri artırır.

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

**Gözlənilən idimi? Xeyr! Söhbət Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasından gedir. Ancaq Günəş doğmadan nələr doğar, – deyiblər. Gün isə obrazlı desək, axşam saatlarında doğdu. Deməli, "gecənin xeyrindənsə, səhərin şəri yaxşıdır" deyimi bu məqamda aktuallığını itirdi. Əlbəttə, aktuallığını itirən təkcə bu deyim olmadı. Hazırda Bakı-İrəvan münasibətləri baxımından gərgin kimi görünən durumdan da əsər-əlamət qalmayıb. Yəni, aktuallığını itirən həm də gərginlikdir.**

# Azərbaycan–Ermənistan: qarşılıqlı etimadın təsiri ilə sülhə doğru

## Birgə açıqlamaya baxışın doqquz aspekti



Ümumən, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının müştərək açıqlamasına bəzi aspektdən nəzər salmaq mümkündür. Əlbəttə, **birinci aspekt** elə gözlənilməzliyin özüdür. İlk baxışdan hər şeyin pisə, daha doğrusu, qeyri-müəyyənliyə doğru getdiyi bir vaxtda, birdən-birə hər iki dövlət özlərinin ali təmsilçiliyi səviyyəsində sülh niyyətini ifadə edir. Özü də nəinki ifadə edir, bunu konkret jestlərdə göstərir. Jestlər nədən ibarətdir, diqqətə çatdıracağıq...

**İkinci aspekt.** Azərbaycanın və Ermənistanın dövlət qurumlarının birgə açıqlaması tarixdə yaşanmış bir ilkdir. Ümid edək ki, gələcəkdə belə ilklər davamlı olacaq. Davamlılıq yaşadığımız Cənubi Qafqaz akvatoriyasında sülh və əmin-amanlığın təminatı baxımından vacibdir.

**Üçüncü aspekt.** Həqiqətən də hazırda regionda sülh üçün yaxşı fürsət yaranıb. Əlamətdar haldır ki, həm Azərbaycan, həm də Ermənistan bu fürsəti dəyərləndirməyin zəruriliyini qəbul edir. Heç şübhəsiz, bu qəbuletmənin səmimiyyət üzərində qurulması sülh şəraitindəki əməkdaşlığın və birgə fəaliyyətin inkişaf düsturunu və xalqların rifahını doğuracaq amil rolunda çıxış edəcəkdir. Əlbəttə ki, hər iki tərəf səmimiyyətə sadiq qalacaqları təqdirdə.

**Dördüncü aspekt.** Məlum olduğu kimi, Azərbaycan–Ermənistan sülh prosesində hər zaman vasitəçilər olub. Lakin əvvəl yaxın keçmişdəki formula əsaslansaq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda, sonra, yəni 44 günlük müharibədən ötən müddətdəki nizamlamada həmin vasitəçilər böyük ölçüdə heç nəyi həll etməyiblər. Bir qayda olaraq, vasitəçilik dalana dirənib. Çünki bu institut özünü Cənubi Qafqaz üzrə qlobal maraqların təsirindən sığortalaya bilməyib. İndiki birgə açıqlama isə sülhə vasitəçilərsiz nail olmanın vurğulanması baxımından müstəsna əhəmiyyətə malikdir.

**Beşinci aspekt.** Burada Azərbaycanın və Ermənistanın bir-birinin suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini açıqlamaları üzərində dayanaq. Mövcud məqama söykənmək təhdid və təhlükə gözləntilərindən uzaqlaşmaq deməkdir. Bu isə gələcək qarşılıqlı münasibətlərin hərəkətverici trayektoriyasını həm müəyyənləşdirir, həm də inam və etibar mühiti yaradır.

**Altıncı aspekt.** "Azərbaycan Respublikası Prezidenti Administrasiyası və Ermənistan Respublikası baş naziri aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub". Əslində, bu cür ifadəolunma da az öncə diqqətə çatdırdığımızın davamı kimi qiymətləndirilə bilər. Başlıca cəhət isə tərəflərin etimad quruculuğunu ayrıca seqment kimi götürmələridir. Belə yanaşma, bir masada əyləşməklə bağlı ənənəvi psixoloji gərginliyi aradan qaldırır. Bu isə o deməkdir ki, masa real danışıqlar və söhbətlər üçün olacaq.

**Yedinci aspekt.** Növbə haqqında söz açdığımız jestlərə gəldi. Yəni, sülh naminə konkret jestlərə nəzər salınması vacibdir. Azərbaycan 32 erməni, Ermənistan 2 azərbaycanlı hərbçini azad edib. Mövcud xüsusda vurğulanmalı başlıca prosesdə məqam humanizm prinsipinin rəhbər tutulmasıdır. Əlbəttə, gələcək qarşılıqlı fəaliyyətin və sülh quruculuğunun da bu prinsipə əsaslanması mütləqdir. Güman edirik ki, tərəflər məsələnin mahiyyətinə ciddi şəkildə önəm verirlər və qarşıdakı müddətdə də məsələyə tam ciddi yanaşacaqlar.

**Səkkizinci aspekt.** Hər halda, bu da tarixdə bir ilkdir. Söhbət birgə açıqlamada yer almış Ermənistan Respublikasının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləməsindən gedir. "Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir". Və Azərbaycan naminə Bakı və İrəvanın birgə çağırışı. "Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcəklər". Azərbaycanın və Ermənistanın müəyyən beynəlxalq diskussiya auditoriyasına ünvanlanmış müştərək səslənişinin özü də tarixdə ayrıca bir ilkdir.

**Doqquzuncu aspekt.** Əlbəttə, birgə açıqlamadakı ən böyük müştərək çağırış ifadəsi Cənubi Qafqaz regionu və sülhlə bağlıdır. Beynəlxalq ictimaiyyət iki ölkə arasında etimadın yaradılmasına töhfə verəcək, regona müsbət təsir göstərəcək səyləri dəstəkləməyə çağırılır. Məsələnin belə qoyuluşu da son dərəcə vacibdir. Əslində bu yanaşma özlüyündə Azərbaycan və Ermənistan münasibətlərini beynəlxalq maraqların inhisarından çıxarmağa xidmət edir. Deməli, Bakının və İrəvanın qarşıdakı əlavə etimad quruculuğu tədbirləri Cənubi Qafqaz müstəvisində hansısa manipulyasiyalara yol verilməməsi üçün immunitet qazanmalıdır. Yəni, beynəlxalq birliyin hər iki ölkəyə dəstəyində də səmimiyyət başlıca faktor kimi götürülməlidir.

Sonda onu da deyək ki, daha bir əsas məqam tərəflərin qaşıdakı müddətdə sülh sazişinin imzalanması naminə həyata keçirəcəyi tədbirlərdir. Bu tədbirlər nə qədər tez olsa, bir o qədər vacibdir. Hələlik kağız üzərində olan səmimiyyət və xoş məram ifadəsi sanki bir dəmirdir. Dəmiri isə isti-isti döymək şərtdir. Ümid edək ki, bu şərt ödənəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının illik iclası

**Dekabrın 8-də Heydər Əliyev Mərkəzində Beynəlxalq Avtomobil Federasiyası – FIA Baş Assambleyasının illik yekun iclası keçirilib.**

İclasda çıxış edən Azərbaycan Avtomobil Federasiyasının (AAF) prezidenti Anar Ələkbərov qonaqları salamlayıb.

Anar Ələkbərov FIA Baş Assambleyasının və Mükafatlandırma mərasiminin Bakıda keçirilməsinin əhəmiyyətindən danışıb, belə tədbirlərin məqsədinin ictimaiyyətin avtomobil idmanı sahəsinə marağının artmasına, Azərbaycanda bütün yol hərəkəti iştirakçılarını təhlükəsiz, dayanıqlı və əlçatan hərəkətlilik mövzusunda maarifləndirməyə yönəldiyini bildirib.





"Azərbaycan Avtomobil Federasiyası mütəmadi olaraq avtoidman sahəsində yarışlar, drift məşqləri, yolsuzluq avtomobilləri yürüşləri, kartinq yarışları, klassik avtomobillərin nümayiş olunduğu sərgi və yürüşlər təşkil edir, digər layihələr həyata keçirir", - deyən federasiya prezidenti ölkəmizin 2016-cı ildən etibarən Formula 1 yarışlarına ev sahibliyi etdiyini xatırladıb. Bakı şəhərinin gözəl küçələrində Formula 1 yarışının uğurla keçirilməsində göstərdiyi dəstəyə görə FIA-ya təşəkkürünü çatdırıb. O cümlədən Bakıda FIA həftəsinin uğurlu və yaddaqalan olmasında əməyi keçən hər kəsə, o cümlədən FIA əməkdaşlarına və könüllülərə minnətdarlıq ifadə edilib.

FIA həftəsi çərçivəsində paytaxtımızda bir araya gələn dünyanın müxtəlif ölkələrinin avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları, ümumilikdə 128 ölkənin nümayəndəsi, 189 klubun təmsilçisi, həmçinin onlayn şəkildə tədbirə qoşulan iştirakçılar dekabrın 5-dən fərqli formatlarda avtomobil idmanı və sənayesi sahəsində müxtəlif mövzuları müzakirə ediblər.

Bakı müzakirələrinin səmərəsindən danışan Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Mohammed ben Sulayem bu cür mötəbər tədbirin FIA-nın işinə töhfə verəcəyini bildirib.

Müzakirələr zamanı səsvermələrin nəticəsi olaraq Baş Assambleyanın 2024-cü ilin iyunun 14-də keçiriləcək iclasının Özbəkistanın Səmərqənd şəhərində, gələn il dekabrın 13-dəki iclasının isə Ruandanın Kiqali şəhərində təşkil edilməsi təsdiqlənib.

FIA Baş Assambleyasının yekun iclasının sonunda FIA ailəsi Bakıdakı tədbirləri tarixi yaddaşa köçürəcək xatirə şəkli çəkdirib.

Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Mohammed ben Sulayemə üzərində Bakının rəmzləri sayılan İçərişəhər, Heydər Əliyev Mərkəzi və Alov Qüllələrinin təsviri fonunda FIA loqosu olan xalça hədiyyə edilib.

Həmçinin Bakıda AAF tərəfindən məktəblilər arasında təşkil olunan yol hərəkəti təhlükəsizliyi ilə bağlı intellektual yarışın qalibləri mükafatlandırılıb.

**XQ**

# Azərbaycanın mədəniyyət naziri Naxçıvanda





**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli burada səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə görüşüb.**

Görüşdə muxtar respublika ərazisində tarixi-memarlıq abidələrinin qorunması ilə bağlı səylərin birləşdirilməsi, abidələrin daha peşəkar şirkətlər tərəfindən bərpasının təmin edilməsi üçün ümumi tender prosedurlarının nəzərdən keçirilməsi məsələləri müzakirə olunub. Qeyd olunub ki, bərpa işlərinə peşəkar şirkətlərin cəlb olunması prosesin daha etibarlı və uyğun şəkildə aparılmasına şərait yaradar.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq Naxçıvan şəhərində yaradılması nəzərdə tutulan "Naxçıvanın 7 incisi" turizm kompleksi, Ordubad rayonu ərazisindəki Xarabagilanın bərpası və Ordubadın tarixi abidələri ilə bağlı məsələlər müzakirə olunub. Bu istiqamətdə birgə addımların atılması barədə fikir mübadiləsi aparılıb.

*

**Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli dünən Naxçıvan şəhərində vətəndaşlarla görüşüb.**

Muxtar respublika Mədəniyyət Nazirliyində keçirilən qəbulda Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşlar iştirak ediblər. Mədəniyyət naziri vətəndaşların müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı qəbulda iştirak edən nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin birgə iclasında "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi keçirilib.**

# 2024-cü il büdcəsi müzakirə edilib

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev iclasda bildirib ki, növbəti ildə də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən 2024-cü il üçün muxtar respublika büdcəsinin gəlir və xərc maddələri üzrə strukturu proqnozlaşdırılıb və layihə şəklində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinə baxılması üçün təqdim edilib. Layihəyə görə 2024-cü ildə Naxçıvan Muxtar Respublika büdcəsinin gəlirləri 173 milyon 105 min manat məbləğində proqnozlaşdırılıb. Bu da 2023-cü ildəki büdcə gəlirlərindən 20 milyon 883 min manat və ya 13,7 faiz çoxdur.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri isə 516 milyon 365 min manat məbləğində nəzərdə tutulub. Ötənilki büdcənin xərcləri ilə müqayisədə bu il muxtar respublika büdcəsi 88 milyon 648 min manat və ya 14,7 faiz az proqnozlaşdırılıb. Bunun da başlıca səbəbi xərclərin optimallaşdırılması və bir sıra dövlət orqanlarının saxlanma xərclərinin mərkəzə ötürülməsi olub. 2024-cü il üçün nəzərdə tutulmuş Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir hissəsi xərc hissəsindən 343 milyon 260 min manat az proqnozlaşdırılır ki, yaranacaq büdcə defisitinin ayrılacaq dotasiya hesabına aradan qaldırılması nəzərdə tutulur.



Naxçıvan Muxtar Respublikası büdcəsi gəlirlərinin 2024-cü il və növbəti üç il ərzində artan templə proqnozlaşdırılması belə deməyə əsas verir ki, ölkəmizdə makroiqtisadi sahələr ildən-ilə davamlı inkişaf etməkdədir. Naxçıvan Muxtar Respublikasının təsdiq olunacaq büdcə layihəsi bundan sonra da ölkəmizin iqtisadi inkişafının tənzimlənməsində xüsusi əhəmiyyətə malik olacaq.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov muxtar respublikanın gələnilki büdcəsinin əsas göstəriciləri barədə ətraflı məlumat verib. Sonra 2024-cü il büdcəsinin layihəsi ətrafında geniş müzakirələr aparılıb.

İqtisadi siyasət komitəsinin üzvü Vüqar Abbasov, Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli, komitənin üzvü Ehtimad Məmmədov, Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli, komitənin üzvü Hüseyn Bağırsoylu, Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova, Vergi Xidmətinin rəisi Abbas İsmayılov, Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli, Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək 2024-cü il büdcə layihəsi ilə bağlı rəy və təkliflərini bildirib, suallarını səsləndiriblər.

Müzakirələrdən sonra büdcə layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü ilin payız sessiyasının növbəti iclasına təqdim olunması üçün qərar qəbul edilib.

# Oftalmoloqların XII regional konfransı

**Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin XII regional konfransı keçirilib.**



Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə akademik Zərifə xanım Əliyevanın 100 illiyinə həsr olunmuş məclisin açılışında "Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının sədri Ləman İbrahimova qeyd edib ki, ölkəmizdə digər sahələr kimi, səhiyyənin inkişafı da məhz Ümummillil lider Heydər Əliyevin adı ilə bağlıdır.

Konfransda vurğulanıb ki, "Heydər Əliyev İli" çərçivəsində muxtar respublikanın səhiyyə sistemində də müxtəlif tədbirlər, konfranslar keçirilir. Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin XII regional konfransı oftalmologiya sahəsində yenilikləri, nailiyyətləri araşdırmaq, eyni zamanda bu sahədə təcrübələri bölüşmək baxımından əhəmiyyətlidir.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Elmar Qasımov, tibb üzrə elmlər doktoru Hicran Namazova çıxışında bu ilin Ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın 100 illiyi ilə əlamətdar olduğunu deyib, Milli Oftalmologiya Mərkəzində Zərifə Əliyevanın müəyyənləşdirdiyi ənənənin davam və inkişaf etdirildiyini qeyd ediblər.

Sonra Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi haqqında videoçarx nümayiş etdirilib. Mövzu ilə bağlı oftalmoloq-həkimlərin çıxışları dinlənilib, müzakirələr aparılıb.

Həmin gün Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin növbəti tibbi aksiyası Naxçıvan Muxtar Respublika Xəstəxanasında həyata keçirilib.

# "Yaradıcı müzakirələr" həftəsi



**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvanda "Yaradıcı həftə" çərçivəsində "Yaradıcı müzakirələr" layihəsi həyata keçirilib.**

"Yaradıcı müzakirələr" layihəsinin koordinatoru Vüsal Süleymanlı, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Piri Nağıyev bildiriblər ki, 10 yaradıcı klaster üzrə ölkəmizin tanınmış simalarının bilik və təcrübələrini bölüşməsi bütün iştirakçılar üçün əhəmiyyətlidir.

İki gün davam edən layihə paytaxtda və regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür və yaradıcı subyektlərin formalaşmasının dəstəklənməsinə yönəlib.

# Tibb və əczaçılıq biznesi forumu

**Naxçıvanda tibb və əczaçılıq biznesinə həsr olunan forum da keçirilib.**

Məclisin açılışında Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samiq Sadıxov bildirib ki, muxtar respublika səhiyyəsində son aylarda mühüm dəyişikliklər baş verib.

"Əczaçılar Klubu" İctimai Birliyinin sədri Şövqi Bunyatov bildirib ki, 2019-cu ildən fəaliyyətə başlayan qurum Azərbaycanın 69 regionunda nümayəndəlik səviyyəsində təmsil olunur. Birlik Ulu öndərin 100 illiyi münasibətilə silsilə tədbirlər keçirir. Bugünkü tədbir də onlardan biridir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev bildirib ki, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyalar "ASAN xidmət" mərkəzi vasitəsilə təqdim edilir. Təkcə cari ilin ötən dövrü ərzində 57 lisenziya verilib ki, bunun da 28-i, yəni 49,1 faizi əczaçılıq fəaliyyəti sahəsində verilən lisenziyalardır.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov, Özəl Tibb Müəssisələri Assosiasiyası İctimai Birliyinin sədri Günel Əliyeva, "Asfarma" şirkətinin Azərbaycan ofisinin müdiri Baki Kaan Özgürmüzakirə olunan mövzu ilə bağlı mülahizələrini bildiriblər.

Çıxışlardan sonra panel müzakirələri keçirilib və qarşılıqlı fikir mübadiləsi aparılıb.

# Dövlət satınalmalarında aşkarlıq və obyektivlik

**Müsahibimiz Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Bəxtiyar Məmmədovdur.**



**– Naxçıvanda son dövrlərədək dövlət satınalmalarında durğunluq hökm sürürdü, demək olar, tender keçirilmirdi. İndi necə, bu sahədə vəziyyət dəyişibmi?**

– Sözün həqiqi mənasında, Naxçıvan Muxtar Respublikası tender, satınalma anlayışından kənarda qalmışdı. 2023-cü ilin əvvəlindən bu istiqamətdə mühüm işlər görülür. Sevindirici haldır ki, hazırda Naxçıvanda dövlət qurumları satınalma müsabiqələrinə qoşulurlar. Belə ki, qısa zaman ərzində 150-yə yaxın sahibkarlıq subyektləri tərəfindən bu satınalma müsabiqələrinə müraciət edilib.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı və proqram üzrə Təfsilatlı Tədbirlər Planınında nəzərdə tutulan sosial infrastruktur layihələrinin icrası məqsədilə cari il ərzində 30-dan çox satınalma elanı verilib. Həmin satınalma elanları dövlət satınalmalarının vahid internet portalında yerləşdirilib.

**– Naxçıvanda yeni iqtisadi islahatlar başlandıqda ilk addımlardan biri dövlət satınalmalarına nəzarət edən qurumun, yəni Antiinhisar və İstehlak Bazarına nəzarət Dövlət Xidmətinin satınalmalarla bağlı təlim keçirməsi oldu. Aparılan islahatlar vəziyyətə necə təsir edib?**

– Dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə 2023-cü ilin ötən dövrü ərzində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən muxtar respublikada 250-yə yaxın dövlət müəssisə və təşkilatların, sahibkarlıq subyektlərinin iştirakı ilə bir neçə dəfə təlimlər keçirilib. Təlimlərdə dövlət satınalmaları sahəsində şəffaflığın artırılması, satınalma prosesinin necə başlanması, aparılması, müqavilələrin bağlanması şərtlərinə diqqət yetirilib, eyni zamanda, bu sahədə peşəkarlığın artırılması və ən əsası məlumatların portala düzgün yüklənməsinə dair maarifləndirmə işləri aparılıb.

**– Bu il Naxçıvanda keçirilən satınalmaların hansı hissəsi müsabiqə üsulu ilə – tender, kotirovka və sair üsulla keçirilib? Bu rəqəmi 2021-ci və ya 2022-ci illə müqayisə etmək olarmı?**

– Çox təəssüf ki, 2021–2022-ci illərdə Naxçıvanda dövlət qurumları tərəfindən, ümumiyyətlə, satınalma müsabiqələri keçirilməyib. Bu il ərzində 400-dən çox satınalma müsabiqəsi reallaşdırılıb. Bunun 270-ə yaxını kotirovka sorğusu, 125-i açıq tender üsulu ilə keçirilib. Satınalmalarda iştirak etmək istəyən investorlar https://etender.gov.az/ saytı vasitəsilə satınalma şərtləri ilə tanış olub müsabiqədə iştirak edə bilərlər. Bununla əlaqədar olaraq muxtar respublikada təşviqat işləri aparılır və medianın imkanlarından istifadə edilməklə ictimaiyyətin diqqətinə çatdırlır.

**– İndiyədək belə bir fikir formalaşmışdı ki, Naxçıvanda tenderdə iştirak etmək mənasızdır, onsuz da qalib gəlmək mümkün olmayacaq. İndi vəziyyət necə dəyişib? Tenderlərdə rəqabət təmin edilirmi?**

– Bəli, ötən ilədək muxtar respublikada "tender" anlayışı mövcud olmadığından bu kimi hallarda sahibkarlıq subyektləri sosial infrastruktur layihələrində iştirak etməyə maraqlı deyildilər. Lakin bu gün həyata keçirilən islahatlar, görülən işlər bu məsələlərin şəffaf, obyektiv şəkildə qiymətləndirilməsinə yol açır. Qarşımızda isə bir məsələ dayanır: sahibkarlıq subyektlərinin satınalmalara dair öncəki yanaşmalarını dəyişmək və tam şəffaflığın bərpa olunduğuna inam yaratmaqdır.



**– Bu tenderlərdə nə qədər şirkət iştirak edib və onlardan neçəsi qalib olub? Bu rəqəmi əvvəlki illərlə müqayisə edə bilərikmi?**

– Məlumat üçün bildirək ki, 2000-ə yaxın şirkət bu tenderlərdə iştirak edib. Bu tenderlərin də 345-i satınalma müsabiqəsində uğurla yekunlaşıb. Qeyd edək ki, keçirilən satınalmalarda tələb olunan şərtlərə cavab verən şirkətlər isə qalib elan edilir.

**– Naxçıvanın yerli şirkətləri bu tenderlərdə nə qədər aktivdirlər?**

– Naxçıvan Muxtar Respublikasında 2023-cü ildən başlayaraq bütün satınalmalar "Dövlət satınalmaları" haqqında Qanuna uyğun olaraq aparılır. Bu baxımdan muxtar respublikada keçirilən tenderlərdə iştirak edən şirkətlər arasında qeydiyyatdan keçərək fəaliyyət göstərən şirkətlərin də aktivliyi özünü biruzə verir.

**– Azərbaycanda dövlət satınalmaları biznes və sahibkarlar üçün ən ciddi sifariş mənbəyidir. Naxçıvan Muxtar Respublikasında bu sahədə vəziyyət necədir?**

– Artıq infrastruktur layihələrinin icrası birbaşa dövlət satınalma proseduruna uyğun olaraq həyata keçirilir. Belə ki, satınalmalarda bu kimi əhəmiyyətli iştirak biznes mühitinin və sahibkarlıq subyektlərinin inkişafı üçün geniş imkanlar yaradır.

**– Maraqlı müsahibə üçün sağ olun!**

**Səhifənin materiallarını hazırladı: T.RÜSTƏMLİ, S.HƏSƏNOV, XQ**
**Naxçıvan – Bakı**

# Arazqırağının Zəfər təməlli şəhəri – Füzuli

**1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən qəsb edilən Füzuli şəhərini, rayonun kəndlərini düşmən işğal müddətində tamamilə dağıdıb. Erməni yağmaçılar dini, tarixi, mədəni abidələrə, qəbiristanlıqlara, eləcə də təbiətə qarşı vandallıq əməlləri törədiblər. Şanlı Ordumuzun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində aparılan döyüş əməliyyatları ilə 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri erməni işğalından azad olunub. Prezident İlham Əliyevin imzaladığı sərəncamla həmin tarix Füzuli Şəhəri Günü kimi təsis edilib.**

## *I yazı*



Vətən müharibəsindən dərhal sonra erməni faşizminin xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzurun bütün yaşayış sahələrində, eləcə də Füzulidə abadlıq, bərpa-quruculuq layihələri həyata keçirmək diqqət mərkəzində saxlanıldı. Prezident İlham Əliyev işğal dövründə bu ərazilərdə yaranmış vəziyyətlə yerində tanış olmaq üçün bölgəyə davamlı səfərlər etdi. 2020-ci ilin noyabrın 16-da dövlətimizin başçısı Birinci vitse-prezident Mehriban Əliyeva ilə Füzuliyə gəldi. Ölkə rəhbəri bu səfəri zamanı rayondan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı verdiyi göstərişin–Füzuli–Şuşa avtomobil magistralının–Zəfər yolunun çəkilişinə başlandı.

2021-ci il oktyabrın 26-da Prezident İlham Əliyev və qardaş Türkiyə Cümhuriyyətinin rəhbəri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi keçirildi. Ən müasir tələblərə cavab verən, eyni zamanda, yüksək keyfiyyəti ilə diqqətçəkən və qısa müddətdə qurulan belə bir beynəlxalq hava limanı beynəlxalq aləmdə Azərbaycan dövlətinin güc-qüdrət simvoluna çevrildi. Bundan başqa, həmin il iyunun 14-də dövlətimizin başçısının iştirakı ilə yeni "Füzuli" yarımstansiyasının açılış mərasimi keçirildi, oktyabrın 17-də isə rayonun Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməli qoyuldu.

Belə genişmiqyaslı infrastrukturun sürətlə yaradılması isə xalqımızda işğal-



dan azad edilən Füzulinin tezliklə bərpa olunacağı, erməni faşizminin yer üzündən sildiyi şəhər və kəndlərin gülüstana dönəcəyi, məskunlaşmanın tez bir zamanda başlayacağı əminliyini daha da gücləndirdi. Bu əminlik isə Füzuli şəhərinə ilk köçün– 90 nəfərdən ibarət 23 ailənin avqustun 18-də yola salınması mərasiminin keçirilməsi ilə təsdiqini tapdı.

## Qayıdışın Füzuli köçü davam edir

Füzuli şəhərində məskunlaşma hissə-hissə həyata keçirilir. Dekabrın 7-də növbəti köç karvanı ilə 25 ailə olmaqla 80 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşdu. Ailələr qarşılandıqdan sonra açarların təqdim edilməsi mərasimində çıxışında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov bildirdi ki, keçmiş məcburi köçkünlərin həsrətində olduqları doğma yurdlarına qayıdışı, onların yaşayış şəraiti, işlə təmin olunmaları Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan ən önəmli vəzifədir. Bu tapşırığın yüksək səviyyədə gerçəkləşməsi üçün bütün imkanlardan səmərəli istifadə olunur. Əsas məqsəd isə işğaldan azad olunmuş ərazilərdə bərpa və reabilitasiya prosesinin ilk mərhələsində Füzuli şəhər mərkəzinin qurulması layihəsinin yüksək keyfiyyətlə, eyni zamanda, nəzərdə tutulan vaxtda həyata keçirilməsidir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin Repatriasiya Departamentinin direktor müavini Tural Qasımov isə müxtəlif rayonlardakı pansionatda, yataqxanada daha ağır şəraitdə yaşayan Füzulidən olan keçmiş məcburi köçkün ailələrinin məişət avadanlığının müvafiq yük maşınları vasitəsilə daşındığını, özlərinin isə rahat avtobuslarla "Qobu Park – 3" yaşayış massivindəki təyinat nöqtəsindən köçürüldüyünü söylədi.

Mərasimdə sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə etdilər. Sonda keçmiş məcburi köçkünlər sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq öz evlərində yerləşdilər.

Xatırladaq ki, Füzuli şəhərinə qayıdış 2023-cü il avqust ayının 18-də başlanılıb. Ötən müdətddə şəhərdə 333 ailə olmaqla 1186 nəfərin daimi məskunlaşması təmin edilib.

## "Sürünərəm dizin-dizin..."

İşğal dövründə erməni işğalında olan Füzuli şəhəri tamamilə dağıdılıb, dini, tarixi, mədəni abidələrə, qəbiristanlıqlara, eləcə də təbiətə qarşı vandallıq əməlləri törədilib. Ev-eşiyindən didərgin düşmüş, məcburi köçkünə çevrilən əhali isə aylar, illər ötdükcə torpaq nisgili, yurd həsrəti ilə yanıb-qovrulub. Gecələr yuxular ərşə çəkiləndə düşmən tapdağında əzilən torpağın, dağıdılan evlərin, viranəyə çevrilən həyət-bacaların qulaqlarda hay-harayı eşidilib.

Bütün məcburi köçkünlər kimi, füzulilər də 30 illik yurd həsrətini içlərində çəkiblər, od-ocaq göynərtisini qəlblərində yaşadıblar. Amma sınmayıblar, bir an da olsun belə nə vaxtsa dogma şəhərlərinə dönə biləcəkləri ümid–inamlarını itirməyiblər. Hərəsi bir şəhərdə-kənddə, dağda-aranda məskunlaşsa da ağrılara, çətinliklərə mərdliklə dözüblər, ağlayıb-sızlamayıblar…

**Füzuliyə yenicə qayıdan Mübariz Kərimov deyir:** – Məcburi köçkünlük illərində doğma od-ocağımı heç cür unuda bilmirdim. Əhd eləmişdim ki, Füzuliyə nə vaxtsa qayıtsam, qədəm basdığım an torpağı öpüb dizin-dizin sürünəcəyəm.



Bax, bu gün bu istəyimə, arzu-kamıma çatdım. Bilirsənmi, ötən 30 ildə Vətənsizlik əzabını necə yaşamışam?!. Yay aylarında o görünən qarşı dağlardan əsən sərin mehin xiffətini çəkirdim, burda baharı qarşılamağın, bağ-bağatı ağ örpəyə bürüyən meyvə ağaclarının çiçəklərinin tamaşasına durmağın, həyətlərdəki qızılgülün ətrini ciyərlərimə udmağın həsrətindən boğulurdum.

Günlərim, aylarım bax, beləcə Vətənsizlik acısı yaşamaqla, yurdsuzluq odunda qovrulmaqla keçirdi. Gecələr yuxum ərşə çəkiləndə düşmən tapdağında əzilən torpağımın, dağıdılan evimin, viran qalan həyət-bacamın hay-harayını eşidirdim. Dərin bir yuxuya gedib, ayılmaq istəmirdim. Fikirləşirdim ki, ölsəm, bəlkə, ruhumla o torpağa qovuşaram, dağıdılan, xaraba qoyulan ev-eşiyimlə dərdimi bölüşərəm...

Mübariz kişi sözlərinə onu da əlavə edir ki, torpaqları yağı tapdağında olan vaxtlarda yaşlı adamlar dədə-baba yurdlarına qayıdacaqlarına daha çox inanırdılar. Dünyasını dəyişən bir ağbirçəyin oğluna vəsiyyətini isə heç cür unuda bilmirəm. Deyirdi ki, ölsəm, məni "əmanət qəbir"də dəfn edin, torpaq düşməndən alınanda isə Füzulidəki dədə-baba qəbiristanlığına köçürdün. Orda həm rahat uyuyaram, həm də nəvə-nəticələrim məzarımı ziyarət etməklə Vətənlə, torpaqla bağlılıqlarını yaşadarlar, kimliklərini yaddan çıxarmazlar.

Mübariz Kərimov neçə illik həsrətdən sonra Füzuliyə–bu yeni qurulan şəhərə qədəm qoyanda yaxınlıqdan keçən magistral yoldan azca aralıda görünən erməni vəhşilərinin evləri xarabağa qoyduqlarından, quru daşları da belə oda qaladıqlarından dəhşətə gəldiyini deyir: "Viranəyəçevrilən Füzulinin görünüşü ürəyimi parçalayır. Şəhər tamamilə dağıdılmış, yerlə-yeksan edilmiş vəziyyətdədir. Zəhmətlə, alın tərilə tikilib-qurulanların bu şəkildə talanması, yer üzündən silinməsi, evlərdən əsər-əlamət qalmaması, hər tərəfin kol-kosa, daş-torpağa çevrilməsi erməni vəhşiliyini, qəddarlığını göstərir".

**Cəmil Abbasov da dünyaya bu şəhərdə göz açdığını deyir, Füzuli xatirələrini danışdıqca kövrəlir. Yanağı aşağı axan göz yaşlarını silir:** – Kim




deyirsə ki, vaxt, zaman Vətən həsrətini, yurd nisgilini qaysaqladır, yalan sözdür. Aradan uzun illər keçsə də, Vətən Vətəndir. Onu necə unutmaq, yaddan çıxartmaq olar?! Heç vaxt ağlıma gəlməzdi, yatsam yuxuda da görməzdim ki, doğma od-ocaqdan ayrı düşərəm... Dualarımız, diləklərimiz axır ki, eşidildi. İllər keçdikcə daha da quduzlaşan, ağlını itirən düşmənin dağıtdığı, xarabalığa çevirdiyi Füzuli





şəhəri ordumuzun gücü ilə 2020-ci il oktyabrın 17-də işğaldan azad edildi, torpaq, yurd həsrətimizə son qoyuldu…

Mən bu şəhərdən didərgin salınanda 45 yaşım vardı, indi isə 70-i keçmişəm. 30 il Füzuli həsrət və nisgil ünvanıma çevrildi. İndi görürəm ki, bu müddətdə düşmən bizim təkcə ocağımızı söndürmədi, həm də yüz illərin, min illərin tarixini sərgiləyən sirli-sehrli daş-qaya abidələrimizi, məzarlıqlarımızı dağıtdı, yerlə-yeksan etdi, hətta təbiəti belə sıradan çıxardı. Bulaqları qurutdu, bağ-bağatın ağaclarını kəsib-doğradı.

C.Abbasov daha sonra 30 ildə bəlkə əsən yellər yurd-yuvanın, kənd-kəsəyin havasını-ətirini gətirər deyə yatanda da üzünü Füzuli səmtə çevirən nə qədər qaçqın-köçkünün axşamı səhər elədiyini söyləyir. Əlavə edir ki, doğma şəhərdən Qarabağ yaylaqlarına qalxmaq, arandan dağa köç sürmək intizarıyla nə qədər soydaşımız əlçatmaz, ünyetməz bir uzaqlıqda qalan dünənlərinin həsrətiylə dünyasını dəyişdi.

Çox şükürlər ki, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə güclü-qüdrətli silahlı qüvvələrimiz "güclü erməni ordusu" mifini dağıtdı, əzəli-əbədi Qarabağımızı geri aldı. İşğalçı Ermənistanın bundan sonra respublikamıza qarşı heç vaxt hərbi güc nümayiş etdirmək iqtidarında olmayacağını onun özünə və havadarlarına yaxşı anlatdı.

## Güc və qüdrətimizin canlı təcəssümü

Prezident İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə şəhərə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxış edərək Füzulinin indi tamamilə yenidən qurulduğunu, yaşayış məhəlləsinin salındığını, bir neçə önəmli obyektin təməlinin qoyulduğunu, burada yaşayanların sayının da təbii ki, getdikcə artacağını bildirib. Dövlət başçısı, eyni zamanda, ilin sonuna qədər Füzulidə, təqribən, 2 minə yaxın insanın yaşayacağı, Böyük Qayıdış Proqramının birinci mərhələsinin yekununda– 2026-cı ilin sonunda isə 22 min insanın bu şəhərdə məskunlaşacağının nəzərdə tutulduğunu vurğulayıb.

Yeri gəlmişkən, Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib. Burada 2040-cı ilədək 50 min vətəndaşın məskunlaşacağı nəzərdə tutulub.

Füzuli işğaldan əvvəlki şəhər ilə müqayisədə daha geniş əraziyə malik olacaq. Növbəti 20 ildə əhali sayı 1993-cü il illə müqayisədə 2,5 dəfə artacaq və şəhər hava limanı daxil olmaqla, 1936 hektar sahəyə çatacaq. 46 kilometr avtomobil yolları olan şəhərdə piyada, velosiped yolları 85 kilometr təşkil edəcək. Şəhəri əhatə edən yüksəklikdə Bayraq meydanı yaradılacaq. Şəhərdə çoxmərtəbəli binalarla yanaşı, az və ortamərtəbəli çoxmənzilli binalar da inşa ediləcək. Füzulidə həyətyanı bağ sahələri olan fərdi evlər də tikiləcək.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov söhbət zamanı Füzuli şəhərinin bərpasından danışarkən xatırlatdı ki, müfəssəl həllərlə inteqrə olunan və 2040-cı ilə qədərki inkişaf dövrünü əhatə edən Baş plana əsasən, təbiət əraziləri ilə vəhdətdə olan şəhər strukturunun formalaşdırılması, yüksək keyfiyyətli xidmət obyektlərinin yaradılması nəzərdə tutulub. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsinin, 13 məktəbəqədər və peşə təhsili, internat tipli musiqi məktəblərinin, xəstəxana, mədəniyyət və inzibati mərkəzlərin, idman kompleksinin inşasının, Qələbə və Memorial parkların, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan eko parkın salınması da planlaşdırılıb.

Eldar Seyidovun sözlərinə görə, Baş planda Füzuli şəhərinin dayanıqlı inkişaf, "ağıllı" həllər əsasında qurulması və insanların sağlam həyatını gerçəkləşdirmək üçün ən müasir şəhərsalma yanaşmaları



da öz əksini tapıb. 2030-cu ilədək dayanıqlı inkişaf üçün idarəetmə, iqtisadiyyat, sosial rifah, ətraf mühit kimi 4 əsas istiqamət seçilib. Sənəddə sakinlərin rifahı üçün rəqəmsal həllərdən yararlanmaqla ənənəvi şəbəkələrin və xidmətlərin daha səmərəli edilməsi məqsədilə "ağıllı şəhər" yanaşması irəli sürülüb. Bu yanaşmada elektron idarəetmə sistemlərinə tam keçid, müasir texnologiyalar üzrə peşəkar kadrların hazırlanması, yaşayış evləri, təhsil, səhiyyə və digər xidmətlər sisteminin optimal əlaqələndirilməsi və digər mühüm mövzular da nəzərə alınıb.

Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı onu da vurğuladı ki, Baş plan çərçivəsində şəhərə bütün istiqamətlərdən giriş-çıxışı reallaşdıran nəqliyyat şəbəkəsi qurulacaq, ərazi 3 dairəvi avtomobil yolu vasitəsilə yığcam formada planlaşdırılacaq, ictimai nəqliyyatın hərəkətinə üstünlük verilməsi üçün uyğun küçə-yol şəbəkəsi formalaşdırılacaq, təbii çayların, su hövzələrinin mühafizə zonalarında geniş rekreasiya əraziləri təmin ediləcək, şəhərin tarixi irsinin tərənnüm etdirilməsi məqsədilə şəhər ərazisində Qələbə parkı, M.Füzuli Meydanı, Memorial park da yaradılacaq və yaşıl zolaqlar vasitəsilə bu ərazilər bir-biri ilə əlaqələndiriləcək.

*Vaqif BAYRAMOV,*
*Səbuhi MƏMMƏDOV*
*XQ*

**Bakı–Füzuli–Bakı**

## “Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 10 mart tarixli 8-VIQR nömrəli Qərarında (“Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı”, 2020, №1) aşağıdakı dəyişiklik edilsin:

“Fazil Qəzənfər oğlu Mustafa” sözləri “Ülviyyə Tapdıq qızı Həmzəyeva” sözləri ilə əvəz edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 8 dekabr 2023-cü il**

## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179.2-ci maddəsini rəhbər tutaraq, “Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli 4193 nömrəli Sərəncamının 2-ci hissəsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 8.1-ci, 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 179.2-ci maddələrinə əsasən **qərara alır:**

**1.** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilsin.

**2.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

## “Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bu seçkilərin keçirilməsi üçün Azərbaycan Respublikasının seçki qanunvericiliyində nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl və keyfiyyətlə icra olunması, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin səmərəliliyinin artırılması məqsədilə əsas hərəkət və tədbirlərin yerinə yetirilmə ardıcıllığını, müddətlərini və subyektlərin əhatə dairəsini müəyyən edən Təqvim planının təsdiq edilməsi zəruridir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.3-cü, 28.2-ci, 28.4-cü, 177-203-cü, 207-ci və 208-ci maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** “Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı” təsdiq edilsin.

**2.** Təqvim planı dərc edilsin.

**3.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun yaradılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-1.1-ci maddəsinə görə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının nəzdində 9 nəfərdən, dairə seçki komissiyasının nəzdində isə 3 nəfərdən ibarət müvafiq ekspert qrupları yaradılır.

Növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri dövründə seçki hüququnun pozulması ilə əlaqədar seçki komissiyalarına daxil olmuş şikayət və müraciətlərin araşdırılmasının təmin edilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının, həmçinin seçki dairələri dairə seçki komissiyalarının nəzdində Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada ekspert qrupları yaradılmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 112-1.1-ci maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində Mərkəzi Seçki Komissiyasının nəzdində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə aşağıdakı tərkibdə ekspert qrupu yaradılsın:

- Ramiz İbrahimov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Fuad Cavadov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Qabil Orucov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Bəxşeyiş Əsgərov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Tofiq Həsənov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- İlkin Şahbazov – Mərkəzi Seçki Komissiyasının üzvü;
- Nailə Əsgərova – Mərkəzi Seçki Komissiyasının üzvü;
- İlqar Əlizadə – Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri;
- Rafiq Abbasov – Mərkəzi Seçki Komissiyası Katibliyi Hüquq şöbəsinin müdiri.

**2.** Dairə seçki komissiyalarının nəzdində Seçki Məcəlləsinə uyğun olaraq 3 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılması seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.

**3.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

## “Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

“Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 10 mart tarixli 7-VIQR nömrəli Qərarında (“Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı”, 2020, №1) aşağıdakı dəyişiklik edilsin:

“Qənirə Ələsgər qızı Paşayeva” sözləri “Fazil Qəzənfər oğlu Mustafa” sözləri ilə əvəz edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Bakı şəhəri, 8 dekabr 2023-cü il**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyasının nəzdində İşçi qrupunun yaradılması və rəhbərinin təyin edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bu seçkilərdə prezidentliyə irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələrindəki imzaların düzgünlüyünü və digər seçki sənədlərində olan müvafiq məlumatları yoxlamaq üçün Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59.2-ci maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Əmlak Məsələləri Dövlət Xidmətinin, Azərbaycan Respublikası Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlər daxil edilməklə müvafiq işçi qrupu yaradılmalı, Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvlərindən biri həmin qrupa rəhbər təyin edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 59.2-ci maddələrinə uyğun olaraq **qərara alır:**

**1.** 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində prezidentliyə namizədin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində olan imzaların və digər məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Əmlak Məsələləri Dövlət Xidmətinin, Azərbaycan Respublikası Hesablama Palatasının mütəxəssisləri sırasından ekspertlərdən ibarət İşçi qrupu yaradılsın.

**2.** Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyev İşçi qrupunun rəhbəri təyin edilsin.

**3.** Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

# Ermənistanda enişli “yüksəliş”in anatomiyası

## Bir ölkənin məhsulunu başqasına satmaq tərəqqidirmi?

**Ermənistan hökumətinin bu ilin may ayında ölkə iqtisadiyyatının birinci rübdə 12,2 faiz artmasına dair tirajladığı yalanlara, əslində, sağlam düşünməyi bacaran heç kim inanmadı. Çünki 44 günlük müharibədə ağır məğlubiyyətə düçar olmuş və bununla ciddi düşkünlük yaşanan bir ölkənin iqtisadiyyatında belə bir yüksəlişin əldə olunması mümkün deyildi.**



Çox təəssüf ki, sapı özümüzdən olan və ölkənin rəhbər qurumlarının fəaliyyətinə yalnız qara eynəklə baxan “siyasətçi”lər Ermənistan iqtisadiyyatında baş verən bu “sıçrayışı” bayraq edib Azərbaycan hökumətinin üzərinə gəldilər. Onlar müharibədə ağır məğlubiyyətə uğramış bir ölkədə “islahatçı” baş nazir Nikol Paşinyanın necə bir inqilab etdiyinə heyranlıq göstərdilər.

N.Paşinyanın bəyanatından sonra bir çox iqtisadçı ekspertlər bu “sıçrayışlı” inkişafın əsl səbəblərini araşdırmağa başladılar. Əslində Ermənistan iqtisadiyyatında nə baş verirdi? Bu “sürətli inkişaf” nədən və haradan qaynaqlanırdı? Biz də bu suallara cavab tapmaq, əsl həqiqəti öyrənmək məqsədilə Ermənistan Dövlət Statistika Komitəsinin rəsmi saytına daxil olub məsələnin köklərini araşdırdıq.

Aparılan araşdırmalar konkret faktlarla sübut etdi ki, Ermənistan iqtisadiyyatında heç bir artım yoxdur və bütün bunlar ermənilərin növbəti uydurmasından başqa bir şey deyil. İlin birinci rübü üçün elan edilən bu “sıçrayışlı inkişaf”ın ağ yalan olduğunu anladıqdan sonra ermənilər bu sürəti növbəti rüblərdə “yavaşıtmaq” qərarı verdilər. Baxın, cari ilin birinci rübündə iqtisadiyyatın 12,2 faiz artdığını rəsmən bəyan edən Ermənistan rəhbərliyi və onun Dövlət Statistika Komitəsi ikinci rübdə bu “artımın sürətinin” 9,1 faizə, üçüncü rübün yekunlarına görə isə, 7,4 faizə düşdüyünü bəyan etdilər.

Bu hesabla cari ilin yekunları üzrə Ermənistan iqtisadiyyatındakı “artım”ın gözlənilən səviyyəsi 2 faizdən çox olmayacaqdır. Sual olunur: Bir ölkənin iqtisadiyyatında birinci rübdə 12,2 faiz artım qeydə alınırsa, ortada ciddi siyasi və iqtisadi kataklizmlər olmadığı halda, bu artım ilin yekununda necə 2 faiz səviyyəsinə düşə bilər? Paradoksdur, deyilmi?

Gəlin indi bu “artım”ın necə baş verdiyini konkret faktlarla aydınlaşdıraq. Ermənistan iqtisadiyyatında öncə bəyan olunmuş “bum”un ilin sonlarına doğru “əriməsi” bu dövlətin artımlarla bağlı ağ yalanlarını üzə çıxardı. Birinci rüblə müqayisədə ilin yekununda iqtisadiyyatda artımın 6 dəfədən çox azalmasına (2023-cü ilin birinci rübündə 12,2 faiz, yekununda isə 2 faiz) baxmayaraq, ölkənin ixracı durmadan və böyük sürətlə artmaqdadır. Belə ki, bu ilin 10 ayı ərzində ötən ilin eyni dövrü ilə müqayisədə Ermənistan ixracının həcmi 38,5 faiz artıb. Bir ölkədən 10 ay ərzində ixrac belə böyük sürətlə artırsa, ilk baxışdan, onun iqtisadiyyatında inkişafın baş verməsi qənaətinə gəlmək mümkündür. Çünki Ermənistan ərazisindən ixracın yeganə və əsas mənbəyi yerli istehsaldır. Yerli istehsal artmalıdır ki, ixrac potensialı da bu qədər genişlənsin. Bəs, bu ölkədən ixracın belə sürətlə artımı, doğrudan da, yerli istehsalın artımı hesabına baş verir?

Baxaq. Cari ilin 10 ayının yekunlarına görə, Ermənistanda sənaye məhsullarının istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz azalıb, aqrar sektorda isə cəmi 1,7 faiz artım qeydə alınıb. Deməli, bu ölkənin iqtisadiyyatında cari ilin əvvəlindən qeydə alınmış artımların kökündə başqa mətləblər dayanır.

Məsələyə aydınlıq gətirmək üçün son 1-2 ildə, daha doğrusu, Rusiyanın Ukraynaya hərbi təcavüzündən sonrakı dövrdə Ermənistanın xaricdən idxal etdiyi və Rusiyaya göndərdiyi məhsulların dinamikasına baxmaq yetərlidir. Beləliklə, son iki ildə Ermənistanın ümumi idxalı 2,2 dəfə, ixracı isə 2,3 dəfə artıb. Bir ölkənin xarici ticarət dövriyyəsinin iki il ərzində belə sürətlə artımı qeyri-mümkündür. Bəs, Ermənistanın idxal və ixracının belə kosmik sürətlə artdığı dövrdə bu ölkədən Rusiyaya ixracın həcmi necə dəyişib? Bu kimi sualların cavabını isə aşağıdakı rəqəmlərdə tapmaq mümkündür.

Son iki ildə Ermənistandan Rusiyaya ixracın həcmi 2021-ci illə müqayisədə 2 milyard 606,2 milyon dollar və ya 410 faiz (4,1 dəfə) artıb ki, bu da Ermənistanın 2023-cü ildə gözlənilən cəmi ixracının 49,6 faizi, yəni təqribən yarısı deməkdir. Halbuki 2021-ci ildə Ermənistandan Rusiyaya ixrac olunan məhsulların həcmi cəmi 840,7 milyon dollar təşkil edib ki, bu da ümumi ixracın 28 faizinə bərabər olub. Beləliklə, gəlinən qənaət budur ki, Ermənistan iqtisadiyyatında son iki ildə qeydə alınan “bum” yalnız xarici ticarət dövriyyəsinin artması hesabına baş verib.

Məsələyə tam aydınlıq gətirmək üçün Ermənistanın idxal və ixracının nədən birdən-birə bu qədər böyüməsi sualını da cavablandırmaq lazımdır. Həm də bu sualın cavabı bütün qaranlıqlara aydınlıq gətirir. Ukraynaya hərbi təcavüz səbəbindən Qərbin Rusiyaya və ilk növbədə, onun hərbi sənaye kompleksinə tətbiq etdiyi ağır sanksiyalar Rusiya bazarında bir çox məhsulların, o cümlədən bu ölkənin hərbi sənaye kompleksi üçün lazım olan müxtəlif təyinatlı malların ciddi çatışmazlığını yaradıb.

Rusiya, sadəcə, sanksiyalar məngənəsində boğulur. Bu yerdə Ermənistan Rusiyanın “köməyinə” gəlib. Yəni, Ermənistan artıq iki ilə yaxındır ki, Rusiyaya lazım olan həmin məhsulları xaricdə onları istehsal edən müəssisələrdən idxal edib, sonradan isə həmin malları müxtəlif adlar altında bu ölkəyə ixrac edir. Bu yolla öz idxal və ixracını iki ilə yaxın bir vaxtda fantastik səviyyədə artıran Ermənistan bu artımları öz iqtisadiyyatının “çiçəklənməsi” kimi qələmə verərək belə bir yalanı öz əhalisinə və bütün dünyaya sırıyır. Beləliklə, növbəti peşəkar erməni yalanı, erməni həyasızlığı və oğurluğu göz qabağındadır. Bunlar tarix boyu hər şeyi oğurlayıb özününküləşdirməyə çalışdıqları kimi, indi də iqtisadiyyatları ilə manipulyasiya edərək hər kəsi aldatmağa çalışırlar.

Son bir ildə Amerika Birləşmiş Ştatları və Avropa Birliyi Qərbin Rusiyaya yönəlik sanksiyaları davam etməsi ilə bağlı Ermənistan hökumətinə bir neçə dəfə xəbərdarlıq ediblər. Ancaq, hələ ki, erməni həyasızlığı öz işini davam etdirir. Bir anlıq təsəvvür edək ki, Rusiyaya bu “ayı xidmətini” Azərbaycan göstərmiş olsaydı, nə baş verərdi. Heç şübhəsiz, Qərb Azərbaycana qarşı ən sərt sanksiyalar tətbiq edərdi. Ancaq bu gün Qərb, hələ ki, Ermənistanı bu məsələ ilə bağlı “xəbərdarlıq” etməklə öz vəzifəsini yerinə yetirmiş hesab edir.

Ermənistan indi də Avrasiya İqtisadi Birliyindən çıxıb Avropa Birliyinə üzv olmaqla “iqtisadi cənnət”ə düşəcəyi barəsində növbəti yalanları tirajlamaqla məşğuldur. Bu millətin mayası yalanla yoğrulub. Bunlar tarix boyu yalan danışa-danışa, hər kəsi aldadıb özlərinə yer ediblər.

Ermənistan Rusiyadan qopub Avropaya inteqrasiya etməsi üçün, ilk növbədə, iqtisadiyyatının Rusiyadan asılılığını aradan qaldırmalıdır. Ancaq necə? Hazırda Ermənistan iqtisadiyyatı birbaşa və dolayı yolla 80 faizə qədər Rusiyanın nəzarətindədir. Bu gün Ermənistan məhsullarının əsas satış bazarı Rusiyadır. Rusiyanın hərtərəfli dəstəyindən, güzəştlərindən istifadə edərək nəfəs alan Ermənistan yüksək standartların mövcud olduğu, rəqabətin son həddə çatdığı Avropa bazarında nə edə bilər? Ermənilər, yəqin, bu bazarlarda, ancaq badımcan ikrası satmağı düşünə bilərlər. Bu gün Rusiyadan güzəştli şərtlərlə qaz, elektrik enerjisi və digər strateji məhsullar alaraq yaşayan Ermənistan sabah bunların hamısından məhrum olarsa, Avropa bazarına nə ilə çıxa bilər?

İqtisadiyyatının sürətlə inkişaf etməsi haqqında miflər yaradaraq həm öz xalqını, həm də bütün dünyanı aldatmaqla məşğul olan Ermənistan hökuməti, heç şübhəsiz, bu uydurmaların yaratdığı eyforiya ilə növbəti yalanları tirajlamağa qərar verib. Ancaq ermənilər unudurlar ki, belə yalanlarla yalnız Avrasiya İqtisadi Birliyində qalıb fəaliyyət göstərmək mümkündür...

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***

Azərbaycan Respublikası Mərkəzi
Seçki Komissiyasının 8 dekabr 2023-cü
il tarixli 7/16 saylı Qərarı ilə təsdiq edilmişdir

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin

## TƏQVİM PLANI

## Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri elan edilmişdir

| Sıra sayı | Əsas hərəkət və tədbirlər | İcraçılar | Keçirilmə müddətləri | |
|---|---|---|---|---|
| | | | Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və digər hüquqi aktlara əsasən | Tövsiyə olunan müddətlər |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qərarının qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 60 gün qalmış<br>M a d d ə l ə r : 8.1, 179.2, 207 | 2023-cü il dekabrın 9-dək |
| 2 | Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunmasına dair Mərkəzi Seçki Komissiyası qərarının dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin təyin edilməsi haqqın-da qərar qəbul edildikdən sonra ən geci 2 gün müddətində<br>M a d d ə 178.3 | 2023-cü il dekabrın 10-dək |
| 3 | Azərbaycan Respublikası Prezidentliyinə namizədlərin irəli sürülməsi | Aktiv (passiv) seçki hüququ olan vətəndaşlar, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları | Seçkilərin təyin edilməsi haqqın-da qərar rəsmi dərc olunduqdan sonra<br>M a d d ə l ə r : 3, 53, 54, 180 | |
| 4 | Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Sənədlərin Komissiyaya təqdim edilməsindən sonra 5 gün müddətində<br>M a d d ə l ə r : 53.6, 54.9 | |
| 5 | Azərbaycan Respublikası Prezidentliyinə namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələrinin verilməsi | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyasının prezidentliyə namizədliyin irəli sürülməsini təsdiq edən qərarın-dan sonra<br>M a d d ə l ə r : 53.6, 54.9 | |
| 6 | Azərbaycan Respublikası Prezidentliyinə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması | Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququna malik vətəndaşı, prezidentliyə namizəd, siyasi partiya, siyasi partiyaların bloku | Mərkəzi Seçki Komissiyasının prezidentliyə namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra<br>M a d d ə l ə r : 56, 57, 181 | |
| 7 | Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında);*<br>Beynəlxalq (xarici) müşahidəçilər *(qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsi gününə 10 gün qalanadək<br>M a d d ə l ə r : 1.1.19, 1.1.20, 40.4, 40.5, 40.6, 44 | 2024-cü il yanvarın 28-dək |
| 8 | Seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələrin müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək<br>M a d d ə l ə r : 1.1.19, 40.4, 40.5, 40.7 | 2024-cü il fevralın 2-dək |
| 9 | Səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə etmək üçün qeydiyyatdan keçməklə xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi | Aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı *(öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında);* Beynəlxalq (xarici) müşahidəçilər *(qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Azərbaycan Respublikasına gələrkən Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə)* | Seçkilərin təyin edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək<br>M a d d ə l ə r : 1.1.19, 40.4, 40.5, 40.13, 44 | 2024-cü il yanvarın 28-dək |
| 10 | Müşahidəçilərin qeydə alınması və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası<br>dairə seçki komissiyaları | Müşahidə aparılması barədə qərar ərizənin verildiyi tarixdən Mərkəzi Seçki Komissiyası tərəfindən 3 gün müddətində qəbul edilir.<br>Dairə seçki komissiyası tərəfindən isə 2 gün müddətində qəbul edilir.<br>M a d d ə l ə r : 25.2.20, 40.6, 40.7, 44 | |
| 11 | Seçki rəsmiləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsi | Mərkəzi Seçki Komissiyası,<br>dairə seçki komissiyaları | Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndi | Mütəmadi |
| 12 | Dairə və məntəqə seçki komissiyaları üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlərin təşkili və peşə hazırlığının artırılması ilə bağlı digər proqramların həyata keçirilməsinin təmin edilməsi | Mərkəzi Seçki Komissiyasının treninq qrupları | M a d d ə 25.2.7 | Mütəmadi |
| 13 | Dövlət avtomatlaşdırılmış informasiya sisteminin işini dairə seçki komissiyalarında təmin edən kompüter mütəxəssisləri üçün treninqlərin keçirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə 25.2.10 | Mütəmadi |
| 14 | Televiziya və radio proqramları və digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahının, seçicilərin hüquqi biliklərinin artırılmasının təmin olunması (çıxışlar, müsahibələr, dəyirmi masalar), əyani vəsaitlərin (videokliplər, plakatlar, bukletlər və s.) hazırlanması və nümayiş etdirilməsi | Mərkəzi Seçki Komissiyası | M a d d ə l ə r : 25.2.7, 25.2.10 | Mütəmadi |
| 15 | Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan, yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və ya konsul idarələrində qeydə alınmış seçicilərin seçki dairələri üzrə seçici siyahılarına daxil edilməsi (seçicilərin sayı haqqında məlumatlar əsasında) və dəqiqləşdirilməsi, habelə həmin seçki dairələrinin siyahılarının təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası<br>*(Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təqdimatı əsa-sında)* | Səsvermə gününə ən azı 25 gün qalanadək<br>M a d d ə l ə r : 29.2, 46.8 | 2024-cü il yanvarın 13-dək |
| 16 | Namizədin seçki fondunun formalaşdırılması üçün xüsusi seçki hesabının açılması | Prezidentliyə namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyaların bloku | Namizədlərin qeydə alınması üçün müvafiq seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi gününə azı 5 gün, qeydiyyat üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış<br>M a d d ə l ə r : 91.1, 91.2, 190.1 | |
| 17 | Namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Prezidentliyə namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi | Səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18.00-dək<br>M a d d ə 58.1 | 2023-cü il dekabrın 19-dan 2024-cü il yanvarın 8-i saat 18.00-dək |
| 18 | Birinci ilkin maliyyə hesabatı | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi | Qeydiyyat üçün zəruri olan sənədlərlə birlikdə hesabatda göstərilmiş tarixə 2 gün qalmışdan əvvəlki dövr üçün məlumatlar daxil edilir<br>M a d d ə 94.3.1 | |
| 19 | İmza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb- alınmaması haqqında qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Sənədlər qəbul edildikdən sonra 7 gün müddətində<br>M a d d ə l ə r : 59, 60, 182.1 | |
| 20 | Prezidentliyə namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin olunmuş vəkil edilmiş şəxslərin qeydə alınması və onlara lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası | Vəkil edilmiş şəxslərin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində<br>M a d d ə l ə r : 72.1, 72.2, 186.1 | |
| 21 | Seçicilərin tanış olması üçün təqdim edilmiş seçici siyahılarında əlavə dəqiqləşdirmələrin aparılması | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 35 gün qalanadək<br>M a d d ə 48.1 | 2024-cü il yanvarın 3-dək |

*(ardı 11-ci səhifədə)*

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin

## TƏQVİM PLANI

## Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri elan edilmişdir

*(əvvəli 10-cu səhifədə)*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 22 | Seçici siyahılarının Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyənləşdirilən qaydada təsdiq edildikdən sonra<br>M a d d ə 46.1 | Mütəmadi |
| 23 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin hazırlanma qaydasına və sayına dair tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 45 gün qalanadək<br>M a d d ə 101.1 | 2023-cü il dekabrın 24-dək |
| 24 | Səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqələrinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası<br><br>dairə seçki komissiyaları | Səsvermə vəsiqəsi səsvermə gününə azı 45 gün qalanadək Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilir;<br>səsvermə gününə azı 25 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına verilir.<br>M a d d ə l ə r : 101.1, 101.2 | 2023-cü il dekabrın 24-dək<br><br>2024-cü il yanvarın 13-dək |
| 25 | Qeydə alınmış namizədlərin siyahısının dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə 182.3 | 2024-cü il yanvarın 18-dək |
| 26 | Seçkiqabağı təşviqatın aparılması | Qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri | Səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.<br>M a d d ə l ə r : 75, 189 | 2024-cü il yanvarın 15-i başlayır, fevralın 6-sı saat 8.00-da dayandırılır |
| 27 | Bilavasitə seçkilərdən əvvəl seçki məntəqələrinin yaradılması:<br><br>a) yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə;<br>b) həmin yerlərdə müstəsna hallarda | Dairə seçki komissiyaları<br>*(seçicilərin olduqları ərazilərdə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi) və bələdiyyə qurumlarının başçıları ilə birlikdə)*<br><br>dairə seçki komissiyasının qərarına uyğun olaraq müvafiq qurumların rəhbərləri | Səsvermə gününə azı 50 gün qalanadək<br>M a d d ə l ə r : 35.2, 35.4, 35.5<br><br>səsvermə gününə azı 5 gün qalanadək<br>M a d d ə 35.5 | 2023-cü il dekabrın 19-dək<br><br>2024-cü il fevralın 2-dək |
| 28 | Azərbaycan Respublikasının dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında (seçicilərin sayı 50-dən artıq olduqda), seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında) seçki məntəqələrinin Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada yaradılması;<br><br>həmin yerlərdə Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi müstəsna hallarda seçki məntəqələrinin yaradılması | Dairə seçki komissiyaları<br>(müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumları ilə razılaşdırmaqla) | Səsvermə gününə ən azı 50 gün qalanadək<br>M a d d ə l ə r : 35.2, 35.4<br>səsvermə gününə azı 5 gün qalanadək<br>M a d d ə 35.4 | 2023-cü il dekabrın 19-dək<br><br>2024-cü il fevralın 2-dək |
| 29 | Nömrələri və hüdudları göstərilən seçki məntəqələrinin siyahısının (seçki məntəqəsi yaşayış məntəqəsi ərazisinin bir hissəsini əhatə etdikdə), yaşayış məntəqələrinin siyahısının (seçki məntəqəsi bir neçə yaşayış məntəqəsində yaradılmışsa), habelə məntəqə seçki komissiyaları, səsvermə otaqlarının yerləri (ünvanları) və məntəqə seçki komissiyalarının telefon nömrələri haqqında məlumatların dərc edilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 45 gün qalanadək<br>M a d d ə 35.7 | 2023-cü il dekabrın 24-dək |
| 30 | Seçki Məcəlləsinin 35.4-cü və 35.5-ci maddələrində göstərilmiş müstəsna hallarda yaradılan seçki məntəqələri haqqında məlumatların dərc edilməsi | Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada | Seçki məntəqələrinin yaradılması günündən ən geci 2 gün keçənədək<br>M a d d ə 35.7 | |
| 31 | Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan seçki məntəqələri üzrə Seçki Məcəlləsinin 35.7-ci və 109-cu maddələrində göstərilən məlumatların dərc edilməsi | Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri | Seçki məntəqələri yaradıldıqdan, eləcə də səsvermə keçirildikdən sonra<br>M a d d ə 35.8 | |
| 32 | Seçki komissiyalarının səsvermə protokollarının hazırlanması qaydasına, mətninə, formasına, sayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən geci<br>45 gün qalanadək<br>M a d d ə l ə r : 100.1 - 100.6 | 2023-cü il dekabrın 24-dək |
| 33 | Seçicilərə müvafiq dairə seçki komissiyası və ya məntəqə seçki komissiyası tərəfindən qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin verilməsi | Dairə seçki komissiyaları<br><br>məntəqə seçki komissiyaları | Səsvermə gününə 45-25 gün qalanadək<br><br>səsvermə gününə 24-3 gün qalanadək<br>M a d d ə l ə r : 101.2 - 101.4 | 2023-cü il dekabrın 24-dən 2024-cü il yanvarın 13-dək<br>2024-cü il yanvarın 14-dən fevralın 4-dək |
| 34 | Hər bir seçki məntəqəsi üzrə təsdiq edilmiş seçici siyahılarının dəqiqləşdirilməsi:<br><br>a) yolu çətin və ya ucqar yerlərdə yaradılan seçki məntəqələri üzrə seçici siyahılarının dəqiqləşdirilməsi;<br><br>b) hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında yaşayan hərbi qulluqçu ailələrinin, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların və digər seçicilərin) siyahılarının dəqiqləşdirilməsi | Dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları<br><br>məntəqə seçki komissiyaları<br><br>(hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri rəhbərlərinin seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında) | Səsvermə gününə azı 25 gün qalanadək<br><br>Səsvermə gününə azı 25 gün qalanadək, müstəsna hallarda isə məntəqə seçki komissiyasının yaradılmasından 2 gün sonra;<br>M a d d ə l ə r : 46.1, 46.5<br><br>Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə 46.6 | 2024-cü il yanvarın 13-dək<br><br>2024-cü il yanvarın 13-dək<br><br>2024-cü il yanvarın 18-dək |
| 35 | "Exit-poll" keçirmək niyyətində olan təşkilatların akkreditasiya üçün təqdim etdikləri sənədlərin qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 20 gün qalanadək<br>M a d d ə 25.2.23<br>"Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.1-ci bəndi | 2024-cü il yanvarın 18-dək |
| 36 | "Exit-poll" keçirmək üçün müraciət etmiş təşkilatların akkreditasiyası barədə qərarın qəbul edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 10 gün qalanadək<br>M a d d ə 25.2.23<br>"Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları"nın 2.3-cü bəndi | 2024-cü il yanvarın 28-dək |
| 37 | Səsvermə günü xarici dövlətlərdə olan və konsul qeydiyyatına durmuş seçicilərin səs verməsi üçün seçki məntəqələrinin yaradılması | Seçicilərin olduqları ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin rəhbərləri | Səsvermə gününə azı 30 gün qalanadək<br>M a d d ə 35.6 | 2024-cü il yanvarın 8-dək |
| 38 | Seçki bülletenlərinin hazırlanması qaydasına, mətninə, formasına, sayına, hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 35 gün qalanadək<br>M a d d ə l ə r : 99.1 - 99.4, 199 | 2024-cü il yanvarın 3-dək |
| 39 | Seçki məntəqələrinin ərazisində seçkiqabağı təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün müvafiq yerlərin müəyyənləşdirilməsi | Dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | Səsvermə gününə azı 30 gün qalanadək<br>M a d d ə 87.6 | 2024-cü il yanvarın 8-dək |
| 40 | Seçkiqabağı təşviqatın aparılması üçün müvafiq yerlərin ayrılması | Dairə seçki komissiyasının təklifi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | Səsvermə gününə 23 gün qalanadək<br>M a d d ə l ə r : 11, 86.3 | 2024-cü il yanvarın 15-dək |
| 41 | Səsvermə protokollarının Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək<br>M a d d ə 100.8 | 2024-cü il yanvarın 18-dək |
| 42 | Səsvermə protokollarının dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 4 gün qalanadək<br>M a d d ə 100.8 | 2024-cü il fevralın 3-dək |
| 43 | Seçkilər günü səsvermənin yeri və vaxtı barədə media və ya məlumat lövhələri vasitəsilə seçicilərin xəbərdar edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalanadək<br>M a d d ə 104.1 | 2024-cü il yanvarın 13-dək |

*(ardı 12-ci səhifədə)*

# Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin

## TƏQVİM PLANI

**Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2023-cü il tarixli 4193 nömrəli Sərəncamı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkiləri elan edilmişdir**

*(əvvəli 11-ci səhifədə)*

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 44 | İkinci ilkin maliyyə hesabatının təqdim edilməsi | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Səsvermə gününə ən tezi 20, ən geci 10 gün qalanadək<br>M a d d ə 94.3.2 | 2024-cü il yanvarın 18-dən 28-dək |
| 45 | Seçki bülletenlərinin hazırlanması | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 10 gün qalanadək<br>M a d d ə 99.4 | 2024-cü il yanvarın 28-dək |
| 46 | Səsvermənin keçirilmə tarixi, vaxtı və yeri (ünvanı) barədə bildirişlərin seçicilərə paylanması | Məntəqə seçki komissiyaları | Səsvermə gününə 7 gün qalanadək<br>"Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 3.1-ci bəndi | 2024-cü il yanvarın 31-dək |
| 47 | Seçki bülletenlərinin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına verilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 5 gün qalanadək<br>M a d d ə 99.6 | 2024-cü il fevralın 2-dək |
| 48 | Seçki bülletenlərinin dairə seçki komissiyasından məntəqə seçki komissiyalarına verilməsi | Dairə seçki komissiyaları | Səsvermə gününə azı 3 gün qalanadək<br>M a d d ə 99.6 | 2024-cü il fevralın 4-dək |
| 49 | Səsvermənin keçirilməsi:<br>a) həmin gün seçki məntəqəsində səsverməyə hazırlıq işlərinin başlanması;<br>b) seçki məntəqələrinin açıq elan edilməsi və seçki qutularının kilidlənməsi;<br>c) səsvermənin başlanmasının elan edilməsi;<br>ç) səs vermək üçün seçicilərin seçki məntəqəsinə daxil olmasının başa çatmasının elan edilməsi | Məntəqə seçki komissiyaları<br>*a) məntəqə seçki komissiyaları*<br>b), c), ç) məntəqə seçki komissiyalarının sədrləri | M a d d ə l ə r : 104, 105, 200 | 2024-cü il fevralın 7-si<br>bir qayda olaraq<br>a) saat 7.30<br>b) saat 7.50<br>c) saat 8.00<br>ç) saat 19.00 |
| 50 | Səsvermənin gedişi, seçicilərin səsvermədə iştirakı barədə ilkin məlumatların verilməsi (gün ərzində 5 dəfə) | Məntəqə və dairə seçki komissiyaları, Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə l ə r : 110.5, 110.6 | Seçki günü:<br>saat 10.00;<br>saat 12.00;<br>saat 15.00;<br>saat 17.00;<br>saat 19.00. |
| 51 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının və dairə seçki komissiyasının yekun protokollarındakı məlumatların Mərkəzi Seçki Komissiyasının internet saytında ilkin məlumat kimi yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi | M a d d ə l ə r : 110.5, 110.6 | Seçkilər günü və ondan sonra |
| 52 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolunun 1-ci nüsxəsinin ona əlavə edilən sənədlərlə birlikdə dairə seçki komissiyasına göndərilməsi | Məntəqə seçki komissiyası | Seçicilərin səslərinin hesablanmasına yekun vurulandan sonra dərhal, lakin 24 saatdan gec olmayaraq<br>M a d d ə l ə r : 106.5, 106.7 | |
| 53 | Məntəqə seçki komissiyasının yekun protokolunun 3-cü nüsxəsinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Məntəqə seçki komissiyası | Protokol tərtib edildikdən sonra (5 gün saxlanılmaqla)<br>M a d d ə 106.11 | |
| 54 | Seçki dairəsi üzrə seçkilərin nəticələrinin müəyyən olunması, dairə seçki komissiyası protokolunun tərtib edilməsi və protokolun 1-ci nüsxəsinin ona əlavə edilmiş sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim olunması | Dairə seçki komissiyası | Səsvermə günündən ən geci 2 gün keçənədək<br>M a d d ə l ə r : 107.1 - 107.4, 202.1 | 2024-cü il fevralın 9-dan gec olmayaraq |
| 55 | Dairə seçki komissiyası protokolunun 3-cü nüsxəsinin və müvafiq məntəqə seçki komissiyaları protokollarının surətlərinin məlumat lövhəsində asılaraq nümayiş etdirilməsi | Dairə seçki komissiyası | Protokol tərtib edildikdən sonra (10 gün saxlanılmaqla)<br>M a d d ə 107.7 | |
| 56 | Seçkilərin ilkin nəticələrinin Mərkəzi Seçki Komissiyası tərəfindən seçki dairələri üzrə ümumiləşdirilmiş cədvəl şəklində dərc edilməsi və həmin məlumatların Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin ilkin nəticələri dairə seçki komissiyaları üzrə səsvermənin nəticələrinə dair protokol Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən dərhal sonra<br>M a d d ə 109.1 | |
| 57 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə məntəqə seçki komissiyasının maliyyə hesabatının dairə seçki komissiyasına təqdim edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə günündən sonra 5 gün müddətində<br>M a d d ə 96.6 | 2024-cü il fevralın 13-dək |
| 58 | Dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə dairə seçki komissiyasının maliyyə hesabatının Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi | Dairə seçki komissiyaları | Səsvermə günündən sonra 10 gün müddətində<br>M a d d ə 96.7 | 2024-cü il fevralın 18-dək |
| 59 | Prezident seçkilərinə yekun vurulması və nəticələrin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən başlayaraq 10 gün müddətində<br>M a d d ə 203 | 2024-cü il fevralın 17-dək |
| 60 | Yekun maliyyə hesabatının təqdim edilməsi (seçki fonduna vəsaitlərin daxil olmasını və xərclənməsini təsdiq edən ilkin maliyyə sənədləri də qoşulmaqla) | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiya, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri | Seçkilərin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra<br>M a d d ə 94.3.3 | |
| 61 | Dairə seçki komissiyalarının protokollarında olan məlumatların tam şəkildə dərc edilməsi (həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər) | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən sonra 45 gün müddətində<br>M a d d ə l ə r : 109.2, 208 | 2024-cü il martın 24-dək |
| 62 | Büdcə vəsaitlərinin istifadəsi, namizədlərin, qeydə alınmış namizədlərin seçki fondları vəsaitinin və siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaitinin xərclənməsi barədə məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə və media nümayəndələrinə təqdim edilməsi<br><br>göstərilən maliyyə hesabatının və məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi mətbuat orqanında dərc edilməsi | Mərkəzi Seçki Komissiyası<br><br>Mərkəzi Seçki Komissiyası | Seçkilərin ümumi nəticələrinin rəsmi dərci günündən sonra 3 ay müddətində<br>M a d d ə 96.9.<br><br>Hesabatın və məlumatların Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi gündən başlayaraq 1 ay müddətində<br>M a d d ə 96.9 | |
| 63 | Məntəqə və dairə seçki komissiyalarının protokollarında olan məlumatların Mərkəzi Seçki Komissiyasının rəsmi nəşrində tam şəkildə dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Seçki günündən sonra 6 ay müddətində<br>M a d d ə 109.5 | 2024-cü il avqustun 8-dək |

# Orta Dəhlizin nəbzi Azərbaycanda döyünür

## Yaxın illərdə ölkə ərazisindən daşımalar 13,6 milyon tona çatacaq

**Beynəlxalq arenada etibarlı enerji tərəfdaşı kimi tanınan Azərbaycan artıq bir sıra qlobal nəqliyyat layihələrinin də təşəbbüskarı və əsas iştirakçısına çevrilib. Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsi, Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə qovuşduruan beynəlxalq nəqliyyat dəhlizlərinin buradan keçməsi ölkəmizin regionda əhəmiyyətini getdikcə artırır.**



Son illər ölkə ərazisində müasir yol-nəqliyyat infrastrukturunun yaradılması beynəlxalq yüklərin daha rahat, sürətli və təhlükəsiz daşınması üçün əlverişli imkanlar yaradır. Heç şübhəsiz, bütün bunlar dünya miqyasında birmənalı olaraq bəyənilir, təqdir olunur.

Dünyanın bir sıra nüfuzlu nəşrlərində Azərbaycanın beynəlxalq yükdaşımalara verdiyi töhfələrə nəzər salınır, ölkəmizin nəqliyyat-logistika imkanları geniş təhlil olunur. Bu yaxınlarda beynəlxalq "Ship2shore" saytında yayımlanan "Orta Dəhlizin Avrasiya boyunca istifadə olunmamış bütün potensialı" adlı məqalədə bu baxımdan diqqət çəkir. Məqalədə Azərbaycanın dəmir yolu və terminalların modernləşdirilməsinə böyük sərmayələr yatırdığı vurğulanır. Qeyd edilir ki, yaxın keçmişdə ölkədə mövcud olan iki böyük donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək Xəzər Dəniz Gəmiçiliyi yenidən təşkil olunub. Xəzər Dəniz Gəmiçiliyinin yaradılması ilə ölkənin daxili və beynəlxalq gəmiçiliyi gücləndirilib.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşutunun (Orta Dəhliz) potensialından indiyədək tam istifadə olunmadığını vurğulayan naşr daha sonra qeyd edir ki, beynəlxalq gərginlik zamanı bu istiqamətə diqqət ayrılması Avropa və dəhliz ölkələri, xüsusən də Azərbaycan üçün zəruridir. "Bəzi hesablamalara görə, Orta Dəhliz boyunca dəmir yolu və avtomobil dəhlizlərinin bərpası, modernləşdirilməsi, limanların imkanlarının artırılması üçün ən azı 18,5 milyard avro maliyyənin ayrılması tələb oluna bilər. Azərbaycan Yol Xəritəsi təqdim edib, bununla yaxın 4 ildə tranzit yükdaşımaların hazırkı 10 milyon ton göstəricidən 13 milyon tona çatdırılması hədəflənir, –deyə məqalə müəllifi qeyd edir.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, növbəti 3 il ərzində Azərbaycan ərazisindən daşınan tranzit yükdaşımaların həcminin 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10,7 milyon tondan 13,6 milyon tona çatdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, beynəlxalq yüklərin Uzaq Çindən başlayaraq Avropa ölkələrinə çatdırılması baxımından ən əlverişli marşrut sayılan Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Son illər Orta Dəhlizin ölkəmizin ərazisindən keçən polad magistralların ahəngdar işi bu beynəlxalq marşrutun funksionallığının artırılmasına mühüm töhfələr verir. "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC-nin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında Orta Dəhlizdə ölkəmizin ərazisindən tranzit kecməklə Qərb–Şərq istiqamətində konteyner daşımaları ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə artıb.

Bu arada, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov ölkəmizlə Çin arasında dəmir yolu nəqliyyatı vasitəsilə yük dövriyyəsində kəskin artımın müşahidə olunduğunu bildirib. Bu və digər məsələlər barədə Azərbaycan və Çin dəmir yollarının rəhbərlərinin dekabrın 7-də keçirilən görüşdə zamanı ətraflı danışılıb. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov və "Çin Dəmir Yolları" Dövlət Korporasiya şirkətinin nümayəndə heyətinin rəhbəri Huan Sin arasında keçirilən görüşdə ikitərəfli əməkdaşlığın mümkün perspektivləri, hər iki ölkənin dəmir yolu sahəsində həyata keçirilən yeniliklər müzakirə olunub.

R.Rüstəmov ölkəmizin genişlənməkdə olan nəqliyyat-logistika imkanları, beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakı, dəmir yolu nəqliyyatı ilə yükdaşımaların artırılması istiqamətində atıla biləcək addımlardan bəhs edib. Qeyd olunub ki, bu il Çinlə idxal daşımalarda ötən ilin eyni dövrü ilə müqayisədə 549 faiz, ixrac daşımalarda isə 331 faiz artım qeydə alınıb. Ümumilikdə isə, ötən ilin eyni dövrü ilə müqayisədə iki ölkə arasında dəmir yolu nəqliyyatı ilə yük daşımaları 47 faiz artıb.

Görüş zamanı, həmçinin iki ölkənin dəmir yollarının rəhbərləri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daha sürətlə, təhlükəsiz daşınması, o cümlədən əlavə yüklər cəlb olunması istiqamətində məhsuldar müzakirələr aparıblar. Söhbət zamanı hər iki ölkənin gömrük və sərhəd məntəqələrində qatarların operativ yoxlanılaraq mənzil başına yola salınması, konteyner qatarlarının, eləcə də yüklərin və vaqonların gündəlik təhvil-təslim edilməsi, lokomotivlərin yerdəyişmə prosesi və digər sahələrdə görülən yeniliklərdən danışılıb. Bildirilib ki, Azərbaycanda tranzit-logistika prosesində iştirak edən qurumların məlumat mübadiləsini və işlərinin koordinasiyasını təmin edən işçi qruplarının yaradılması ilə son aylar yaranmış multimodal daşımalar üzrə tələblər qarşılanıb və tranzitin artırılmasına imkan yaradılıb. Həmçinin qeyd olunub ki, Azərbaycan Dəmir Yollarında (ADY) yükdaşımaların fasiləsizliyini və tranzit vaxtının optimallaşdırılmasını təmin etmək üçün marşrut üzrə infrastruktur məhdudiyyətlərinin aradan qaldırılması, sənəd dövriyyəsinin elektronlaşdırılması, yük sahibləri üçün ADY Smart proqramının tətbiqi, əməliyyatların bütün marşrut üzrə sinxronlaşdırılması, hərəkət heyətinin marşrut üzrə səmərəli bölüşdürülməsi məsədilə tərəfdaş ölkələrlə birgə tədbirlər planı hazırlanaraq həyata keçirilir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Vergi ödəyicilərinin sayı 1,5 milyonu ötüb

**2023-cü il dekabr ayının 1-nə ölkə üzrə uçotda olan 1 milyon 507 min 494 vergi ödəyicisinin 87,3 faizi fiziki şəxslər, 12,7 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 7,7 faiz, o cümlədən fiziki şəxslərin sayı 7,5 faiz, hüquqi şəxslərin sayı isə 9 faiz artıb.**



Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib. Məlumata görə, dövlət qeydiyyatından keçmiş kommersiya qurumlarının sayı 175 min 64 olub. Ötən ilin müvafiq dövrünə nisbətən kommersiya qurumlarının sayında 9,7 faiz, aktiv kommersiya qurumlarının sayında isə 13 faiz artım qeydə alınıb.

Dekabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 90,6 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,3 faizi səhmdar cəmiyyəti, 1,1 faizi kooperativ və s. formalarda yaradılıb. Bu dövrdə dövlət qeydiyyatında olan kommersiya qurumlarının tərkibində aktiv ƏDV ödəyicilərinin sayı 34 min 554 vahid təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,9 faiz artım deməkdir.

Qeydiyyatdan keçmiş kommersiya qurumlarının 87,8 faizi yerli, 12,2 faizi isə xarici investisiyalıdır. Ötən ilin müvafiq dövrünə nisbətən yerli investisiyalı kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı 15 faiz artıb.

Cari ilin 11 ayında 2002 yerli investisiyalı MMC yeni qeydiyyat üsulu ilə (fin kod+mobil nömrə) qeydiyyata alınıb. Bununla yanaşı, bu ilin dekabr ayının 1-nə 22 min 368 xarici investisiyalı kommersiya qurumu dövlət qeydiyyatından keçib. Aktiv xarici investisiyalı kommersiya qurumlarının sayı 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz artıb.

*XQ*

## 11 ayda neft və qaz satışından 7,7 milyard dollar qazanc əldə olunub

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) bu ilin yanvar-noyabr aylarında "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan və "Şahdəniz" qaz-kondensat yatağından əldə etdiyi gəlirləri açıqlayıb.**



ARDNF-nın yaydığı məlumata əsasən, hesabat dövründə AÇG yataqlar blokundan 6 milyard 353 milyon 80 min dollar gəlir əldə edilib. İlin 11 ayında fondun "Şahdəniz" yatağı üzrə qazancı 1 milyard 308 milyon dollar təşkil edib ki, bunun da 324 milyon 396 min dolları kondensat satışından əldə olunub.

## Gələn il "Abşeron" yatağında hasilat 2 dəfə artacaq

**2024-cü ildə "Abşeron" qaz-kondensat yatağından, təqribən, 1 milyard 474 milyon kubmetr qaz hasil olunacağı gözlənilir. Bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 2 dəfə çoxdur.**



Bu barədə Hesablama Palatasının Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü ilin büdcəsinə verdiyi rəydə məlumat verilir. Sənədə əsasən, 2023-cü ildə yataqda 707 milyon 55 min kubmetr qazın hasil olunacağı gözlənilir. Bundan başqa, gələn il "Abşeron"da 4 milyon bareldən çox kondensatın hasil olunacağı proqnozlaşdırılır ki, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 2 dəfə çoxdur. Rəyə əsasən, bu il yataqda 2 milyon barel kondensatın hasil olunacağı gözlənilir.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağı JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) tərəfindən idarə olunur. Yataqdan ilk qaz cari ilin iyul ayının əvvəlində hasil edilib. Gələcəkdə "Abşeron" yatağında illik hasilatın 1,5 milyard kubmetrdən 6 milyard kubmetrədək artırılması planlaşdırılır.

*XQ*

# "Gəlin, baxın – öz məhsullarımızdır"

## İstehsalat və istehsal texnologiyaları sərgisində 100-ə yaxın müəssisə iştirak edir

**Xəbər verildiyi kimi, dekabrın 7-də Bakı İdman Sarayında I Yerli İstehsalat və İstehsal Texnologiyaları sərgisi öz işinə başlayıb. İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən sərgidə Bakı şəhərində və ölkənin regionlarında fəaliyyət göstərən 100-ə yaxın müəssisənin istehsal etdiyi qida, qeyri-qida, mebel, inşaat materialları, proqram təminatı, tekstil məhsulları, eləcə də müasir istehsal avadanlıqları və texnologiyaları nümayiş olunur.**




Sərginin məqsədi yerli məhsulların geniş istehlakçı auditoriyasına tanıdılması, alıcıların yerli brendlərin istehsal texnologiyaları barədə məlumatlandırılması, alıcılar və satıcılar arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi, eləcə də yerli məhsulların ixracı sahəsində əməkdaşlığın genişləndirilməsidir. Yerli istehsal müəssisələri üçün, bir növ, hesabat xarakteri daşıyan sərgidə iştirak edən bir sıra dövlət və hökumət nümayəndələri müxtəlif məhsullarla tanış olub, ölkənin sosial-iqtisadi mənzərəsi ilə bağlı mülahizələrini söyləyiblər.

Son illərdə Azərbaycanda sosial-iqtisadi sahədə, xüsusilə insan kapitalının inkişafı, innovativ cəmiyyətin formalaşdırılması istiqamətində ciddi tədbirlər görüldüyünü diqqətə çatdıran iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev bildirib ki, iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində 2023-cü ilin yanvar–oktyabr ayları ərzində ölkəmizdə qeyri-neft sektoru üzrə ixrac əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz artaraq 2,7 milyard dolları təşkil edib.

Qeyd olunub ki, cari ilin yanvar–oktyabr aylarında iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər 3,1 faiz artıb. ÜDM istehsalının 41,3 faizi sənaye, 9,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, 5 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və digər sahələrin payına düşüb. Nazir müavini deyib ki, bu ilin üçüncü rübünün yekunlarına əsasən, sənaye zonalarının ölkə qeyri-neft sektorunda xüsusi çəkisi 17,9 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 22,9 faiz olub. Yanvar–sentyabr aylarında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən məhsul istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz artaraq 2,3 milyard manata çatıb və bunun 31,2 faizi ixrac edilib. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 60-dan çox ölkəsinə satılıb.

İqtisadiyyat nazirinin müavini onu da qeyd edib ki, sahibkarlığın inkişafı iqtisadiyyatın böyüməsi, işgüzar aktivlik, biznesin çevikliyi deməkdir. Sahibkarlıq üçün yaradılmış mühitin sabit, şəffaf və hüquqların təmin olunduğu komponentləri özündə birləşdirdiyini vurğulayan R. Abdullayevin sözlərinə görə, bu alətləri düzgün istiqamətləndirmək, iqtisadi inkişafa nail olmaq və yeni hədəflərə çatmaq üçün əlverişli biznes mühiti yaratmaq hökumətin prioritetləri sırasındadır. O deyib ki, qarşıdakı illərdə beynəlxalq miqyasda qlobal rəqabətin güclənməsi, ölkəmizin dinamik inkişafının davam etdirilməsi mövcud təbii-iqtisadi resurslara söykənən və yüksək əlavə dəyər yaradan sənaye sahələrinin inkişafının daha da sürətləndirilməsini zəruri edir. Nazir müavini fikrinin davamı olaraq qeyd edib ki, burada əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə, neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Rövnəq Abdullayev sahibkarların istehsal etdikləri məhsul və xidmətlərin təqdim edilməsi üçün belə sərgilərin təşkilinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun sədr müavini Eldar Həmidov isə bildirib ki, bu ilin 11 ayında fond tərəfindən özəl sektor nümayəndələrinə 147 milyon manatdan çox güzəştli kredit verilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 28 milyon manat çoxdur. Onun dediyinə görə, həmin vəsait hesabına 2840 layihə maliyyələşdirilib. Ötən il isə güzəştli kreditlər hesabına 2343 layihə maliyyələşdirilib. Bu zaman regionlarda fəaliyyət göstərən sahibkarlara daha çox üstünlük verildiyini diqqətə çatdıran E.Həmidovun dediyinə görə, bu ilin ötən dövründə verilən kreditlərin 71 faizi məhz onların payına düşüb.

Sahibkarlığın İnkişafı Fondunun əsas missiyalarından birinin dövlət və özəl sektor arasında əməkdaşlığı gücləndirməkdən ibarət olduğunu vurğulayan sədr müavini deyib ki, fondun fəaliyyət göstərdiyi ötən 30 il ölkə üzrə 45 min 600-dən artıq layihəyə 3 milyard manata yaxın güzəştli kredit ayrılıb ki, bunun da hesabına 182 min iş yerinin açılması təmin edilib.

E.Həmidov, həmçinin deyib ki, işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın dəstəklənməsi üçün sahibkarların təşəbbüslərinə ehtiyac var. Onun sözlərinə görə, hazırda geniş bərpa və quruculuq işlərinin aparıldığı həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək mexanizmi Sahibkarlığın İnkişafı Fondu tərəfindən icra ediləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli isə qeyd edib ki, istənilən mal və xidmətin təqdim edilməsi əsas iki mərhələdən keçir, bunun biri istehsaldırsa, digəri məhsulun satışıdır. "Çox sevindirici haldır ki, son zamanlar bizim istehsalçılarımız ikinci mərhələyə kifayət qədər böyük əhəmiyyət verirlər. Satışların artırılması biznesin dayanıqlı olmasında olduqca önəmli bir məsələdir" – deyə o əlavə edib.

Hazırda Azərbaycanda sahibkarlara dəstək mexanizminin yetərincə olduğunu deyən agentlik sədrinin sözlərinə görə, güzəştli kreditlər, startap şəhadətnamələrin verilməsi və digər istiqamətlər ölkəmizdə özəl sektorun inkişafına töhfəsini verir. Bu istiqamətlər içində istehsal xüsusi önəm kəsb edir. Çünki istehsal iqtisadiyyatın dayanıqlığı deməkdir. İstehsal xarici valyutanın Azərbaycana daxil olması deməkdir. Bununla yanaşı, istehsal məşğulluq deməkdir.

Qeyd edək ki, 1-ci Yerli İstehsalat və İstehsal Texnologiyaları Sərgisi bu gün öz işini başa çatdıracaq.

*Vaqif BAYRAMOV*
*XQ*

**Anar – 85**

# Çağdaş ədəbiyyatımızın lideri



**Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə AYB-nin sədri, Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş “Mütaliə mədəniyyəti və oxucu məmnunluğu” mövzusunda respublika elmi konfransı keçirilib.**

Prorektor Əliş Ağamirzəyev Anarın yaradıcılığı və ictimai fəaliyyətindən bəhs edərək, Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin yazıçının ədəbi-bədii irsinə yüksək dəyər verdiklərini, onun dövlətimizin ali mükafatları ilə təltif olunduğunu xatırladıb. O qeyd edib ki, bu konfransın BDU-da keçirilməsi təsadüfi deyil, çünki Anar müəllim də, övladları da bu universitetin məzunlarıdırlar. Anar yaradıcılığı ilə ölkəmizdə mütaliə mədəniyyətinin, oxucu zövqünün formalaşmasına, eləcə də kitabxana fondlarımızın inkişafına mühüm töhfələr verib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Xalq yazıçısının yaradıcılığı, nəsrindəki çoxşaxəli istiqamətlər, əsərlərinin obrazlar sistemi barədə geniş məlumat verib: “Anarın yaradıcılığı möhtəşəm azərbaycançılıq abidəsidir. Onun keçmiş mətnlərə yeni nəfəs vermək məharətini yüksək qiymətləndirirəm. Anar müəllim əvvəlki əsərlərinin motivlərinə bir daha qayıtmaqla həmin əsərləri daha da dərinləşdirir”.

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, BDU-nun Türk filologiyası kafedrasının professoru, millət vəkili Jalə Əliyeva, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, AYB-nin katibi İlqar Fəhmi çıxışlarında Anar yaradıcılığının çoxtərəfli istiqamətləri və məziyyətləri barədə danışıblar.

Plenar iclasda BDU-nun redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan “Anar yaradıcılığı və oxu mədəniyyəti” mövzusunda məruzə edib. İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı çıxışında qeyd edib ki, 2 gün davam edəcək konfransda ümumilikdə 40-dan çox məruzə dinləniləcək, müzakirələr aparılacaq.

Sonda Xalq yazıçısı Anar konfransın təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib: “Məzunu olduğum doğma Bakı Dövlət Universitetində yubileyimə həsr olunmuş yüksək səviyyəli elmi konfransın keçirilməsi mənim üçün çox əlamətdardır. Hesab edirəm ki, universitetin kollektivi və tələbələri ilə görüşlərimiz bundan sonra da davam edəcək”.

***XQ***

# Möhtəşəm 100 ilin səhnə təcəssümü

**Lənkəran Dövlət Dram Teatrında “Heydər Əliyev İli”nə töhfə olaraq şair-dramaturq Qəşəm Nəcəfzadənin “İki iyirmi üç arasında” əsəri əsasında hazırlanmış eyniadlı kompozisiya sənədli teatr estetikasında təqdim olunub.**



Uğurla keçən tamaşada Ulu öndərin nəsillərə örnək həyat və fəaliyyəti, irsi bədii əksini tapıb. Məqsəd Ümummilli liderin müstəqil Azərbaycanın qurucusu kimi xalqımızın tarixində oynadığı rolu bir daha nümayiş etdirmək olan tamaşanın quruluşçu rejissoru Emil Əskərov, rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı Vüqar Fərəcov, qrafik dizayneri Fidan Hüseynzadə, videomühəndisi Şəhriyar Camalbəyli, prodüseri İntiqam Hacılıdır.

Səhnə əsərində rolları Xalq artisti Qabil Quliyev, Əməkdar artistlər Sucəddin Mirzəyev və Zemfira Nəcəfova, aktyorlardan Şarud Mehdiyeva, Miraslan Ağayev, Qızılgül Quliyeva, Allahverən Babayev, Buludxan Buludov, Aynur Əhmədova, Hikmət Cəfərov, Saleh Əzimzadə, Ayşən Əsədova, Emil Rzayev, Məleykə Cəfərova, Gülər Kərimova, Əlirza Şahbazi, Rauf Zeynalov, Təvəkkül Həsənov, Günel Abbaszadə, Aysel Babazadə və Amil İbrahimli ifa ediblər.

Tamaşa yaxın günlərdə Lerikdə, Biləsuvarda, İmişlidə və digər şəhərlərdə nümayiş etdiriləcək.

***Ə.DOSTƏLİ***
***XQ***

**Bölgələrdə ədəbi həyat**





# Sözün Çıraqqala əzəməti

**Şabran rayonunda Xaqaninin abidəsinin və Xaqani Poeziya Evinin olması ədəbi irsə qayğıkeş münasibətin təzahürüdür. Azərbaycanda poema janrının ilk müəllifi olan böyük şairin mənəvi varisləri bu gün rayonda ədəbi ənənələri layiqincə davam və inkişaf etdirirlər.**

Mütəfəkkir ədibin abidəsinin və onun adını daşıyan Poeziya Evinin fəaliyyəti fonunda söz sənətinin aşiqləri tez-tez bir araya gəlir, maraqlı görüşlər, təqdimatlar keçirirlər. 11 il əvvəl rayona rəhbərlik edən, həm də tanınmış qələm adamı olan Novruz Novruzov (Nəcəfoğlu) ədəbi mühitin daha da canlandırılması, bədii sözün təbliğinin gücləndirilməsi məqsədilə hər il burada “Xaqani poeziya günləri”nin keçirilməsi təşəbbüsünü irəli sürüb. Eyni zamanda, qədim Şabran şəhərinin adı özünə qaytarılıb. Araşdırmalar göstərir ki, İpək Yolunun üstündə yerləşmiş və Gilgilçay səddi ilə qorunmuş Şabranın tarixi 2500, hətta 3000 ili ötüb keçir.

Bu diyarı ulu şairimizlə bağlayan tellər burada ədəbi ənənələrin yaranmasına vəsilə olub. Bədxah saray şairlərinin haqsız hücumlarına məruz qalan Xaqani Şirvani 1156-cı ildə Məkkəyə ziyarət bəhanəsi ilə Şirvanı tərk etmək məcburiyyətində qalıb. Lakin gizlicə Şirvandan çıxmaq istəyərkən 1-ci Axsitanın əmri ilə həbs olunub və Şabran qalasına salınıb. Zindanda 7 ay saxlanılan şair məşhur “Həbsiyyə”şeirlərini də məhz burada qələmə alıb:

***Oxşayır kündə ayağımda***
***dəyirman daşına,***
***Qanlı göz yaşımla işlər***
***bu dəyirmanım mənim...***

Keçən illər ərzində Xaqani Poeziya Evi bir-birindən gözəl, bir-birindən maraqlı tədbirlərə evsahibliyi edib. 2016-cı ildə Şabranda Azərbaycan Yazıçılar Birliyinin bölməsi də yaradılıb. Üç rayonu – Xızı, Siyəzən və Şabranı əhatə edən bölməyə tanınmış yazıçı-publisist Aydın Tağıyev rəhbərlik edir. Xaqani Poeziya Evində keçirilən görüşlər, aparılan müzakirələr regionda ciddi bir ədəbiyyat ab-havasının yaranmasına səbəb olub. Xaqani Poeziya Evi 2018-ci ildə “İlin klubu” adına layiq görülüb.

Hazırda Şabranın qələm sahibləri böyük enerji ilə yazıb-yaradır, ədəbiyyatımızı zənginləşdirən maraqlı bədii əsərlər meydana qoymağa səy göstərirlər. Buna nümunə kimi şair Ay Bəniz Əliyarın Vətən müharibəsinə həsr etdiyi “Xarıbülbül” adlı pyesini və “Zəfər yazanlar” adlı poemasını nümunə gətirmək olar. Pyes Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkil etdiyi “Zəfər yazanlar” ədəbi müsabiqəsində dram janrı üzrə 1-ci yerə layiq görülüb və kitab halında nəşr olunub.

***Tarix o vaxt var ki, salırsan yada,***
***O da unutmayır, səni yaşadır.***
***Şəhid oğulların məzarları da***
***Bu ana torpağın qan yaddaşıdır.***

Xaqani Poeziya Evində AMEA-nın Xaqani irsinə həsr etdiyi möhtəşəm konfransla yanaşı bir neçə il ard-arda təşkil olunan Beynəlxalq Şairlər günü də həyata keçirilib. AMEA-nın prezidenti, filologiya elmləri doktoru İsa Həbibbəyli yazır: “Regionlarsız yalnız paytaxt ədəbi mühiti qurumaq təhlükəsi qarşısında qalan dəniz kimi olar. Şabran ədəbi mühiti də paytaxtətrafı mühit sırasından olan şeir-sənət mərkəzlərindən biridir. Şabranda yaranan ədəbiyyatla paytaxtda inkişaf edən ədəbiyyat arasında xüsusi bir janr, üslub fərqi yoxdur. Belə hallarda həmin regionda ciddi bir ədəbi mühit formalaşdırmaq çətinliklə baş verir. Lakin artıq neçə illərdir ki, Şabranda Xaqani şeir-sənət ocağı ardıcıl olaraq fəaliyyət göstərməklə davam edir. Azərbaycan Yazıçılar Birliyi Şabran Bölməsinin sədri Aydın Tağıyev ölkə miqyasında yeni hekayəçiliyin tanınmış yaradıcılarından biri kimi qəbul olunur. Tənqidçi Vaqif Yusifli onun hekayələrini “kiçik janrın milli kolorit naxışları” olan qiymətli örnəkləri kimi dəyərləndirir. Novruz Nəcəfoğlu Aydın Tağıyev haqqında “Nağıl adam” adlı bioqrafik roman yazıb çap etdirmişdir. Ay Bəniz Əliyarın harada yaşadığını bilməsək, şeirlərindəki zəngin obrazlar aləminə, düşüncəsində müasirliyə görə onu paytaxtın ən qaynar ədəbi mühitini təmsil edən şairlərdən biri hesab edə bilərik. Fikrimcə, o, müasir Azərbaycan şeirinin istedadlı nümayəndələrindən biridir və böyük ədəbiyyatın yaranması yollarında məsuliyyətlə xidmət edir.”

Yeri gəlmişkən, Şabrana hər səfərimizdə Xaqani Poeziya Evinə gedir və qələm dostlarımızla görüşüb onların ədəbi söhbətlərini dinləyirik. Eşitdiyimiz fikirlər ədəbiyyata, sözə ciddi münasibətdən, tükənməz sevgidən soraq verir. Aydın Tağıyevin “İmtina”, “Əkizlərin nağılı”, “Xal” adlı son hekayələri “Ədəbi ovqat” dərgisində dərc edilib və maraqla qarşılanıb. Xalq yazıçısı Elçindən tutmuş Vaqif Yusifli, Paşa Qəlbinur, Rahid Ulusel kimi söz sərrafları da onun, həmçinin Ay Bəniz Əliyarın və digərlərinin yaradıcılığı haqqında ürək dolusu xoş sözlərini deyiblər. Qafar Süleyman, Nəcməddin Mürvətov, Sevinc Məmmədova, Bayram Novruz, Məzahir Zeynal, Zakir Bayramlı, Gülnar Zakirqızı, Günəş Hüseyn, Gülarə Şabranlı, Güləli Bağban, Müşfiq Qərib, Mehrəli Qulu, Əşrəf Dağlı, Qızqayıt Mahmudova, Nərminə Yunis, Əziz Girami, Tural Coşqun, Rəşad Məmmədov, Aynur Nurlu maraqlı şeirlər yazırlar. Vüsalə Anarın hekayələri ümidvericidir.

Tanınmış yazıçı-publisist Novruz Nəcəfoğlu yazır: “Qədim Şabran torpağına qədəm, ayaq basanları, bu qədim yurd yerində ilk əvvəl uca zirvələrdən boylanan əsrlərin daş yaddaşı əzəmətli Çıraqqala salamlayır. İllər keçəcək, Şabranı bu yerlərin daş yaddaşı ilə yanaşı, həm də bir söz yaddaşı da yaşadacaq”.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Dilçi alimlərimizin Daşkənd görüşləri

**Azərbaycan Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin nümayəndələri Özbəkistanda səfərdədir. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəvəti ilə qardaş ölkəyə gələn qonaqlar əvvəl Ümummilli lider Heydər Əliyevin AMM-nin qarşısındakı abidəsi və Şəhidlər abidə kompleksinə gül dəstələri qoyublar.**



Mərkəzdəki görüş zamanı AMM-nin direktoru Samir Abbasov burada görülən işlər haqqında ətraflı məlumat verib. Azərbaycanın mədəniyyəti, tarixi, ədəbiyyatının təbliği ilə bağlı çoxsaylı sərgi, konsert və konfransların təşkil olunduğu, 100-dən artıq nəşrin özbək dilinə tərcümə edildiyi vurğulanıb. Azərbaycan dilinin Özbəkistanda təbliği və tədrisinin AMM-nin əsas prioritetlərindən olduğu qeyd edilib. Bu məqsədlə Mədəniyyət Mərkəzində dil kurslarının yaradıldığı, lüğət, danışıq kitabçaları, dərs vəsaitlərinin nəşr edildiyi bildirilib, elektron platformada tədris və digər layihələrdən söz açılıb.

Azərbaycan Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva rəhbərlik etdiyi təşkilatın fəaliyyəti ilə bağlı geniş məlumat verib. O, Azərbaycan dilinin populyarlaşdırılması, tədrisi və dil normalarının qorunması sahəsində Mədəniyyət Mərkəzi ilə əməkdaşlıq etməyə hazır olduqlarını vurğulayıb.

Sonra qonaqlar Azərbaycan Mədəniyyət Mərkəzində yaradılmış Heydər Əliyev Muzeyi, Azərbaycan mədəniyyəti və Dövlətçilik Tarixi Muzeyi, Azərbaycan–Özbəkistan Dostluq Muzeyi, Azərbaycan xalçaları muzeyi ilə tanış olublar.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**

**Kitab rəfi**














## “Ayrılmaz yollar”

***Azərbaycan Yazıçılar Birliyinin Qazax filialının sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsalın yeni kitabı belə adlanır.***

Müəllif yeni toplusuna müxtəlif ədəbi nəsillərə aid yazdığı məqalələrini, məktublarını və xatirələrini toplayıb. Barat Vüsalın qənaətinə görə, kitabda haqqında söhbət açılanlar eyni bir yolun ayrılmaz yolçuları, bir ocağın övladlarıdırlar. Yazılarda “ömrü söz uğrunda girov qoyan” qələm sahiblərindən böyük məhəbbətlə söhbət açılır, hər birinin yaradıcılıq məziyyətləri məharətlə çözələnir.

## “Ay Laçın, can Laçın”

***Tanınmış iş adamı, şair Xuraman Muradova Ankara şəhərində Anadolu türkəcində çap olunmuş kitabına ad olaraq məşhur mahnının sözlərini seçib: “Ay Laçın, can Laçın”.***

Toplu “Gülnar yayınları” nəşriyyatında ərsəyə gəlib. Əksər şeirlərdə müəllifin vətənpərvərlik duyğuları öz əksini tapıb. Şair 28 illik işığaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur, o cümlədən Laçın rayonu ilə bağlı poetik fikirlərini ipə-sapa düzüb. Xatırladaq ki, bu, şairin 2-ci kitabıdır. Əvvəlki toplu “Sənə məktub yazacam...” adlanır.

## “Teatr, zaman və məkan”

***Teatrşünas-tənqidçi Anar Ərtoğrul Burcəliyevin sənət haqqında növbəti monoqrafiyası Gəncə Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist, “Qızıl Dərviş” mükafatı laureatı Ramiz Vəliyevin sənət yolundan bəhs edir.***

Ömrünün 50 ilini səhnə fəaliyyətinə həsr edən aktyorun yaratmış olduğu obrazlar qalereyası, onun fərdi sənətçi keyfiyyətləri sərf-nəzər olunmaqla bərabər, teatr haqqında maraqlı fikirlərinə də monoqrafiyada geniş yer verilib. “STAR Çap Evi”ndə nəşr olunan kitabın elmi redaktoru fəlsəfə doktoru İmran Axundov, redaktorları isə Sailə Məhərrəmqızı və Fuad Cavadzadədir.

## Bir kitab – iki poema

***Şair-publisist Əlirza Xələflinin yenicə çapdan çıxmış “Yaddaş yanğısı” kitabına işğal dağıntılarına məruz qalmış yurd yerlərinin ürək göynədən acı mənzərələrini əks etdirən iki əsəri – “Yaddaş yanğısı” və “Bir Xələfli var imiş” poemaları daxil edilib.***

Tarixi məzmun daşıyan bu əsərlər məkan və zaman əlaqələri ilə biri digərini tamamlayır. Kitabın redaktoru filologiya elmləri üzrə fəlsəfə doktoru, yazıçı-publisist Tariyel Abbaslının nəşrə yazdığı “Sözün yanğı yolu” adlı “Ön söz”də Əli Rza Xələflinin usta yazı manerasına diqqət cəlb edilir və yurd yeri düşüncələri ilə yazılmış əsəri müəllif haqlı olaraq poema-esse adlandırıb.

***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Danimarkada “Qurani-Kərim”in yandırılması qadağan edildi

**Müsəlman ölkələrdə İslamın müqəddəs kitabının təhqir olunması ilə bağlı etirazların Danimarkanın təhlükəsizliyinə hədə ola biləcəyinin narahatlıqlara səbəb olmasından sonra Danimarka parlamenti cümə axşamı ictimai yerlərdə “Qurani- Kərim” nüsxələrinin yandırılmasını qadağan edən qanun layihəsini qəbul edib.**



Qeyd edək ki, Danimarka və İsveçdə bu il bəzi İslam əleyhdarının “Qurani- Kərim”in nüsxələrini yandırdmaları və ya başqa bir şəkildə zədələmələri etirazlarla qarşılanıb və müsəlmanlarla gərginliyə səbəb olub. Mütərəqqi bəşəriyyət Skandinaviya hökumətlərindən bu praktikanı qadağan etməyi tələb edib.

Bir çox siyasi təhlilçilər qeyd edirlər ki, Danimarka parlamenti “Qurani-Kərim”in yandırılmasının İslamçıların hücumlarına səbəb olacağı qorxusu fonunda konstitusiya ilə qorunan söz azadlığı, o cümlədən dini tənqid etmək qanunları ilə milli təhlükəsizlik arasında balans yaratmağa çalışıb.

İsveç və Danimarkadakı yerli tənqidçilər iddia edirlər ki, müsəlmanların müqəddəs kitabının yandırılması da daxil olmaqla, dini tənqidlə bağlı hər hansı məhdudiyyətlər guya regiondakı liberal azadlıqları sarsıdır. Lakin Danimarkanın mərkəzçi koalisiya hökuməti yeni qaydaların söz azadlığı ilə bir o qədər də təsiri olmayacağını və dini başqa yollarla tənqid etməyin qanuni olaraq qaldığını iddia edib. Hökumət yeni qanunu pozmağın cərimə və ya iki ilə qədər həbslə cəzalandırılacağını bildirib.

İsveç də “Qurani-Kərim”in təhqirlərini qanuni olaraq məhdudlaşdırmağın yollarını nəzərdən keçirir. Lakin burada Danimarkadan fərqli bir yanaşma tətbiq edilir. İsveç hökuməti ictimai etirazlar üçün müraciətlərlə bağlı qərar qəbul edərkən, polisdən aksiyanın milli təhlükəsizliyə təsir edib-etməyəcəyini araşdırmağı tələb edir.

***M.HACIXANLI***
***XQ***

Təqdimat

# Türklük məfkurəsinin poetik tərcümanı – Məhmət Akif Ərsoy



**Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ünlü türk şairi, türklük məfkurəsinin poetik tərcümanı Məhmət Akif Ərsoyun şeir kitabının təqdimat mərasimi keçirilib.**

Mərasimdə TÜRKSOY-un Baş katibi Sultan Raev, mədəniyyət nazirinin müavini Fərid Cəfərov, Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar Rzayev, ölkənin bir sıra mədəni-ictimai xadimləri, media mənsubları iştirak edib.

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açıb.

Sonra TÜRKSOY-un Baş katibi Sultan Raev Məhmət Akif Ərsoyun yaradıcı dünyası haqqında düşüncələrini bölüşüb.

Xalq yazıçısı Anar TÜRKSOY vasitəsilə türk dünyasının daha da yaxınlaşdığını bildirib: "Məhmət Akif nadir şairlərdəndir ki, onun mətni oxunanda hamı ayağa qalxır. Söhbət Türkiyə himnindən gedir".

Qeyd edək ki, şeirləri Türkiyə türkcəsindən Azərbaycan dilinə uyğunlaşdıran şair Elşən Mehdi, redaktoru isə şair Səlim Babullaoğludur.

**XQ**

# Zelenskinin “Böyük yeddilər”in liderləri ilə virtual görüşü

**Ukrayna Prezidenti Volodimir Zelenski dünən virtual olaraq “Böyük yeddilər”in (G7) liderləri ilə görüşüb və onlara Moskvanın gələn il Qərb birliyinin “dağılacağına” ümid etdiyini deyib. Məlumatı “Amerikanın səsi” radiosu yayıb.**



Xəbərdə qeyd olunur ki, Kiyevin müttəfiqləri ABŞ Prezidenti Co Bayden və Britaniyanın Baş naziri Rişi Sunak da olmaqla, iclas iştirakçıları Ukraynanı dəstəkləməyə sadiq olduqlarını bildirib. Bu açıqlamalar Ukrayna Ordusunun döyüş meydanında az irəliləyiş əldə etdiyi üçün Qərbin bu ölkəyə dəstəyinin zəifləyəcəyi ilə bağlı narahatlıqlar fonunda verilib.

“Böyük yeddilər” liderlərinin görüşün yekunlarına dair bəyanatda “Biz müstəqil, demokratik Ukraynanı beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dəstəkləməyə sadiqik” deyilib.

Xatırladaq ki, “Böyük yeddilər”in liderləri Moskvanın gəlirlərini azaltmaq üçün Rusiyaya qarşı görüləcək tədbirləri açıqlayıb. Belə ki, yanvar ayından etibarən Rusiyadan qeyri-sənaye almazlarının, mart ayından isə Rusiyanın digər ölkələrdə emal olunmuş almazlarının idxalına qadağa qoyulması planlaşdırılır.

Yeri gəlmişkən, “Böyük yeddilər” Rusiya neftinə qiymət həddi də daxil olmaqla, əlavə tədbirlər elan edib və üçüncü dünya ölkələrini Rusiyaya hərbi materialların tədarükünü dərhal dayandırmağa çağırıb.

Liderlər həmçinin qış yaxınlaşdıqca Ukraynaya humanitar dəstəyi artıracaqlarını vəd edərək, Rusiyanı hücumu dayandırmağa və artıq vurduğu ziyanın kompensasiyasını ödəməyə çağırıblar.

***XQ***

Heydər Əliyev – 100

# Mingəçevirlilərin yubileyə “yaşıl” töhfəsi

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Mingəçevir şəhərində həyata keçirilən silsilə tədbirlər sırasında ağacəkmə kampaniyası da yer alır.**



Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərin müxtəlif ərazilərində bu kampaniya uğurla davam edir. Növbəti ağacəkmə kampaniyası Heydər Əliyev prospekti ərazisindəki Heydər Əliyev Xiyabanında həyata keçirilmişdir. Mingəçevir ŞİH aparatının məsul əməkdaşları, 8 saylı Ərazi Ekologiya və Təbii Sərvətlər İdarəsinin nümayəndələri, yaşıllaşdırma və sanitar təmizlik idarəsinin kollektivi, şəhər fəalları, mətbuat işçiləri ağacəkmə kampaniyasında yaxından iştirak ediblər. Gün ərzində ərazidə 118 ədəd sərv ağacı əkilib. Qeyd etmək yerinə düşər ki, ərazidə olan fiziki cəhətdən ömrünü başa vurmuş ağacların bir çoxu kəsilmiş, budanmış, ərazi başdan-başa səliqəyə salınmışdır. Yaşıllaşdırma və sanitar təmizlik idarəsi kollektivinin səyi nəticəsində əraziyə su xətləri çəkilmiş, ağacların vaxtlı-vaxtında suvarılması üçün tədbirlər görülmüşdür.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov tədbirdə iştirak edənlər qarşısında çıxış edərək Ulu öndərin anadan olmasının 100 illiyi münasibəti ilə cari ilin əvvəlindən bəri keçirilən aksiyalarda şəhərin bütün idarə, müəssisə və təşkilat kollektivlərinin fəallıqla iştirak etdiyini təqdirəlayiq hal kimi dəyərləndirib və bu işin ardıcıl olaraq davam etdiriləcəyini bildirib. İlin əvvəlindən bu günədək şəhərin ayrı-ayrı yaşıllıq zolaqlarında 10 mindən çox müxtəlif növ ağac tinglərinin və eyni zamanda, dekorativ güllərin əkildiyini diqqətə çatdırıb. Şəhər rəhbəri vurğulayıb ki, bütün bunlar Ulu öndərə olan hörmət və ehtiramın əlamətidir. Ölkəmizin inkişafı və tərəqqisi, həmçinin nur şəhərinin gözəlləşməsi, bugünkü yüksəlişi Ulu öndərin layiqli davamçısı, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi, tapşırıq və tövsiyələri ilə reallaşır.

Bu yaxınlarda 75 illiyini qeyd etdiyimiz şəhərimizin gözəlləşməsi şəhər sakinlərinin ürəyincədir. Qeyd etmək yerinə düşər ki, hazırda şəhərin bütün ərazilərində abadlıq-quruculuq işləri geniş vüsət alaraq həyata keçirilir, məhəllələrdə, küçələrdə, park və istirahət məskənlərində quruculuq işləri durmadan davam etdirilir. İşıqlanma sistemi yenilənir, kanalizasiya sisteminin çəkilişindəki işlərin böyük hissəsi başa çatıb. Bir sözlə, Mingəçevir yeniləşir və gözəlləşir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**Mingəçevir**

# Qəbələdə şahmat superturnirinin açılışı

## *Nicat Abasov liderliyə yüksəlib*



**Dünən sayca 9-cu dəfə təşkil olunan şahmat üzrə “Vüqar Həşimov Memorial-2023” superturnirinin açılış mərasimi təşkil edilib.**



Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzində keçirilən tədbirdə rəsmi qonaqlar, mərhum qrossmeysterin yaxınları və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimdə ötənilki turnirin ən yaddaqalan anlarını özündə əks etdirən videoçarx nümayiş etdirilib.

Açılış mərasimində çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev turnirin ilk dəfə Qəbələdə təşkil olunmasından məmnunluğunu bildirib, təşkilatçılara təşəkkür edib. Belə bir nüfuzlu yarışa evsahibliyi etdiklərindən qürur duyduqlarını deyən icra başçısı onu da qeyd edib ki, Qəbələdə belə bir yarışın keçirilməsi mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FIDE) vitse-prezidenti Mahir Məmmədov yarışın Qəbələdə keçirilməsini sevindirici hadisə adlandırıb. O qeyd edib ki, Vüqar Həşimovun Azərbaycan şahmatında, qazanılan uğurlarda böyük rolu var. “Vüqar Həşimov Memorialı”nın dünya şahmat təqvimində xüsusi yerə malik olduğunu söyləyən qurum rəsmisi Azərbaycan şahmatının uğurlarının V.Həşimovun adı ilə bağlı olduğunu deyib. 2023-cü ilin “Heydər Əliyev İli” elan olunduğunu xatırladan Mahir Məmmədov ölkəmizdə bu il beynəlxalq miqyaslı nüfuzlu idman yarışlarının təşkil edildiyini, onlardan birinin də Bakıdakı şahmat üzrə Dünya kuboku olduğunu bildirib. Yarışın həmişəki kimi yüksək səviyyədə təşkili üçün əllərindən gələni edəcəklərini deyən federasiya rəhbəri sonda iştirakçılara uğurlar arzulayıb.

Yarışın Təşkilat Komitəsinin rəhbəri, Vüqar Həşimovun atası Qasım Həşimov yarışda iştirak üçün dəvəti qəbul edən şahmatçılara minnətdarlıq edib.

Qasım Həşimov turnirin ənənəvi olaraq hər il yüksək səviyyədə keçirilməsinə görə, Prezident İlham Əliyevə, həmçinin bütün aidiyyəti qurumların əməkdaşlarına təşəkkürünü bildirib. İştirakçılara uğurlar arzulayan Q.Həşimov turniri açıq elan edib.

Beləliklə, açılış turunda superturnirin baş hakimi, beynəlxalq qrosmeyster İlahə Qədimova yarışın qaydaları ilə bağlı məlumat verdikdən sonra püşk atılıb.

İlk turda təmsilçimiz Rauf Məmmədov Aydın Süleymanlıya qalib gəlib. Boris Gelfand Arjun Eriqaisilə, Şəhriyar Məmmədyarov Rixard Rapportla, Nicat Abasov Yorden Van Forestlə, Vidit Santoş isə Teymur Rəcəbovla bərabərliyə razılaşıb. İkinci turda Nicat Abasov rumın Rixard Rapporta, Şəhriyar Məmmədyarov isə Boris Gelfanda qalib gəlib. Arjun Eriqaisi-Rauf Məmmədov, Teymur Rəcəbov-Aydın Süleymanlı, Yorden Van Forest-Vidit Santoş heç-heçə oynayıb. Üçüncü turda Rauf Məmmədovla Teymur Rəcəbov heç-heçə oynayıb.

Nicat Abasov Boris Gelfanda, Vidit Santoş Rixard Rapporta, Aydın Süleymanlı Yorden Van Forestə qalib gəlib. Şəhriyar Məmmədyarov Arjun Eriqaisəyə uduzub. Beləliklə, 3 turdan sonra 5 xalı olan Nicat Abasov yarış cədvəlində liderliyə yüksəlib.

Qeyd edək ki, Vüqar Həşimov Şahmat Fondu, Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyanın təşkilatçılığı ilə keçirilən yarışın ilk 3 günündə şahmatçılar rapid, son gündə – dekabrın 11-də isə blits üzrə mübarizə aparacaqlar.

***Leyla QURBANOVA***
***XQ***

Bizə yazırlar

# Lerik: 80 min əhali – 4 bankomat

**Ölkədə dövlət başçısı tərəfindən xalqın rahatlığı üçün bütün mütərəqqi üsullardan istifadə olunur. Respublikamızın bütün guşələrində müştərilərin bank xidmətlərindən istifadə zamanı insansız çalışan elektromexanik vasitə olan bankomatların quraşdırılması da məhz bu məqsəddən irəli gəlir. Hər bir Azərbaycan vətəndaşı bank-maaş, eləcə bank-kredit kartı ilə istədiyi vaxt pullarını çox asan şəkildə bankomatdan çıxara bilir.**

Təəssüf ki, bu rahatlıqdan Lerik rayonunun Hamarat kəndində yaşayan yaşlı adamlar istifadə edə bilmirlər. Belə ki, kənddə, həm də qocaların gedə biləcəyi yaxın ərazilərdə heç bir bankomat yoxdur. Doğrudur, Hamarata 20 kilometr məsafədə yerləşən Piran kəndində bankomat quraşdırılıb. Lakin kəndə ictimai nəqliyyat işləmir və buranın yaşlı sakinləri Pirana getməkdə çətinlik çəkirlər. Əlavə xərc çəkib getdikdə isə ya bankomatın qarşısında sıxlıq yaşanır, ya da ki, cihaz işlək vəziyyətdə olmur. Odur ki, pensiyalarını vaxtında götürə bilmirlər.

Vəziyyəti nəzərə alıb yaşlı insanları üzləşdikləri çətinlikdən qurtarmaq bilavasitə səlahiyyətli şəxslərin vəzifə borcudur. Lakin Hamarat kəndinə yaxın, bir neçə yaşayış məntəqəsini birləşdirən ərazidə bankomatın quraşdırılması rayonda hələ ki, kimsəni düşündürmür.

Onu da bildirim ki, Lerikdə 161 kənd və bir şəhər olmaqla, rayonda 80 min əhali yaşayır. Hazırda rayonun ərazisində “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinə məxsus 4 ədəd bankomat müştərilərə xidmət göstərir. Bu da heç müsbət rəqəm deyildir.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
**Lerik**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 269 (30385) 9 dekabr 2023-cü il, şənbə

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

İdman xəbərləri

## Güc idmançılarımız hamıdan güclüdür

***Güc idman növləri üzrə Azərbaycan yığması Moskvada keçirilən dünya çempionatında uğurla çıxış edib.***



Komandamızın heyətində mübarizə aparan Tural Orucov (100 kq) üç fərqli növ (WPC/AWPC/WPSO versiyaları) üzrə 2 qızıl və 1 bürünc medala sahib olub. Camal Əhmədzadə (110 kq) kəmər və qızıl medala layiq görülüb. Komandamızın digər üzvü Sadiq Musayev isə 82 kiloqram çəki dərəcəsində iki fərqli növ üzrə birinci və üçüncü yerləri tutub.

Bununla da, komandamız 8 ölkədən 400 idmançının iştirak etdiyi yarışın yekun nəticələrinə görə, ümumi hesabda birinci yerdə qərarlaşıb.

## Voleybolçularımızın növbəti oyunları

***Gürcüstanın Telavi şəhərində keçirilən Şərqi Avropa Voleybol Zonal Assosiasiyası (EEVZA) çempionatında 18 yaşadək voleybolçu oğlanlardan ibarət Azərbaycan millisi növbəti oyununu keçirib.***




Komandamız 4-cü matçında Estoniya voleybolçuları ilə qarşılaşıb. Cəlil Baxtiozinin baş məşqçisi olduğu yığma rəqibə 1:3 hesabı ilə məğlub olub.

Bundan əvvəlki turlarda millimiz Polşa, Ukrayna və Latviyaya 0:3 hesabı ilə uduzub.

Bu gün Azərbaycan millisi Gürcüstanla görüşəcək. Turnirin qalibi AVRO-2024-ün final mərhələsində oynamaq hüququ qazanacaq.

## Qadın badmintonçular təsnifat mərhələsində

***Avropa çempionatının təsnifat mərhələsinin ilk görüşündə Azərbaycanın qadınlardan ibarət badminton millisi Şotlandiya ilə mübarizə aparıb.***



Abşeron Olimpiya İdman Kompleksində keçirilən oyun rəqibin 5:0 hesablı qələbəsi ilə başa çatıb. Heyətində Keişa Fatimə Zəhra, Leyla Camalzadə, Aysu Kərimzadə, Era Maftuha və Həcər Nuriyevanın yer aldığı yığmamız qrupda növbəti oyunlarını Estoniya və Slovakiya ilə keçirəcəklər.

Qeyd edək ki, qrup qalibi 2024-cü ilin fevralın 14-18-də Polşanın Lodz şəhərində keçiriləcək Avropa çempionatının final mərhələsinə vəsiqə qazanacaq.

*Leyla SABİRQIZI*
*XQ*

## Türkiyə də səsdən sürətli raket yaratdı



**"Bayraktar TB2" pilotsuz uçan aparatın (PUA) layihə müəllifi və istehsalçısı "Baykar" şirkəti səsdəniti İHA-122 raketinin ilk sınağını uğurla həyata keçirib.**

Bu barədə müasir raketlərin istehsalçısı "Roketsan" şirkəti məlumat paylaşıb.

Məlumatda həmçinin deyilir ki, "Baykar" ilk dəfə keçirilən sınağın uğurla başa çatdığını açıqlayıb.

*XQ*

Kosmos



## ...Sutka 25 saat olacaq

***Yer kürəsinin öz oxu ətrafında fırlanma hərəkəti yavaşıyır. Bu barədə Münhen Texniki Universitetinin mütəxəssisləri məlumat yayıblar.***

"Bu "tormozlama" səbəbindən uzaq gələcəkdə kosmik standartlara görə sutka 25 saata çatacaq. Bu, təxminən, 200 milyon ildən sonra baş verəcək. Proses tədricən, eyni yavaşlama dərəcəsi ilə davam edir", - məlumatda deyilir.

Mütəxəssislər iddia edirlər ki, 1,4 milyard il əvvəl Yerin öz oxu ətrafında bir dövrəsi daha sürətlə - 18 saat 41 dəqiqəyə tamamlanıb.

*XQ*

Ekologiya

## Meksikada çəyirtkə tüğyan edir

**Meksika səmasında yeni çəyirtkə növləri peyda olub. Sinançe şəhərinin sakinləri səmada çoxlu sayda çəyirtkə gördüklərini bildiriblər.**

Bu barədə Meksikanın yerli informasiya kanalları məlumat yayıb.

Pəncərədən bayıra baxanda insanlar bağçalarındakı meyvə ağaclarının yarpaqlarının tər-təmiz yeyildiyini, limon, portağal və digər meyvələrin gəmirilmiş vəziyyətdə otun üzərinə düşdüyünü görüblər. Çəyirtkələr qarşılarına çıxan bütün yaşıllığı yeyib bitiriblər. Bitki örtüyü az olduğundan,



ac çəyirtkə sürüsü ağaclar, kollar və çiçəklərlə qidalanmaq üçün şəhər ərazilərinə köç edib.

Sosial şəbəkə istifadəçiləri bu hadisəni yaxın zamanlarda dünyanın sonunun yaxınlaşacağı ilə əlaqələndiriblər.

Qeyd edək ki, müqəddəs kitablarda (Quran, İncil, Tövrat) çəyirtkələr Misirə göndərilən 10 bəladan səkkizincisi kimi göstərilir.

*FİDAN*
*XQ*

Texnologiya

## "Votsap"da birdəfəlik mesaj

**"Votsap" mesencerində istifadəçilərə dinlənildikdən sonra "söhbətdən silinəcək" səsli mesajlar göndərməyə imkan verən funksiya istifadəyə verilib.**



Bu barədə "Meta" korporasiyası məlumat yayıb.

"İndi siz dinlədikdən sonra yox olacaq səsli mesajlar göndərə bilərsiniz", - deyə "Meta" saytında məlumat verilib.

Qeyd olunur ki, sözügedən oxuma funksiyası olan səsli mesajlar "birdəfəlik" işarəsi ilə işarələnib və yalnız bir dəfə oxuna bilər.

*FİDAN*
*XQ*

## "Samsung"un yeni smartfonu



**KİV xəbər verir ki, "Samsung Galaxy S24 Ultra" smartfonu titan korpuslu və yeni kamera ilə istehsal olunacaq. Belə ki, seriyanın ən bahalı modelində 50 meqapiksel təsvir ölçüsünə və beşqat optik "zoom"a malik yenilənmiş telefoto obyektiv, yeni soyutma sistemi və Wi-Fi 7 rabitə standartı dəstəyi olacaq.**

O da qeyd edilib ki, "Galaxy S24 Ultra"nın "Galaxy S23 Ultra"dan ciddi şəkildə fərqlənməyəcəyi bildirilir. Beləliklə, yeni flaqman hələ də "Quad HD" təsvir ölçülü və 120 hers tezliyə malik 6,8 düymlük displey, 12 giqabayt operativ yaddaş və 5 min milliamper-saat tutumlu akkumulyatora malik olacaq.

Bununla yanaşı, ABŞ-da seriyanın bütün modelləri – "S24", "S24 Plus" və "S24 Ultra" – "Smart Transit" funksiyası ilə "Qualcomm"dan modem alacaq. Qurğu süni intellekti dəstəkləyəcək.

*Ayan SƏMƏDQIZI,*
*tələbə-jurnalist*

Hava



## Gün yağıntılı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 9-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 6-9°, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 8-13° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-8° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

Sağlamlıq

## Gənəgərçək – ağrıyan yerə çək

**Sovet dövrünün məşhur qəpik-quruşluq gənəgərçək yağı rus xalqlarının qışda dadına çatan vasitə olub. Bu yağdan hər il qış fəslində istifadə etmək lazımdır.**



Gənəgərçək yağı insana müxtəlif problemlərinin aradan qaldırılmasına kömək edir:

**1.** Əvvəla, yağ dərini bərpa edir, soyuqdan qoruyur. Qışda əllərin dərisi havanın sərtliyindən qabıqlanır, qızarır, iltihablanır. Gənəgərçək yağı onun təbii baryerini, elastikliyini bərpa edir. Eləcə də, dezinfeksiyaedici təsir göstərib səpkiləri, göbələk infeksiyalarını müalicə edir.

**2.** Təbii işlədicidir. Gənəgərçək yağı həm uşaqlar, həm böyüklərdə qəbizliyə qarşı təbii vasitədir. Eləcə də ishal, ürəkbulanma, qarın nahiyəsindəki ağrılarda həm daxilə qəbul edilir, həm xaricə istifadə olunur.

**3.** Saç, qaş tökülməsinə qarşı faydalıdar. Yağ tük follikullarını aktivləşdirir, tökülən tüklərin və saçların yerinə yenilərinin əmələ gəlməsini sürətləndirir.

**4.** Ayaq, oynaq ağrılarını azaldır. Bütün limfa sisteminə təsir edərək, toksin və zərərli qalıqları çıxarır. Bu yağın artrit və artrozlar ağrılarında təsiri sübut olunub.

**5.** Gənəgərçək yağı babasil, hematoma və müxtəlif dəri yaralarını, yanıqları sağaldır.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4732 |
| SİFARİŞ | 3214 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00